RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 39 (9784) 21 fevral 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## A.T. Rasi-zadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə və dövlət qulluğunda müstəsna xidmətlərinə görə Artur Tahir oğlu Rasi-zadə "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2025-ci il*

## Prezident İlham Əliyev Artur Rasi-zadəyə "Heydər Əliyev" ordenini təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Artur Rasi-zadəni qəbul edib və ona "Heydər Əliyev" ordenini təqdim edib.**

→ 2

## Azərbaycan ilə İran arasında əməkdaşlığın inkişafı üçün çox yaxşı imkanlar var

### Prezident İlham Əliyev İran İslam Şurası Məclisinin Sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də İran İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibafın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

→ 2

## Ağdam şəhərində "İmarət" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qarabağ tarixinin və mədəni irsinin dərindən öyrənilməsi, Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığı barədə tarixi faktların təbliği və gələcək nəsillərə ötürülməsi məqsədilə **qərara alıram:**

1. Ağdam şəhərində "İmarət" Tarix-Memarlıq Muzey Kompleksi yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "İmarət" Tarix-Memarlıq Muzey Kompleksinin və Muzey Kompleksinə daxil ediləcək digər dövlət əmlakının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin balansına verilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.2. Muzey Kompleksinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tələb olunan zəruri xərclərin maliyyələşdirilməsinin Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilməsini təmin etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2025-ci il*

# Şərəfli missiya



Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə məhz Mehriban xanım Əliyevanın təyin edilməsi xalqımızın sosial sifarişi idi. Vətəndaşlarımız əmin idilər ki, bu təsisatı ən mükəmməl şəkildə məhz Mehriban xanım formalaşdıra, bu vəzifənin öhdəliklərini layiqincə yerinə yetirib cəmiyyətimizin, insanlarımzın həyatına yeni faydalar gətirə bilər. Mehriban xanım Əliyeva xalqımızda bu təəssüratı ötən əsrin 90-cı illərinin ortalarından etibarən cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirakı, gördüyü işlər, yerinə yetirdiyi uğurlu layihələrlə yaratmışdı.

8 il əvvəl Mehriban xanım Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti kimi cəmiyyətə təqdim edərkən dövlət başçısı İlham Əliyev onun Yeni Azərbaycan Partiyasının Sədr müavini, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti, Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvü, ölkəmizdə keçirilmiş "Avroviziya" Beynəlxalq Mahnı Müsabiqəsinin, I Avropa və IV İslam Həmrəyliyi Oyunları Təşkilat komitələrinin rəhbəri kimi gördüyü işləri diqqətə çatdırmış, bütün bu çoxşaxəli, uğurlu fəaliyyətin bu qərarı qəbul etməyində əsas rol oynadığını bildirmişdi: "Eyni zamanda qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir".

Prezident İlham Əliyevin bu qərarı bir tərəfdən Azərbaycan naminə görülmüş işlərin, ardıcıl fəaliyyətlə dövlətimiz, cəmiyyətimiz üçün yaradılmış faydaların layiqli qiyməti, digər tərəfdən isə cəmiyyətdə qadın iştirakçılığına, bütövlükdə qadına verilən dəyərin ifadəsidir. Mehriban xanım bu təyinatdan sonrakı müsahibələrinin birində qeyd edirdi ki, onun Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmağı barədə qərar məhz Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü idi: "Əlbəttə, mənim artıq uzun illər Prezidentin təkcə həyat yoldaşı deyil, deyə bilərəm ki, həmməsləki olmağım yəqin ki, öz rolunu oynayıb. Lakin düşünürəm ki, onun belə qərara gəlməsinin səbəbi bu deyildi. Əsas budur ki, rəhbər vəzifədə - Azərbaycan Respublikasının Prezidenti kimi İlham Əliyev ilk növbədə ölkənin və Azərbaycan xalqının maraqlarına istinad edir. Düşünürəm ki, bu qərarı da o bu prinsiplərə istinad edərək qəbul etmişdir. Buna görə də, əlbəttə, üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam".

→ 8

## Prezidentin silahdaşı, xalqın sevimlisi

Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlar əlbəttə ki, hər birimizi dərindən fərəhləndirir, qürur hissi yaşadır. Və bu nailiyyətlərin davamlı olması, onun yeni uğurlarla zənginləşməsi hər birimizin arzusudur. Bu mənada siyasi-ictimai statusundan, vəzifəsindən asılı olmayaraq, hər birimizin əsas vətəndaş məsuliyyəti öz əməllərimizlə Azərbaycanın inkişafını təmin edən siyasətə dəstək olmaqdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər bu məsələdə hər kəs üçün ən böyük örnəkdir. Çünki Mehriban Əliyevanın bütün fəaliyyəti ilk növbədə vətəndaşların sosial rifahına, Azərbaycanın uğurlarının dünyada təbliğinə, erməni yalanlarının ifşasına, milli-mənəvi dəyərlərimizin qorunmasına və tanıdılmasına xidmət edib və etməkdədir. Ona görə də Mehriban xanım Əliyevanın 2017-ci ildə Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması bütün cəmiyyətimiz tərəfindən böyük razılıqla qarşılandı. Birinci vitse-prezident vəzifəsi 2016-cı ildə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklərdən sonra hüquqi status alıb. Dövlət idarəetməsində vitse-prezidentlik institutu bir sıra ölkələrdə çoxdan mövcuddur. Onların təcrübəsi göstərir ki, idarəçilikdə daha səmərəli fəaliyyət üsullarının tətbiqi, dövlətin öz vəzifələrini daha çevik həyata keçirməsi baxımından vitse-prezidentlik institutu özünü uğurla doğruldur. Ona görə belə bir mütərəqqi idarəetmə mexanizminin Azərbaycanda da tətbiq edilməsinə vətəndaşlar referendumda müsbət münasibət bildirmişlər.

Birinci vitse-prezident vəzifəsinə Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın təyin olunması isə bütün cəmiyyətimiz tərəfindən yüksək rəğbətlə qarşılandı. Çünki bu vəzifə üçün ən layiqli namizəd məhz Mehriban Əliyeva idi. İctimaiyyət əmin idi ki, çalışdığı bütün vəzifələrdə öz dövlətinə və xalqına şərəflə xidmət edən Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin ən böyük silahdaşı olaraq Birinci vitse-prezident kimi də bu missiyanı layiqincə yerinə yetirəcək.

→ 5

## Bəşəri ideallar naminə

Azərbaycan mədəniyyətinin geniş təbliği və sağlam mənəvi dəyərlərin qorunması sahəsində görülən işlər Birinci vitse-prezident Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əsas xəttini təşkil edir. Ulu Öndər Heydər Əliyevin zəngin irsinin davamçısı olan Heydər Əliyev Fondu Azərbaycanın yüksək dəyərlərini və humanizm prinsiplərini beynəlxalq aləmə tanıtdırmaqda əvəzsiz rol oynayır.

Fondun qarşıya qoyduğu məqsəd demək olar ki, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş layihələr, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulub. Bu məqsəd fondun fəaliyyət proqramında daha dəqiq ifadə olunduğu kimi, milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir.

Cənab Prezident İlham Əliyev bu fondun fəaliyyətini yüksək qiymətləndirərək qeyd edib ki, Mehriban Əliyevanın rəhbərliyi ilə fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir.

Pandemiya ilə mübarizə dövründə Mehriban Əliyeva öz missiyasına və amalına sadiqliyini bir daha nümayiş etdirdi. Belə ki Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu xeyriyyə aksiyaları həyata keçirdi. Bu aksiyalar çərçivəsində 200 mindən çox ailəyə ərzaq məhsulları ilə sovqatlar paylanması fondun sosial missiyasını bir daha nümayiş etdirdi.

Birinci vitse-prezidentin fəaliyyətində ən vacib məsələlərdən biri, bəlkə də birincisi şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlərlə bağlı olan işdir.

→ 6

# Azərbaycan ilə İran arasında əməkdaşlığın inkişafı üçün çox yaxşı imkanlar var

## Prezident İlham Əliyev İran İslam Şurası Məclisinin Sədrini qəbul edib

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti iki ölkənin xalqlarının ortaq tarixi, mədəni və dini köklərinin olduğunu, xalqlarımızın yaxınlığını vurğuladı.

Son dövrlərdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif səviyyələrdə ikitərəfli səfərlərin intensiv xarakter daşımasını məmnunluqla qeyd edən Prezident İlham Əliyev bunu əlaqələrimizin dinamik surətdə inkişafının təzahürü kimi qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimizin parlamentlərarası əlaqələrinin genişləndiyini qeyd etdi və İran İslam Şurası Məclisinin Sədrinin Azərbaycana səfərinin bu əlaqələrin daha da inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan Prezidenti iqtisadi-ticari, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu. Şimal-Cənub nəqliyyat dəhlizinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu dəhlizin Azərbaycana aid olan hissəsində yükdaşıma imkanlarının artırılması üçün ölkəmiz tərəfindən zəruri işlərin görüldüyünü dedi. Dövlətimizin başçısı Ağbənd keçidinin inşası istiqamətində fəaliyyətin intensiv şəkildə həyata keçirildiyini və bu layihənin regionun nəqliyyat imkanlarının artırılmasına töhfə verəcəyini qeyd etdi.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələri tərəfindən həll edilməli və bölgədənkənar qüvvələrin regiona müdaxiləsinin qəbuledilməz olduğunu dedi, 3+3 formatının əhəmiyyətini vurğuladı.

Məhəmməd Baqir Qalibaf İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarının Məsud Pezeşkiana çatdırılmasını xahiş etdi.

Qonaq Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının Bakıda yüksək səviyyədə təşkil olunduğunu söylədi, iki ölkə arasında səfərlərin intensiv xarakter daşımasından məmnunluğunu diqqətə çatdırdı.



Azərbaycan ilə İran arasında iqtisadiyyat, ticarət, elm, texnologiya, səhiyyə sahələrində və digər sahələrdə əməkdaşlığın inkişafı üçün çox yaxşı imkanların olduğunu vurğulayan Məhəmməd Baqir Qalibaf bu xüsusda hökumətlərarası komissiyanın işinin daha da intensivləşdirilməsinin vacibliyinə toxundu.

Ölkəsinin Azərbaycanla birlikdə regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında ortaq maraqları bölüşdüyünü deyən qonaq İranın regionun məsələlərinin region ölkələri tərəfindən həll edilməsi yanaşmasını dəstəklədiyini bildirdi. O, Azərbaycan ilə İranın beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyini və yaxından əməkdaşlıq etdiklərini vurğulayaraq, 3+3 formatının əhəmiyyətini qeyd etdi.

Məhəmməd Baqir Qalibaf dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Prezident İlham Əliyev Artur Rasi-zadəyə "Heydər Əliyev" ordenini təqdim edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən dövlətimizin başçısı dedi:

-Hörmətli Artur müəllim, sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Siz uzun illər ərzində Azərbaycanın inkişafına töhfə vermisiniz. Müxtəlif məsul vəzifələrdə çalışaraq Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük səylər göstərmisiniz həm sovet dövründə, həm də müstəqillik dövründə. Ulu Öndər Heydər Əliyev sovet dövründə sizin peşəkarlığınızı, biliklərinizi nəzərə alaraq, - hələ o vaxt siz gənc yaşlarınızda idiniz, - sizi qabağa çəkərək önəmli vəzifələrə təyin etmişdir, Nazirlər Sovetinin sədrinin müavini vəzifəsinə. Ulu Öndər Heydər Əliyev müstəqillik dövründə Azərbaycan Prezidenti seçiləndən sonra ilk təyinatlarından biri də sizi özünə köməkçi təyin etməyi idi. Ondan sonra sizi daha böyük vəzifəyə layiq gördü və Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin etdi.

Təbii olaraq, Ulu Öndər Heydər Əliyev insanları tanıyırdı, onların peşəkarlığını, biliklərini və bilirəm ki, sizi də bir insan kimi həmişə yüksək qiymətləndirirdi. Həm dediyim keyfiyyətlərə, eyni zamanda prinsipial mövqeyinizə görə. Sizin prinsipial mövqeyiniz bütün məsələlərdə özünü göstərirdi - həm ölkəmizin iqtisadi inkişafı ilə, həm də bütün başqa məsələlərlə bağlı.

Biz sizinlə 15 il işləmişik - 2003-cü ildən 2018-ci ilə qədər. Hesab edirəm ki, o illər Azərbaycan iqtisadiyyatı üçün ən sürətli inkişaf illəri olmuşdur. Azərbaycan iqtisadiyyatı o illərdə bəlkə də iki dəfə çox artmışdır və ölkə qarşısında duran əsas infrastruktur layihələrinin həlli, ya da ki, başlanması məhz o illərə təsadüf edir. Sizin rəhbərliyinizlə Nazirlər Kabineti Prezidentin tapşırıqlarını ləyaqətlə yerinə yetirirdi və bu gün Azərbaycanın dayanıqlı iqtisadi inkişafı təbii olaraq bizim müstəqilliyimizin əsasını təşkil edir. Birlikdə işlədiyimiz 15 il ərzində daim təmasda idik, məsələləri müzakirə edirdik, həll edirdik. 2018-ci ildən sonra da təmasdayıq. Şadam ki, siz yubileyinizi çox yaxşı fiziki formada qarşılayırsınız və sizi həmişə görmək mənim üçün xoşdur. İllər boyunca bir çox telefon söhbətimiz olubdur, bir çox məsələləri müzakirə etmişik. Sizi bu gün gözəl yubiley ərəfəsində dəvət etdim ki, sizə Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordenini təqdim edim. Bu gün imzaladığım Sərəncamla siz ölkəmizin ən ali mükafatına layiq görülmüsünüz. Siz buna layiqsiniz, siz Heydər Əliyevin etibarlı silahdaşı olmusunuz. Yenə də deyirəm, həm sovet dövründə, həm müstəqillik dövründə, özü də müstəqilliyimizin ən ağır dövrlərində atamın yanında olmusunuz. O bunu qiymətləndirirdi, mən də həmişə qiymətləndirirdim və qiymətləndirirəm. Bu, tam ədalətli bir qərardır və icazə verin, mən bu yüksək ordeni sizə təqdim edim.

❖ ❖ ❖

Prezident İlham Əliyev "Heydər Əliyev" ordenini Artur Rasi-zadəyə təqdim etdi.

❖ ❖ ❖

Əməyinə verdiyi qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Artur Rasi-zadə Ulu Öndər Heydər Əliyevin adını daşıyan ordenə layiq görülməyin onun üçün ən böyük şərəf olduğunu dedi, Ümummilli Liderlə və Prezident İlham Əliyevlə uzun illər ərzində çalışmaqdan fəxr hissi keçirdiyini vurğuladı. Artur Rasi-zadə Azərbaycan Prezidentinin tarixi hadisənin müəllifi olduğunu, torpaqlarımızın 30 illik işğalına son qoyduğunu və orada yeni həyatın başladığını qeyd etdi.

# "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 2-ci maddəsinə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı;".

**Maddə 2.** "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2025-ci il*

# "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi nəzərdə tutulur.

2. "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin İcraçı direktoruna verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2025-ci il*

*Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında

## ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə media sahəsinin inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfi xarici və daxili çevrələrlə konturlanmışdır. Xarici çevrə dekorativ elementlidir.

2.2. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca "AZƏRBAYCAN MİLLİ MƏTBUATI" sözləri, aşağı qövs boyunca "1875-2025" rəqəmləri yazılmışdır. Yazılarla rəqəmlərin arasında sol və sağ tərəflərdə qövs boyunca yuxarıya doğru uzanan sünbül çələngləri təsvir olunmuşdur.

2.3. Daxili çevrənin içərisində "150 İL" sözləri və bükülmüş vərəq və lələkdən ibarət kompozisiya yerləşdirilmişdir.

2.4. Bütün yazılar, rəqəmlər və elementlər relyefli olaraq, qabarıqdır, qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi çevrə ilə konturlanmışdır. Çevrənin içərisində "AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 150 İLLİYİ" sözləri həkk olunmuşdur. Yazılardan aşağı hissədə "1875-2025" rəqəmləri yazılmışdır. Rəqəmlərdən sol, sağ və aşağı tərəflərdə üç düz xətt təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

3.3. Bütün yazılar, rəqəmlər və xətlər relyefli olaraq, qabarıqdır, qızılı rəngdədir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 50 mm x 37 mm ölçülü xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin yuxarı hissəsinə üzərində relyefli aypara və səkkizguşəli ulduzdan, aypara və ulduzun sol və sağ tərəflərində bükülmüş lentlərdən ibarət kompozisiya həkk olunmuş 40 mm x 5,5 mm ölçülü metal lövhə bərkidilmişdir.

4.2. Xara lentin mərkəzində eni 11 mm olan qızılı rəngli şaquli zolaq təsvir edilmişdir. Mərkəzdən sol və sağ kənarlara doğru, ardıcıl olaraq 6,5 mm enində boz rəngli, 2 mm enində qızılı rəngli, 2,5 mm enində açıq göy rəngli və 2 mm enində qızılı rəngli şaquli zolaqlar təsvir edilmişdir.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)"
Azərbaycan Respublikasının yubiley medalı



# Azərbaycan qonşu dövlətlərlə faydalı əməkdaşlığa böyük əhəmiyyət verir



Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan İran İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibaf ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə iclasın Bakının evsahibliyi ilə yüksək səviyyədə təşkil olunduğu vurğulanaraq, bu cür tədbirlərin həm bir sıra ciddi qlobal məsələlərin müzakirəsi baxımından mühüm platforma olduğu, eyni zamanda təşkilata üzv ölkələr arasında münasibətlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığı qeyd edilib.

Söhbət zamanı Məhəmməd Baqir Qalibafin ölkəmizə ilk dəfə səfər etdiyi və bunun münasibətlərimizin inkişafına töhfə verəcəyi ilə bağlı inam ifadə edilib. Bildirilib ki, Azərbaycan və İran xalqları ortaq tarixi, dini və mədəni dəyərləri bölüşürlər. Bu, ölkələrimiz arasındakı hazırkı münasibətlərin əsasını təşkil edir və münasibətlərin daha da genişləndirilməsi üçün yaxşı təməldir.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın xarici siyasətinin prinsiplərinə, müasir beynəlxalq münasibətlər sisteminə dair baxışları ilə bağlı Prezident İlham Əliyevin fikirlərini xatırladaraq, deyib ki, bu prinsiplər dostluq, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq öhdəliklərə riayət etmək, qarşılıqlı hörmət nümayiş etdirmək kimi prinsiplərdir. Spiker Sahibə Qafarovanın sözlərinə görə, dövlət başçımız Azərbaycanla qonşuları arasında mehriban qonşuluq və qarşılıqlı anlaşma şəraitində birgə fəaliyyətə, qarşılıqlı faydalı əməkdaşlığa böyük əhəmiyyət verir. Eyni regionda yerləşən, qonşu olan ölkələrin bir-birinə qarşılıqlı etimadı, əməkdaşlığı yalnız onların hər birinə fayda gətirə bilər. Elə Azərbaycan-İran münasibətlərinin hazırkı vəziyyəti də bunu təsdiq edir. Vurğulanıb ki, təxminən son bir ayda həyata keçirilmiş səfərlərə, görüşlərə, danışıqlara nəzər yetirsək, iki ölkə arasında əməkdaşlıq gündəliyinin çox zəngin olduğunu görərik. Bütün bu təmaslar, danışıqlar ikitərəfli əlaqələrin inkişafına böyük təkan verir.

İran İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibaf qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, APA-nın Milli Məclisin evsahibliyi ilə Bakıda keçirilən 15-ci plenar sessiyasının önəmini vurğulayaraq, müzakirəyə çıxarılan qərarların əhəmiyyətindən danışıb. Qonaq, ölkəsinin bütün qonşu dövlətlərlə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu, bu siyasətdə Azərbaycanın xüsusi yer tutduğunu qeyd edib, gələcəkdə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılacağına əminliyini ifadə edib.

Görüşdə dövlətlərarası münasibətlərin mühüm bir istiqaməti kimi parlamentlər arasında da əlaqələrin genişləndirilməsi, beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq məsələləri də nəzərdən keçirilib.

Söhbət zamanı bu gün Cənubi Qafqaz regionunda mövcud olan yeni imkanlar və perspektivlər barədə də danışılıb. Bu baxımdan, Azərbaycanın təşəbbüsü ilə yaradılan "3+3" əməkdaşlıq formatının əhəmiyyəti qeyd edilib. Bildirilib ki, kənar xarici qüvvələrin regiona cəlb edilməsi isə yaxşı heç nə vəd etmir. Məhəmməd Baqir Qalibaf da İranın "3+3" platformasını tam dəstəklədiyini, bu formatın regionda sülhə və sabitliyə, həmçinin siyasi-iqtisadi əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Qeyd olunub ki, regiona kənar ölkələrin cəlb olunması qəbuledilməzdir.

Görüşdə həmçinin regiondakı nəqliyyat bağlantılarının, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin və Şərqi Zəngəzuru Naxçıvanla birləşdirəcək yol bağlantısının əhəmiyyəti xüsusi vurğulanıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan və Bəhreyn bir sıra sahələrdə uğurlu əməkdaşlıq edirlər

Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Bəhreyn Krallığının Şura Məclisinin Sədri Əli Saleh Abdulla Əlsaleh ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycan paytaxtında 15-ci plenar iclasın uğurla təşkil olunduğu qeyd edilərək, APA çərçivəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Bildirilib ki, bu təşkilat Asiya ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verən mühüm bir platformadır. Bu təşkilat üzv ölkələrin qanunverici orqanları arasında əməkdaşlığa və təmasların artmasına da imkan verir. Söhbət zamanı Azərbaycanın sədrliyi dövründə təşkilatın funksional inkişafı, üzvlərinin sıralarının genişləndirilməsi istiqamətində görülən işlər müsbət qiymətləndirilib.

Görüşdə Azərbaycan və Bəhreyn arasında münasibətlərin inkişafından razılıq ifadə edilərək, xalqlarımız arasında mövcud olan ortaq dini və mədəni dəyərlərin ölkələrimiz arasında münasibətlərə müsbət töhfə verdiyi və iki dövlətin bir sıra sahələrdə uğurlu əməkdaşlıq etdiyi bildirilib. Diqqətə çatdırılıb ki, Azərbaycan və Bəhreyn BMT, İslam Əməkdaşlığı Təşkilatı, Qoşulmama Hərəkatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində müsbət əməkdaşlıq əlaqələrinə malikdir.

Tərəflər beynəlxalq parlament təşkilatları, o cümlədən, Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində də əməkdaşlıqla bağlı fikirlərini ifadə ediblər. Qeyd olunub ki, Parlament Şəbəkəsi parlamentlərarası əməkdaşlığı təşviq etmək üçün mühüm platformaya çevrilməkdədir.

Görüşdə ölkələrimizin parlamentləri arasında münasibətlərə dair də fikir mübadiləsi aparılıb. Milli Məclisin Sədri Sahibə Qafarova özünün Bəhreyn Krallığına işgüzar səfərini, həmçinin qarşı tərəflə bundan öncə keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, qeyd edib ki, qanunverici orqanlarımız arasında əlaqələri daha da dərinləşdirmək üçün yaxşı imkanlar mövcuddur. Qarşılıqlı səfərlərin və sıx təmasların bu istiqamətdə vacib rol oynaya biləcəyi vurğulanıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# *Butan Milli Assambleyasının Sədri:* "Azərbaycanla əlaqələrin inkişaf etdirilməsi ilə bağlı təkliflərimi hökumətə çatdıracağam"



Milli Məclisin Sədri Sahibə Qafarova Butan Krallığı Milli Assambleyasının Sədri Lunqten Dorci ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, görüşdə bu səfərin Butan Krallığından parlament sədri səviyyəsində ölkəmizə ilk səfər olduğu diqqətə çatdırılıb, onun parlamentlərimiz arasında əlaqələrə töhfə verəcəyinə inam ifadə edilib.

Söhbət zamanı xalqlarımızın sülhpərvər ideyaları dəstəklədikləri, dünyada sülh və sabitliyin bərpa olunması ilə bağlı təşəbbüslərin vacibliyi qeyd edilib. Ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün imkanlar olduğu vurğulanıb. Beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində daha fəal əməkdaşlıq etmək niyyəti ifadə edilib və bu istiqamətdə müzakirələr aparılıb.

Butan Milli Assambleyasının Sədri Lunqten Dorci bu səfərin onun üçün yaddaqalan olduğunu bildirib və paytaxt Bakı ilə bağlı xoş təəssüratlarını bölüşüb. O, 15-ci plenar sessiyanı ən uğurlu sessiya kimi qiymətləndirib. Assambleyanın sədri ölkəsinə geri qayıtdıqdan sonra hökumətlə görüşəcəyini və Azərbaycanla əlaqələrin inkişaf etdirilməsi ilə bağlı təkliflərini hökumətə çatdıracağını deyib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən parlamentlər arasında əlaqələrin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan və Pakistan arasında strateji münasibətlər dostluq və qardaşlıq prinsipləri əsasında qurulub



Fevralın 20-də Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Pakistan Senatının Sədri Syed Yusuf Raza Gilaninin rəhbərlik etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonağı və rəhbərlik etdiyi nümayəndə heyətini Milli Məclisdə salamlamaqdan məmnunluğunu ifadə edən spiker Sahibə Qafarova bildirib ki, bu səfər Azərbaycan və Pakistan arasında dostluq və qardaşlıq münasibətlərinin növbəti təzahürüdür. Milli Məclisin Sədri qonağa Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında iştirakına görə təşəkkürünü bildirib.

Sahibə Qafarova qeyd edib ki, Azərbaycan və Pakistan arasında strateji münasibətlər dostluq və qardaşlıq prinsipləri əsasında qurulub. İki ölkə həm ikitərəfli, həm də beynəlxalq müstəvilərdə bir-birini daim dəstəkləyir və 1992-ci ildə diplomatik əlaqələrimiz qurulandan ötən dövrdə dövlətlərimiz arasındakı əlaqələr bütün sahələrdə yüksələn xətt üzrə inkişaf edir.

İki ölkə arasında münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin xüsusi rolunu qeyd edən Milli Məclisin Sədri Prezident İlham Əliyevin Pakistana səfərlərinin, Pakistanın baş nazirlərinin Azərbaycana səfərlərinin və imzalanmış sənədlərin xüsusi rolundan danışıb. Bildirilib ki, Pakistanın Baş naziri Şahbaz Şərif ölkəmizdə keçirilmiş COP29 konfransında iştirak edib və onun ölkəmizə növbəti səfərinin yaxın günlərdə baş tutması planlaşdırılır.

Spiker Sahibə Qafarova bildirib ki, parlamentlərimiz arasındakı qarşılıqlı əlaqə dövlətlərimiz arasında münasibətlərin inkişafına mühüm və müsbət təsir göstərir. Bu baxımdan hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən qarşılıqlı dostluq qruplarının üzərinə mühüm vəzifə düşür. Bu gün qanunverici orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub. Parlamentlərimiz bir sıra beynəlxalq təşkilatlarda sıx əməkdaşlıq edirlər. Qeyd olunub ki, Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin üçtərəfli formatda əməkdaşlığı strateji müttəfiq ölkələrimizin əldə etdikləri nailiyyətlərdən biridir. Pakistan İslam Respublikası həm ikitərəfli, həm də çoxtərəfli formatlarda Azərbaycan xalqını narahat edən məsələlərdə Azərbaycanın ədalətli mövqeyini davamlı olaraq dəstəkləyir. Pakistan qəti mövqeyini beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin 30 illik Ermənistan işğalına son qoymuş 44 günlük Vətən müharibəsi zamanı açıq şəkildə nümayiş etdirdi. Azərbaycan xalqı Pakistanın ölkəmizin beynəlxalq hüquq normalarına və prinsiplərinə əsaslanan ədalətli mövqeyini dəstəkləməsini yüksək qiymətləndirir. Milli Məclisin Sədri Azərbaycanın haqq işinə göstərilən ədalətli mövqeyə görə bir daha minnətdarlığını bildirib.

Söhbət zamanı spiker Sahibə Qafarova Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti, Azərbaycanın sədrliyi dövründə bu qurumun institusional inkişafı üçün görülən işlər, Ermənistanla sülh prosesinin gedişi, Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etdikdən sonra bəzi Avropa təşkilatlarının və ölkələrinin ölkəmizə qarşı qərəzli münasibəti barədə qonaqlara məlumat verib.

Pakistan Senatının Sədri Syed Yusuf Raza Gilani qonaqpərvərliyə və ölkəmizə dəvətə görə təşəkkürünü ifadə edərək bildirib ki, bu, onun Azərbaycana ilk səfəridir. O, diqqətə çatdırıb ki, Pakistan və Azərbaycan həmişə bir-birilərini dəstəkləyən qardaş ölkələrdir və xalqlarımız ortaq dəyərləri bölüşürlər. Bildirib ki, Pakistan Ermənistanla diplomatik münasibət qurmayan nadir ölkələrdəndir. Pakistanın Azərbaycanla 1992-ci ildən yaradılmış diplomatik münasibətlərindən ötən illər ərzində bütün sahələrdə, o cümlədən parlamentlərimiz arasında yüksək səviyyəli əlaqələri formalaşıb. Bu baxımdan mütəmadi həyata keçirilən qarşılıqlı səfərlər mühüm rol oynayır. Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin ikinci üçtərəfli görüşünün də bu il Pakistanda keçirilməsi planlaşdırılır. Bununla yanaşı, ticarət, müdafiə, enerji, mədəniyyət, təhsil sahələrində əlaqələrimizi daha da inkişaf etdirmək üçün geniş imkanlar var.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barəsində də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Türkiyənin ölkəmizdə yeni təyin olunmuş səfiri Milli Məclisdə olub



Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Birol Akgün ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, parlamentin sədri qardaş Türkiyənin yeni təyin olunmuş səfirini təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə qardaş ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə edilib, münasibətlərimizin Ulu Öndər Heydər Əliyevin söylədiyi "Bir millət, iki dövlət" prinsipinə uyğun olaraq bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. İki ölkənin prezidentlərinin rəhbərliyi ilə Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin ən yüksək səviyyəyə çatdığı və bu gün dünya miqyasında bənzəri olmadığı diqqətə çatdırılıb. Tarixi Şuşa Bəyannaməsi xalqlarımız arasında mövcud olan tarixi, ənənəvi qardaşlıq əlaqələrinin ifadəsi kimi qiymətləndirilib. Həmçinin bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu regionumuzda da sülh və sabitliyin, təhlükəsizliyin təmin olunmasına mühüm amildir. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığa toxunulub. Qeyd olunub ki, iki qardaş dövlət hər zaman bir-birinin yanındadır və bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq bir-birini dəstəkləyir.

Həmçinin ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin iki ölkənin parlamentləri platformasında da uğurla davam etdirildiyi vurğulanıb. Bildirilib ki, qanunverici orqanlarımızın əlaqələri ölkələrimiz arasında əməkdaşlığın ruhuna uyğundur və ildən-ilə möhkəmlənir. İkitərəfli əsasda əlaqələrimizin üçtərəfli platformalarda da inkişaf etdiyi diqqətə çatdırılıb.

Birol Akgün Türkiyənin Azərbaycanda səfiri kimi fəaliyyəti zamanı mövcud müttəfiqlik münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" 2012-ci il 12 dekabr tarixli 310 nömrəli, "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" 2013-cü il 3 may tarixli 75 nömrəli, "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" 2015-ci il 3 avqust tarixli 272 nömrəli, "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpaqları alan orqanın müəyyən edilməsi barədə" 2020-ci il 21 dekabr tarixli 502 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

**№ 24**

**Bakı şəhəri, 19 fevral 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 dekabr tarixli 310 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1374 (Cild I) 1-ci və 2-ci hissələrində ismin müvafiq hallarında "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

2. "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 3 may tarixli 75 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 564 (Cild I) 1-ci və 2-ci hissələrində ismin müvafiq hallarında "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

3. "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 avqust tarixli 272 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 958 (Cild I) 1-ci və 2-ci hissələrində ismin müvafiq hallarında "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

4. "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpaqları alan orqanın müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 dekabr tarixli 502 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1603 (Cild I) 1-ci və 2-ci hissələrində ismin müvafiq hallarında "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan və Ukrayna Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb

Fevralın 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Ukrayna xarici işlər nazirinin müavini Oleksandr Mişenko ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyinin aktual məsələləri, habelə regiondakı vəziyyət haqqında müzakirələr aparılıb.

Tərəflər görüş zamanı dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına dair iki ölkə tərəfindən davamlı şəkildə nümayiş etdirilən mövqenin, habelə ölkələr arasında beynəlxalq hüququn fundamental prinsiplərinə, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin vacibliyini vurğulayıblar. Qarşı tərəf Azərbaycanın Ukraynanın münaqişədən zərər çəkmiş bölgələrinin bərpa və yenidən qurulmasına töhfəsinin, həmçinin Ukrayna xalqına göndərilən humanitar yardımların yüksək qiymətləndirildiyini qeyd edib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bu gün, həmçinin Azərbaycan və Ukrayna Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Samir Şərifov, Ukrayna tərəfindən isə Oleksandr Mişenko rəhbərlik ediblər.

# Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası başa çatıb

Fevralın 20-də Milli Məclisin inzibati binasında Asiya Parlament Assambleyasının (APA) "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının bağlanış mərasimi keçirilib.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin APA-da parlament nümayəndə heyətinin rəhbəri, qurumun İcraedici Şurasının sədri Rizvan Nəbiyev tədbiri açaraq sessiya ərzində görülən işlərdən bəhs edib. O, 15-ci plenar sessiya çərçivəsində qurumun Sosial və mədəni məsələlər, Büdcə və planlaşdırma, İqtisadiyyat və davamlı inkişaf, Siyasi məsələlər üzrə daimi komitələrinin iclaslarının keçirildiyini söyləyib. Qeyd edilib ki, komitələrin gündəliklərinə daxil edilən məsələlər, o cümlədən müvafiq qətnamə layihələri, yekun hesabatlar nəzərdən keçirilib.

Sonra Rizvan Nəbiyev Asiya Parlament Assambleyasının İcraedici Şurasında baxılan məsələlər barədə məlumat verib. O, bildirib ki, 2025-ci il üçün Rusiya Federasiyasının namizədliyi APA-nın vitse-prezidenti və Sosial və mədəni məsələlər üzrə daimi komitənin sədri, Qətər Dövlətinin namizədliyi APA-nın vitse-prezidenti və Büdcə və planlaşdırma üzrə daimi komitənin sədri, Bəhreyn Krallığının namizədliyi APA-nın vitse-prezidenti və İqtisadiyyat və davamlı inkişaf üzrə daimi komitənin sədri, İran İslam Respublikasının namizədliyi APA-nın vitse-prezidenti və Siyasi məsələlər üzrə daimi komitənin sədri kimi təqdim edilib. Tədbir iştirakçıları irəli sürülən namizədlikləri dəstəkləyiblər.

Sonra Asiya Parlament Assambleyasının Baş katibi Mohammad Reza Majidi çıxış edərək, Azərbaycan Respublikasına APA-ya sədrlik etdiyi dövrdə yüksək səviyyədə təşkilatçılığa görə təşəkkürünü ifadə edib.

Növbəti məsələyə dair məlumatında Rizvan Nəbiyev bildirib ki, əldə edilmiş razılığa əsasən, Bəhreyn Krallığı 2026-cı il üçün, İran İslam Respublikası isə 2027-2028-ci illərdə APA-nın sədrliyini öz üzərinə götürür. Bununla yanaşı, İran İslam Respublikası 2026-cı ildə APA-nın vitse-prezidenti və İqtisadiyyat və davamlı inkişaf üzrə daimi komitənin sədri vəzifələrini icra edəcək. Bu məsələlərlə bağlı qərar da təsdiq edilib.

Tədbirdə Bəhreyn Krallığının və İran İslam Respublikasının nümayəndələri çıxış edərək, bu ölkələrin namizədliklərinə verilən dəstəyə görə minnətdarlıqlarını bildiriblər, APA-nın Asiya dövlətlərini birləşdirən qurum kimi regionda davamlı inkişafa, əməkdaşlığın möhkəmlənməsinə, sülhə, sabitliyə verdiyi töhfələrin əhəmiyyətini qeyd ediblər, Azərbaycanın sədrliyi dövründə APA-nın fəaliyyətində əldə edilən nailiyyətləri təqdir ediblər.

Sonra APA-nın Nizamnaməsinə və Reqlamentinə qurumun İcraedici Şurasının tövsiyə etdiyi dəyişikliklər nəzərdən keçirilib və təsdiq olunub.

Yekunda Asiya Parlament Assambleyasının Baş katibi Mohammad Reza Majidi Azərbaycanın sədrliyi ilə APA-nın 15-ci plenar sessiyasının uğurla keçdiyini, vacib qərarların qəbul edildiyini və bunun qurumun prinsiplərinə uyğun olduğunu söyləyib. O, Bakıdakı tədbirdə iştirak edən bütün nümayəndə heyətlərinə göstərdikləri fəallığa görə təşəkkür edib. Baş katib, həmçinin, parlamentlərdə təmsil olunan gənc nəslin nümayəndələrinin fəaliyyətini, onların ümumi işə verdiyi töhfələri yüksək dəyərləndirib.

Mohammad Reza Majidi Milli Məclisin spikeri Sahibə Qafarovaya APA-nın 15-ci plenar sessiyasının yüksək səviyyədə təşkilinə və səmərəli müzakirələrə görə bir daha öz minnətdarlığını bildirib.

Sonra Rizvan Nəbiyev APA-nın 15-ci plenar sessiyasında Bakı Bəyannaməsinin və müxtəlif mövzularda 29 qətnamənin qəbul edildiyini diqqətə çatdırıb. O, nümayəndə heyətlərinə APA-nın plenar sessiyasının və daimi komitələrinin işində aktiv fəaliyyətlərinə görə təşəkkür edib. APA-nın bundan sonra da əməkdaşlığın gücləndirilməsi və birgə məqsədlər naminə mühüm platforma rolunu oynayacağı ilə bağlı əminlik ifadə olunub.

Asiya Parlament Assambleyasının Azərbaycanın evsahibliyi ilə keçirilən 15-ci plenar sessiyası bağlı elan edilib.

***"Azərbaycan"***

# *Allahşükür PAŞAZADƏ:* "Müstəqil Azərbaycanın timsalında məzhəblərarası anlaşma və qardaşlığın nadir nümunəsi yaşanmaqdadır"

Xəbər verdiyimiz kimi, Bəhreyn Kralı Həməd bin İsa Əl Xəlifənin himayədarlığı ilə fevralın 19-da Bəhreyn krallığının paytaxtı Manamada "Bir ümmət, bir tale" şüarı altında İslamdaxili Dialoq Konfransı öz işinə başlayıb.



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Mətbuat Xidmətindən AZƏRTAC-a bildirilib ki, Əzhər Əl-Şərif, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurası və Müsəlman Ağsaqqalları Şurasının birgə təşkilatçılığı ilə keçirilən konfransda İslam dünyasının tanınmış sünni və şiə məzhəblərinin üləmaları, mərceyi-təqlidləri, alim və mütəfəkkirləri və İslam dininin görkəmli xadimləri iştirak edirlər.

QMİ sədri, Müsəlman Ağsaqqalları Şurasının üzvü şeyxülislam Allahşükür Paşazadə Bəhreyn Kralı Əlahəzrət Həməd bin İsa Əl Xəlifə ilə konfrans şərəfinə qəbul mərasimində görüşüb. O, görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Krala çatdırıb.

Bəhreyn Konfransının açılış mərasimində Malayziyanın Baş naziri Ənvər İbrahim, Qazaxıstan Parlamenti Senatının sədri Maulen Aşimbayev, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hüseyn Brahim Taha, Əl-Əzhəri Şərifin Şeyxi, Böyük İmam Əhməd ət-Tayyib, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurasının sədri Əbdül Rəhman bin Məhəmməd bin Rəşid əl-Xəlifə, Müsəlman Ağsaqqallar Şurasının Baş katibi Məhəmməd Əbdülsəlam, İslam Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Ekmələddin İhsanoğlu, müsəlman dünyasının bir sıra görkəmli din, dövlət və ictimai xadimləri çıxış ediblər.

Müsəlman dünyası və bütövlükdə bəşəriyyətin gələcəyi naminə qarşılıqlı anlaşma mühitində dialoq məramı ilə keçirilən konfransda məruzə ilə çıxış edən şeyxülislam A.Paşazadə islamdaxili həmrəyliyin təmin olunması naminə İslam-İslam dialoqu, məzhəblərarası anlaşma istiqamətində vəsatiyyənin tətbiqi, müqəddəs dinimizin mötədil dəyərlərinə istinad yönündə birgə səylərini yüksək dəyərləndirib. QMİ sədri Azərbaycanda İslamdaxili dialoqun uğurla qurulduğunu və real müsbət nəticələr verdiyini qürurla vurğulayıb, ölkəmizin məzhəblərarası anlaşma sahəsində örnək təcrübəsi barədə Bəhreyn forumunun iştirakçılarına məlumat verərək deyib: "Vətənim Azərbaycan tarixən müxtəlif məzhəblərin mövcud olduğu ölkədir. Bu gün müstəqil Azərbaycanın timsalında məzhəblərarası anlaşma və qardaşlığın nadir nümunəsi yaşanmaqdadır. Dünyada analoqu olmayan haldır ki, dini mərkəzin fətvasına əsasən vahid təqvim üzrə Azərbaycan məscidlərində azanlar bir vaxtda verilir, məscidlərdə eyni vaxtda birgə namaz qılınır, eyni imama iqtida edilir. Şiələr və sünnilər dini bayram və mərasimlərdə, Məhərrəmlik dönəmində, Aşura təziyələrində bərabər iştirak edir, mübarək Qurban bayramını və Ramazan ayını vahid təqvim üzrə eyni günlərdə keçirirlər. İslam müqəddəslərinin, səhabələrin təhqir edilməsini dövlətimiz nifrət nitqi olaraq qanunla qadağan edib. Bu müdrik dövlətçilik siyasəti xalqımızın Ulu Öndəri Heydər Əliyevin irsidir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev islami həmrəylik ideyalarının dünya miqyasında fəal müdafiəçisi və beynəlxalq müstəvidə islamofobiya əleyhinə daim qətiyyətlə çıxış edən siyasi liderdir".

Şeyxülislam Allahşükür Paşazadə tədbir çərçivəsində Əl-Əzhəri Şərifin Şeyxi, Böyük İmam Əhməd ət-Tayyib, İslam Əməkdaşlıq Təşkilatının Baş Katibi Hüseyn Brahim Taha, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurasının sədri Əbdül Rəhman bin Məhəmməd bin Rəşid əl-Xəlifə və digər şəxslər ilə görüşlər keçirib.

Konfrans işini davam etdirir.

# Zaqatalada qanunsuz ağac kəsilməsi faktı ilə bağlı başlanmış cinayət işinin ibtidai istintaqı davam etdirilir

Vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək qanunsuz ağac kəsilməsi faktı ilə bağlı başlanmış cinayət işinin ibtidai istintaqı davam etdirilir.



Bu barədə Baş Prokurorluq və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə məlumatında qeyd olunub.

Bildirilib ki, daxil olmuş məlumatlar əsasında Zaqatala rayonu ərazisində ağacların qanunsuz olaraq kəsilməsi faktı ilə bağlı keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 259.2.3-cü (qanunsuz olaraq ağac kəsmə şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

İlkin istintaq-əməliyyat tədbirləri ilə Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yolu üzərində yerləşən 1100-dən çox ağacın təhlükəsizlik məqsədilə budanması işləri çərçivəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan Qudayev Muhuma Məmmədəli oğlunun başqa şəxsin adından 14 nömrəli Yol İstismarı Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Paşayev Rüstəm Kamal oğlu ilə müqavilə bağlayaraq 15-16 fevral 2025-ci il tarixlərində həmin ərazidə, ümumilikdə, 140 ədəd ağacı qanunvericiliyə zidd formada, 7 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin ekoloji tələblərinə riayət etmədən budayaraq zərər yetirməsinə əsaslı şübhələr müəyyən olunub. Belə ki, sözügedən işlər müvafiq təcrübəyə malik olmayan şəxslər tərəfindən, bir çox ağacların alt yarus budaqları götürülməklə və estetik görünüşü korlanmaqla həyata keçirilib, bu işlərdə aidiyyəti nəzarət təşkilatlarının iştirakı təmin edilməyib.

İstintaq zamanı Muhuma Qudayevə məxsus 4 obyektə baxış keçirilərək, budanmış ağacların hissələri aşkar olunub və saxlanca verilib.

Qeyd edilənlərlə əlaqədar 14 nömrəli Yol İstismarı MMC-nin direktoru Rüstəm Paşayev, 8 saylı Avtomobil Yollarının Yaşıllaşdırılması MMC-nin direktoru İlham Namazov, Zaqatala Rayon İcra Hakimiyyəti başçısının Maqov kəndi üzrə inzibati ərazi nümayəndəsi Rəcəb Davudov tutduqları vəzifədən azad edilib, müvafiq nəzarət tədbirlərinin həyata keçirilmədiyinə görə 7 saylı RETSİ-nin rəisi əvəzi Anar Süleymanov və həmin idarənin məsləhətçi-müfəttişi Əfqan Şibiyev vəzifələrinin icrasından kənarlaşdırılıb.

Hazırda Zaqatala rayonu ərazisində baş vermiş digər qanunsuz ağac kəsmə faktlarının müəyyən olunması istiqamətində ibtidai istintaq tədbirləri davam etdirilir. Nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin olunacaq.

# XİN BBC-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi ilə bağlı məsələni şərh edib

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə BBC-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi ilə bağlı yerli mətbuatın sualını cavablandırıb.



AZƏRTAC xəbər verir ki, A.Hacızadə bununla bağlı deyib: "BBC-nin ölkəmizdəki nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi məsələsinin siyasiləşdirilməsi, məsələnin mahiyyətinin BBC tərəfindən təhrif olunması, ümumilikdə ikili standartlar yanaşması nəzərə alınaraq media azadlığı məsələsinə dair ölkəmizə qarşı BBC-nin açıqlaması təəssüf doğurur və qəbuledilməzdir.

BBC-nin ölkəmizdəki nümayəndəliyinin bağlanması ilə bağlı qərar müvafiq şəkildə fevralın 13-də Xarici İşlər Nazirliyi tərəfindən BBC-nin ölkəmizdəki nümayəndələri ilə görüş zamanı rəsmi şəkildə çatdırılıb və mövqeyimiz qarşı tərəfə tam şəkildə izah olunub.

Azərbaycan Respublikasının bütün xarici ölkələrin media qurumları ilə münasibətlərdə və qərarlarda hər zaman qarşılılıq prinsipini əsas götürdüyü qarşı tərəfə bildirilib. Bu çərçivədə aparılmış təhlillər nəticəsində, eləcə də ölkə qanunvericiliyi, xüsusilə "Media haqqında" Qanunun 11.2-ci maddəsi əsas götürülməklə BBC-nin ölkəmizdə nümayəndəlik qismində fəaliyyət göstərməsi üçün hüquqi əsas olmadığı diqqətə çatdırılıb.

Qeyd edək ki, nümayəndəliyin bağlanması qərarının BBC yayım şirkətinin ölkəmizdə müxbir fəaliyyətinə aidiyyəti yoxdur və 1 nəfər müxbir üçün akkreditasiya verilməsi nəzərdə tutulub.

Xatırlatmaq istərdik ki, oxşar qərarlar bəzi digər xarici media qurumları ilə bağlı da verilib".



# Sadiqlik, xeyirxahlıq və nəciblik nümunəsi

## Milli-mənəvi dəyərlərə sadiqlik və xalqa xidmət nümunəsi



**Ana balasını sinəsinə sıxmışdı. Göz yaşlarını gizlədə bilmir, ciyərparəsini ağır xəstəliyin caynağından alıb ölümdən qurtaran insana dualar edir, minnətdarlığını bildirirdi: "Allah Mehriban xanımı xalqımıza çox görməsin! Tanrı köməyində olsun, balamı ölməyə qoymadı. Çırağımızı yenidən yandırdı".**

Xarici ölkələrin birində əməliyyat olunub həyata qaytarılan övladı üçün sonsuz sevinc, həm də həyəcan keçirən ananın alqışı təsadüfi deyildi. Çünki illərlə yataq xəstəsi olan oğlu müalicə olunmuşdu, artıq ayağı yer tutur, sərbəst yeriyə bilirdi. Bu, övladı üçün illər boyu əzab-əziyyət çəkən bir ananın xoşbəxtliyi, arzularının çiçəklənməsi, ümidlərinin qanadlanması idi.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva yüzlərlə belə valideynə, imkansıza, xəstəyə dar gündə kömək olub, ailələrə sevinc bəxş edib, insanlara ruh, inam verib. Mehriban xanım Əliyeva bu gün dünyada çox böyük sosial-humanitar layihələrə imza atan, bəşəriyyətin xoşbəxtliyinə xidmət edən proqramları dəstəkləyən və icra edən, xeyirxah tədbirlərin təşəbbüskarı kimi tanınan və şöhrət qazanan ictimai-siyasi xadimdir.

Dünyada baş verən dəyişikliklər yeni iqtisadi və siyasi reallıqlar yaradır və ölkələrin, xalqların taleyinə ciddi təsirlər göstərir ki, bu da zamanla, dövrlə ayaqlaşmağı, öz suverenliyini qoruyub möhkəmləndirmək üçün səmərəli daxili və xarici siyasət həyata keçirməyi tələb edir. Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasi xətti və reallıqları düzgün qiymətləndirib ölkəni düzgün istiqamətləndirməsi beynəlxalq aləmdə qazanılan uğurlarımızın əsası olmaqla bərabər, iqtisadi inkişafımızda da özünü aydın göstərir və dünyada nümunə kimi qəbul olunur. Ölkədə həyata keçirilən islahatlar, icra edilən layihə və proqramlar bütün sahələrdə dinamik inkişafa imkan yaradır, gələcəyin yeni perspektivlərini şərtləndirir.

Azərbaycan Cənubi Qafqazın lider dövləti olmaqla yanaşı, bu gün dünya iqtisadiyyatına öz töhfələrini verməsi ilə fərqlənir. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında, bəşəriyyətin gələcəyi üçün çox vacib sayılan nəqliyyat infrastrukturunun yaradılmasında, böyük əhəmiyyətə malik neft, qaz kəmərlərinin, dəmir yolu xətlərinin çəkilməsində dövlətimizin rolu müstəsnadır və bu, dünya ölkələri tərəfindən yüksək qiymətləndirilir.

Uğurların əsası, əlbəttə ki, Azərbaycan iqtisadiyyatıdır. Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə ümumi daxili məhsul 4 dəfə, büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi 10 dəfədən çox artıb. Valyuta ehtiyatlarımız 1,6 milyard dollardan 72 milyard dollara yüksəlib. Minimum əməkhaqqı 400, minimum pensiyalar 320 manata çatıb. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərin bərpasına, yenidənqurulmasına, tikinti-abadlıq işlərinə 22 milyard manat vəsaitin ayrılması Azərbaycan iqtisadiyyatının davamlı inkişafda olmasının nəticəsidir. Dövlət başçısı haqlı olaraq bildirir ki, Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır.

Mehriban xanım Əliyeva İlham Əliyev siyasi kursuna dəstək verən və onu təşviq edənlərdən birincisidir. Siyasi-iqtisadi, mədəni, sosial məsələlərin həllində Prezidentlə əl-ələ verən, bir sırada addımlayan, ölkənin inkişafı, xalqın xoşbəxtliyi üçün çalışan birinci xanımın xidmətləri, çağırışları nəinki Azərbaycanda yüksək qiymətləndirilir, eləcə də xarici aləmdə rəğbətlə qarşılanır. Mehriban xanım çoxsahəli fəaliyyəti ilə dünyada böyük hörmət sahibidir, Azərbaycanı beynəlxalq aləmdə ləyaqətlə təmsil edir, ictimai-siyasi fəaliyyəti ilə dövlətimizə yeni uğurlar qazandırır. İnsanların qəlbində xeyriyyəçi, humanist, islahatçı, sülhsevər bir dövlət xadimi, vətəndaş, mehriban, fədakar qadın kimi yurd salan Mehriban xanım Əliyevanın cəmiyyət, bəşəriyyət qarşısında xidmətləri əvəzsizdir, hesabagəlməzdir və bu fəaliyyətin hüdudları çox genişdir. Sosial ədalət, humanizm, insan dəyərlərinə hörmət, qarşılıqlı münasibətlərə sədaqət prinsiplərinə əsaslanan bu fəaliyyətin mayasında dövlətimizin və xalqımızın milli maraqları dayanır. Xarici ölkələrə çoxsaylı səfərlərində, dövlət rəhbərləri, ictimai-siyasi xadimlərlə görüşlərində, sıravi insanlarla söhbətlərində ölkənin birinci xanımı milli mövqeyimizi örnək sayır, dövlətin inkişafını, xalqın taleyini önə çəkir.

Mehriban Əliyeva günün reallıqlarını qiymətləndirməklə sabahı görən, hadisələri qabaqlamağı bacaran dövlət xadimidir. Azərbaycan dünya əhəmiyyətli COP29-a uğurla evsahibliyi etdi və bu, dünyanın əksər ölkələri tərəfindən yüksək qiymətləndirildi. Cənab İlham Əliyev bu tədbiri yüksək səviyyədə təşkil edib keçirməklə və mühüm qərarların qəbuluna nail olmaqla dövlətimizin qüdrətini, özünün müdrikliyini, qətiyyətini, təşkilatçılığını dünyaya sübut etdi. Tədbirin əsas təşkilatçılarından biri də Mehriban xanım idi. Təbiəti qorumaq, atmosferi saflaşdırmaq, "yaşıl dünya" uğrunda mübarizə ölkənin birinci xanımının həyat kredosu olmuş və o, bunu daim reallaşdırmağa çalışmışdır.

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ərəfəsində Mehriban xanım Əliyevanın ölkənin bütün ərazisində bir gündə 650 min ağac əkmək təşəbbüsü və bu aksiya çərçivəsində yaşıllıqların salınması, tullantıların zərərsizləşdirilməsi böyük ekoloji əhəmiyyətə malik idi. Bununla - ekoloji mühitin sağlamlaşmasına verdiyi töhfə ilə birinci xanım COP29-a uğurlu nəticələrinin əsasını hələ bir neçə il qoymuşdu.

Mehriban xanım Əliyeva vətənini, xalqını, torpağını ürəkdən sevən əsl vətəndaşdır. Qarabağ torpaqları işğal altında olanda, 44 günlük müharibə və yaralı əsgərlərimizlə görüşlər zamanı hər birimiz onun keçirdiyi hissləri aydın duyur və görürdük. Artıq 4 ildən çoxdur Qarabağ və Şərqi Zəngəzur torpaqları düşməndən azad edilib, erməni təcavüzkarlarının ayaqları torpaqlarımızdan tamamilə kəsilib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev öz cəsarəti, uzaqgörənliyi, ordumuzun döyüşkənliyi, mübarizliyi, xalqımızın birliyi ilə yeni tarix yazıb, dünyaya əyilməz, tam suveren, müstəqil Azərbaycan təqdim ediblər.

Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə görülən tikinti, bərpa, quruculuq işləri möhtəşəmdir və az bir müddətdə ərazilərdə həyat ağılagəlməz dərəcədə dəyişib. Çəkilən müasir yollar, tunellər, salınan körpülər, tikilən məktəblər, xəstəxanalar, yaşayış binaları, elektrik stansiyaları regionun xoşbəxt gələcəyindən xəbər verir.

Azərbaycan Prezidenti qürur hissi, inamla dəfələrlə işğaldan azad olunmuş ərazilərə səfərlər edib, təməlqoyma, açılış tədbirləri keçirib, işlərin gedişi ilə maraqlanaraq tapşırıqlarını verib. Mehriban xanım Əliyeva da bu mərasimlərin iştirakçısı və təşkilatçısı kimi daim Prezidentimizlə birlikdədir. Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi festivallarının, Rəsm Qalereyasının, Vaqif Poeziya Günlərinin, yaradıcılıq gecələrinin, konfransların keçirilməsi, şəhərin mədəni simasının dəyişdirilməsi ilə bağlı görülən tədbirlər bilavasitə Mehriban xanımın fəaliyyətinin nəticəsidir.

Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərimizin təbliğində, yaşadılmasında da fəaliyyəti əvəzolunmazdır. Heydər Əliyev Fondunun prezidenti kimi o, tarixi-dini, mədəni abidələrimizin qorunmasına, bərpa edilməsinə, milli sərvətlərimizin dəyərləndirilməsinə daim diqqət yetirir. Fondun dəstəyi ilə Şahxəndan türbəsinin yenidən qurulması və bərpası, Cavad xanın qəbri üzərində məqbərənin ucaldılması, Abdulla Şaiqin ev-muzeyinin bərpası, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması, Bakıda Beynəlxalq Muğam Mərkəzinin, Ağcabədi və Ağdam rayonlarında Muğam mərkəzlərinin inşası, Gəncədə Nizami Gəncəvi Muzeyinin, Məhsəti Gəncəvi Mərkəzinin, Qala Əntiq Əşyalar Muzeyinin, Bakıda Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeylərinin və bir çox digər mədəni obyektin tikintisi məhz Mehriban xanımın təşəbbüsü və təşkilatçılığı sayəsində həyata keçirilib. Çoxsaylı məktəb, xəstəxana, bağça, idman-sağlamlıq kompleksinin tikintisinə də məhz birinci xanım xeyir-dua verib.

Millətimizin ruhu sayılan muğam sənətinin inkişafında, gənc istedadların üzə çıxarılmasında və tanıdılmasında, milli-mənəvi ruhumuzun canlandırılmasında əsl vətənpərvərlik nümayiş etdirən Mehriban xanım Əliyeva bu sənətə dünyada da çox böyük maraq qazandırıb. Dünya xalqları muğamın ecazkarlığını duyublar, milli ruhumuzun ölməzliyinə, qələbəsinə inanıblar. Mütəxəssislərin, sənət adamlarının söylədikləri kimi, Mehriban xanım muğamımıza yeni həyat verib, onu dünyaya təqdim etməklə sənətimizi, sənətkarlarımızı ucaldıb, şöhrətləndirib.

Mehriban Əliyevanın fəaliyyət dairəsi o qədər geniş və əhəmiyyətlidir ki, onu bir məqalədə əhatə etmək mümkün deyil. Bu fəaliyyətin yolu dünyada yaşayan insanlara humanitar yardımlardan, xarici ölkələrdə tarixi-dini, mədəni abidələrin, məktəblərin, bağçaların tikintisindən, imkansız adamlara maddi köməkdən, dünya ölkələri ilə əlaqələrin yaxşılaşdırılmasından, sülhün, əmin-amanlığın, demokratiyanın bərpa edilməsi üçün əhəmiyyətli tədbirlərin görülməsindən, ən başlıcası, xalqımızın, dövlətimizin maraqlarının, mənafeyinin qorunmasından, müdafiə edilməsindən keçir. Mərhəmət, humanizm, nəciblik, milli-mənəvi dəyərlərə sadiqlik və xalqa xidmət Mehriban xanımın həyatının mənasıdır və bu keyfiyyətlər onu dünya qadınlarına bir örnək kimi təqdim edir. O, nəinki ictimai-siyasi xadim kimi, həm də bir vətəndaş, həyat yoldaşı, ana, qadın kimi hər kəsə nümunədir. Dövlətə, xalqa xidməti, ölkənin inkişafındakı rolu, ictimai-siyasi həyatda fəallığı ilə daim fərqlənən, seçilən, qiymətləndirilən Mehriban xanım Əliyeva uğurlarını heç vaxt dilə gətirmir və nailiyyətləri onu arxayınlaşdırmır. Əksinə, vəzifəsinə daha böyük məsuliyyətlə yanaşır: "Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadlarını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam".

İnsanlıq, insana xidmət ölkənin birinci xanımının həyat amalıdır, qürurverici dəstəyidir. Görülən bütün işlər, həyata keçirilən mühüm tədbirlər, layihələr, irəli sürülən təşəbbüslər məhz bu amala söykənir. Bu amalın önündə dayanan isə insandır - Azərbaycan vətəndaşıdır. Mehriban xanım Əliyeva həm də müasir Azərbaycan qadın hərəkatının lideridir. O, nə qədər müasir, yenilikçi, dünyəvi olsa da, dilinə, tarixinə, dininə, adət-ənənəsinə bağlı dövlət xadimidir. Onun insani keyfiyyətləri - mehribanlığı, sadəliyi, xalqa, torpağa, milli dəyərlərə sevgisi, sədaqəti, fədakarlığı soykökündən gəlmədir. Boya-başa çatdığı, tərbiyə aldığı od-ocaqla, gəlin köçdüyü ailə ilə bağlıdır. Böyük dövlət xadimlərinin, məşhur alimlərin, şöhrətli yazıçıların əhatəsində olan, onlardan həyat dərsi alan, dövlətə, xalqa xidmət nümunəsi göstərən Mehriban xanım Əliyeva bu gün ulularının, böyüklərinin, əzizlərinin adını ucaltmaqla, xalqımızın hörmət və etimadını qazanmaqla fəxr etməyə haqlıdır. Çünki o, bəşəri ideyaların daşıyıcısı və təbliğatçısıdır. Yaratdığı və uğurla rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ulu Öndərimizin ölməz irsini bir məktəb kimi nəsillərə öyrətməklə, təbliğ etməklə bərabər, həm də dünyada əks-səda verən, xeyriyyəçiliyə, xeyirxahlığa, humanizmə xidmət edən çox mühüm layihələrə imza atır. Fondun vasitəsilə milli-mənəvi dəyərlərimiz, mədəniyyətimiz, ölkəmizin özəllikləri, inkişafı, xalqımızın adət-ənənələri, özünəməxsusluğu dünyaya təbliğ olunur, yayılır və əyani şəkildə nümayiş etdirilir. Səhiyyə, mədəniyyət, ekologiya, idman və digər sahələrdə həyata keçirilən mühüm layihələr bir məqsədə - Azərbaycanı tanıtdırmağa, inkişaf etdirməyə, xalqın ruhunu yüksəltməyə, sağlamlığını qorumağa yönəlib. Mehriban xanımın təşkilatçılığı ilə Bakıda yüksək səviyyədə keçirilən I Avropa və IV İslam Həmrəyliyi Oyunları, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və digər çox mühüm tədbirlər ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsi, xalqımızın dəyərlərinin nümayiş etdirilməsi baxımından faydalı olub və dövlətimizə hörmət qazandırıb.

*...Bir ana əllərini göyə tutub həbsdə olan oğlunun əfv olunmasına kömək göstərən insana dua edirdi: "Allah Mehriban xanımı qorusun. Oğlum ailəsinə qayıtdı, balalarını sevindirdi, məni gözüyaşlı qoymadı" deyirdi. Bu, tək bir ananın alqışı deyildi. Minlərin, milyonların dilindən bu dualar hər gün səslənir. Dualarınız qəbul olunsun! Dövlətimizin, xalqımızın başını ucaldanları, düşmənlərimizin bağrını yaranları, torpağını sevənləri və şöhrətləndirənləri Allah qorusun!*

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

## Prezidentin silahdaşı, xalqın sevimlisi

Torpaqlarını işğaldan azad edən, Qarabağda erməni separatçılığına son qoyan Azərbaycan tarixinin ən qüdrətli dövləti kimi uğur estafetini davam etdirir. Qarabağ və Şərqi Zəngəzurda aparılan sürətli bərpa və quruculuq işləri, respublikamızın regional və qlobal müstəvidə daha da güclənən mövqeyi Azərbaycanın yeni inkişaf mərhələsində qarşısında dayanan hədəflərə doğru inamla irəliləməsindən xəbər verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlar əlbəttə ki, hər birimizi dərindən fərəhləndirir, qürur hissi yaşadır. Və bu nailiyyətlərin davamlı olması, onun yeni uğurlarla zənginləşməsi hər birimizin arzusudur. Bu mənada siyasi-ictimai statusundan, vəzifəsindən asılı olmayaraq, hər birimizin əsas vətəndaş məsuliyyəti öz əməllərimizlə Azərbaycanın inkişafını təmin edən siyasətə dəstək olmaqdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər bu məsələdə hər kəs üçün ən böyük örnəkdir. Çünki Mehriban Əliyevanın bütün fəaliyyəti ilk növbədə vətəndaşların sosial rifahına, Azərbaycanın uğurlarının dünyada təbliğinə, erməni yalanlarının ifşasına, milli-mənəvi dəyərlərimizin qorunmasına və tanıdılmasına xidmət edib və etməkdədir. Ona görə də Mehriban xanım Əliyevanın 2017-ci ildə Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması bütün cəmiyyətimiz tərəfindən böyük razılıqla qarşılandı.

Birinci vitse-prezident vəzifəsi 2016-cı ildə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklərdən sonra hüquqi status alıb. Dövlət idarəetməsində vitse-prezidentlik institutu bir sıra ölkələrdə çoxdan mövcuddur. Onların təcrübəsi göstərir ki, idarəçilikdə daha səmərəli fəaliyyət üsullarının tətbiqi, dövlətin öz vəzifələrini daha çevik həyata keçirməsi baxımından vitse-prezidentlik institutu özünü uğurla doğruldur. Ona görə belə bir mütərəqqi idarəetmə mexanizminin Azərbaycanda da tətbiq edilməsinə vətəndaşlar referendumda müsbət münasibət bildirmişlər.

Birinci vitse-prezident vəzifəsinə Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın təyin olunması isə bütün cəmiyyətimiz tərəfindən yüksək rəğbətlə qarşılandı. Çünki bu vəzifə üçün ən layiqli namizəd məhz Mehriban Əliyeva idi. İctimaiyyət əmin idi ki, çalışdığı bütün vəzifələrdə öz dövlətinə və xalqına şərəflə xidmət edən Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin ən böyük silahdaşı olaraq Birinci vitse-prezident kimi də bu missiyanı layiqincə yerinə yetirəcək.

Ötən 8 il göstərir ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə və bacarıqla gəlir, dövlətin qarşısında dayanan vəzifələrin həyata keçirilməsinə böyük töhfələr verir. Xüsusilə qeyd edilməlidir ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi də hər zaman xüsusi qayğıya ehtiyacı olan insanların yanında olur, onlardan öz dəstəyini əsirgəmir. Onun keçirdiyi ilk müşavirələr də məhz bu kateqoriyadan olan vətəndaşların problemlərinin həlli ilə bağlı olub. Bu sırada Mehriban Əliyevanın təşəbbüsü ilə keçmiş məcburi köçkünlərin mənzil şəraitlərinin yaxşılaşdırılmasını, 2016-cı ilin Aprel döyüşlərində fiziki sağlamlığını itirmiş qəhrəman döyüşçülərimizin yüksəktexnologiyalı protezlərlə təmin olunmasını da qeyd edə bilərik.

Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın insanların məmnunluğuna və sosial rifahına xidmət edən məramına koronavirus pandemiyası dövründə bir daha şahidlik etdi. Həmin dövr respublikamızda COVID-19 əleyhinə aparılan mübarizə tədbirlərində, səhiyyə orqanlarının səfərbər olunmasında, xarici dövlətlərdən xüsusi tibbi ləvazimatların, avadanlıqların, laboratoriyaların alınıb gətirilməsində Mehriban xanım Əliyevanın təşəbbüs və fəaliyyəti böyük rol oynadı. Mehriban xanımın koronavirusun yayılmasının qarşısının alınması, yoluxanların müalicə edilməsi ilə əlaqədar həkimlərimizin səylərini və fədakarlıqlarını yüksək qiymətləndirməsi tibb işçilərini gözəgörünməz düşmənə qarşı daha güclü səfərbər etdi. Heydər Əliyev Fondu isə həmin günlərdə sosial layihələri ilə aztəminatlı və qayğıya ehtiyacı olan vətəndaşlara yardımlarını əsirgəmədi.

Azərbaycanın şərəf tarixi olan Vətən müharibəsində xalqımız bir daha Mehriban Əliyevanın vətən sevgisinə, vətənpərvərliyinə şahidlik etdi. Mehriban Əliyeva hər zaman şəhid analarının yanında oldu, yaralanan əsgər və zabitlərimizin müalicəsini xüsusi diqqət mərkəzində saxladı.

Prezident İlham Əliyevin xüsusi nəzarəti ilə bu gün Qarabağ və Şərqi Zəngəzur bərpa olunur, keçmiş məcburi köçkünlər tədricən doğma ellərinə dönürlər. Quruculuq prosesində Heydər Əliyev Fondu da yaxından iştirak edir, xüsusən tarixi və mədəni abidələrin, məscidlərin bərpasına layiqli töhfələr verir.

Azərbaycanda Birinci vitse-prezident vəzifəsinin dövlət idarəetməsindəki praktik tarixi Mehriban Əliyevanın bu vəzifəyə təyinatı ilə başlayır. Geridə qalan 8 illik tarix təsdiq edir ki, Mehriban Əliyeva bu vəzifənin idarəetmədəki yerini və rolunu, ona göstərilən ali etimadı layiqincə doğruldur. Qeyd etdiyimiz məqamlarla yanaşı, Mehriban Əliyevanın Birinci vitse-prezident kimi respublikamızın xarici əlaqələrinin inkişafındakı xidmətləri də böyükdür. Bu baxımdan ötən 8 il Mehriban Əliyevanın fəaliyyətini dəyərləndirmək üçün kifayət qədər zəngindir.

***Nəsib MƏHƏMMƏLİYEV,***
***Milli Məclisin deputatı***



# Sadiqlik, xeyirxahlıq və nəciblik nümunəsi



## Xalqın mənafeyinə xidmət edən çoxşaxəli fəaliyyət

**Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə vətənə sədaqət, xalqa xidmət və milli dəyərlərə hörmət nümunəsi yaradıb. Onun müxtəlif sahələri əhatə edən məqsədyönlü fəaliyyəti ölkəmizin inkişafına, xalqımızın rifahının yaxşılaşmasına, müstəqil Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə xidmət göstərir, respublikamızın davamlı nailiyyətlər qazanmasını təmin edir.**

Ona görə də Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü işlər xalqın rifahına və dövlətin inkişafına həsr olunmuş çoxşaxəli fəaliyyət kimi səciyyələndirilir.

Bütün fəaliyyəti boyu ölkəmizin və xalqımızın maraqlarını daim üstün tutan, xeyirxahlığı, mərhəməti, insanlara sevgini həyatının normalarına çevirən Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində də Azərbaycana layiqincə xidmət edərək üzərinə düşən vəzifənin öhdəsindən uğurla gəlir. Dövlətimizin milli maraqlarına, müasir dünyanın reallıqlarına, çağırışlarına uyğun mövqe və siyasət Azərbaycanın müstəqil dövlət kimi dayanıqlı inkişafını təmin edən əsas amildir. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dövlətimizin milli maraqlarına və xalqın mənafeyinə xidmət edən çoxşaxəli fəaliyyəti xüsusilə qeyd edilməlidir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın həyat və fəaliyyətini izlədikdə məhz bu məqam diqqəti xüsusi cəlb edir ki, o, Azərbaycan cəmiyyətində insanlara yaxınlığı və insanların ona hədsiz rəğbəti ilə seçilir. Birinci vitse-prezident tez-tez cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşlərdə olur. Belə görüşlər, müzakirələr çox səmimi ortamda keçir. Elə Mehriban xanım Əliyevanın fəaliyyətinin, təşəbbüslərinin mənbəyində də cəmiyyətdən, əhalinin müxtəlif təbəqələrindən gələn sosial sifarişlər dayanır. O, dəfələrlə bildirib ki, öz missiyasını insanları narahat edən məsələlərin həllinə yardım göstərməkdə görür. Mehriban Əliyevanın ifadə etdiyi "Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır" fikri onun portretinin konkret ştrixlərini göz önündə canlandırır.

Mehriban Əliyeva qlobal miqyasda böyük nüfuz qazanan ictimai-siyasi xadimdir. Ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları, məşhur siyasətçilər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə görüşlərdə ona dərin hörmətlərini ifadə edirlər. Bu da ilk növbədə onunla bağlıdır ki, Azərbaycanın Birinci vitse-prezidenti daim ölkəmizin qlobal əməkdaşlığın dərinləşməsində rolunu artırmağa, eləcə də xalqımızın zəngin ənənələrinə əsaslanaraq dünyada tolerantlıq, birgəyaşayış, sülh ideyalarının təbliğinə çalışır. Bütövlükdə, Mehriban xanım Əliyevanın fəaliyyəti çoxşaxəlidir. O, fəal ictimai-siyasi xadim kimi Azərbaycanın inkişafına, dünyada təbliğinə sanballı töhfələr verir, sosial və humanitar sahələrdə böyük işlər görür.

Mehriban Əliyevanın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, zəngin mədəniyyətimizin beynəlxalq miqyasda təbliği, görkəmli elm və incəsənət xadimlərimizin tanıdılması məqsədinə xidmət edən fəaliyyətinin əhatə dairəsi kifayət qədər genişdir. Ölkəmizin və zəngin mədəniyyətimizin təbliğində ICESCO platformasından geniş istifadə olunması təqdirəlayiq haldır. ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva mədəniyyət, təhsil və idman sahələrində geniş fəaliyyət göstərir. Onun təşkil etdiyi müxtəlif səpkili tədbirlər vasitəsilə ölkəmizin mədəni irsinin beynəlxalq səviyyədə təbliğinin, onun mühafizəsinin təmin olunması, gələcək nəsillərə çatdırılması sahəsində böyük xidmətlər göstərir. Birinci vitse-prezidentin zəngin mədəniyyətimizin qorunub saxlanılması və təbliği sahəsində çoxşaxəli fəaliyyəti beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə ayrı-ayrı Avropa ölkələrində, həmçinin islam coğrafiyasında beynəlxalq əhəmiyyət daşıyan bir sıra abidələr bərpa edilərək onlara ikinci həyat verilib.

Xüsusilə qeyd etməliyik ki, Mehriban xanım Əliyeva öz xalqına və dövlətinə qırılmaz mənəvi tellərlə bağlıdır. Mehriban Əliyevanın müxtəlif vəzifə və statuslarda bu zamana qədərki fəaliyyəti - Azərbaycan naminə gördüyü genişmiqyaslı işlər cəmiyyətdə ona böyük inam və rəğbət yaradıb. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işlərinə də Mehriban xanım öz töhfələrini verir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu həmin ərazilərdə dini, mədəni və tarixi abidələrimizin bərpası ilə məşğuldur. Bütövlükdə, bu gün hər bir Azərbaycan vətəndaşı Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini olduqca yüksək qiymətləndirir.

*Sevinc FƏTƏLİYEVA,*
*Milli Məclisin deputatı*

## Vətən sevgisi və fəal vətəndaşlıq mövqeyi

**Bu gün Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsindən 8 il ötür. O zaman ölkə ictimaiyyəti tərəfindən dərin rəğbətlə qarşılanan bu təyinat ilk növbədə Mehriban Əliyevanın fəaliyyətinə verilən ali dəyərin göstəricisi idi. Cənab Prezident İlham Əliyev 2017-ci il fevralın 21-də keçirilən Təhlükəsizlik Şurasının iclasında Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin bu qərarın qəbul edilməsində əsas rol oynadığını bildirdi.**

Bəli, buna qədər Mehriban Əliyeva həm Heydər Əliyev Fondunun prezidenti, həm Milli Məclisin deputatı, həm də Azərbaycan Mədəniyyət Fondunun prezidenti kimi dövlətə xidmətin layiqli nümunələrini yaratmışdı. Bütün bu vəzifələrdə Mehriban Əliyeva öz fəaliyyətini Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına, Ermənistanın işğalçılıq siyasətinin ifşasına, Xocalı soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən tanınmasına, milli mədəniyyətimizin və incəsənətimizin təbliğinə, genofondumuzun qorunmasına, müxtəlif xəstəliklərdən əziyyət çəkənlərə, tənha və yaşlılara, ehtiyacı olanlara kömək etməyə, onlara qayğı göstərməyə, xeyriyyəçiliyə həsr etmişdi. Mehriban Əliyevanın təşəbbüsləri və Heydər Əliyev Fondunun dəstəyi ilə tikilən xəstəxanalar, tibb mərkəzləri bu gün respublikamızda vətəndaşların sağlamlıqlarının keşiyində dayanıblar. On minlərlə şagird isə fond tərəfindən tikilən müasir məktəblərdə təhsil alır. Bütün bunları reallaşdırmaqla Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursa, sosial-iqtisadi proqramlara böyük töhfələr verib.

Mehriban Əliyevanın Birinci vitse-prezident kimi də dövlətə və vətəndaşlara layiqincə xidmət edəcəyi, yeni vəzifəsinin öhdəsindən uğurla gələcəyi aydın idi. 2017-ci il fevralın 21-də keçirilən Təhlükəsizlik Şurasının iclasında Mehriban Əliyeva Prezident İlham Əliyevə xitabla demişdi: "Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam".

Ötən 8 ilin reallıqları Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi ona göstərilən etimadı layiqincə doğrultduğunu göstərir. Mehriban Əliyeva bu gün də sosial qayğıya, köməyə ehtiyacı olanların yanındadır. Birinci vitse-prezident vəzifəsinin icrasına başlayan kimi Mehriban Əliyevanın ilk olaraq keçmiş məcburi köçkünlərin mənzil məişət şəraitinin yaxşılaşdırılmasına və Aprel döyüşlərinin iştirakçısı olan əlillərin protezlərlə təmin olunmasına xüsusi diqqət ayırması göstərirdi ki, onun yeni missiyasında da sosial məsələlər prioritet olacaq. Təsadüfi deyil ki, Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın bu istiqamətdə fəal vətəndaşlıq mövqeyini pandemiya dövründə də yaxından gördü. Bütün dünyanı sınağa çəkən pandemiyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi zamanı hər birimiz Birinci vitse-prezident Mehriban Əliyevanın əsl vətəndaşlıq missiyasının şahidi olduq.

Mehriban xanım Əliyeva torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən Vətən müharibəsi günlərində və ondan sonra da qazilərimizin sağlamlığı üçün əlindən gələni əsirgəmədi. Ağır yaralanmış neçə-neçə müharibə iştirakçısı məhz Mehriban Əliyevanın xüsusi dəstəyi ilə müalicə olunaraq normal həyata döndü.

Mehriban Əliyeva həm də Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi prosesində Prezident İlham Əliyevin ən böyük dəstəkçisidir. Azad edilmiş ərazilərdə, xüsusən Şuşada Heydər Əliyev Fondunun həyata keçirdiyi hər bir layihə, ermənilər tərəfindən dağıdılmış milli və tarixi mədəniyyət nümunələrimizin bərpası Mehriban xanım Əliyevanın vətənpərvərliyindən bir daha xəbər verir.

Birinci vitse-prezidentin 8 ildə həyata keçirdiyi fəaliyyət bir daha təsdiq edir ki, onun yeganə məramı dövlətə və xalqa layiqincə xidmət etmək, Prezident İlham Əliyevin ölkəmizin inkişafı üçün qarşıya qoyduğu strateji hədəflərə çatmağa böyük töhfələr verməkdir.

*Müşfiq MƏMMƏDLİ,*
*Milli Məclisin deputatı*

## Bəşəri ideallar naminə

**21 fevral 2017-ci il tarixdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilən Mehriban xanım Əliyeva həm qadın, həm ana, həm də yeni siyasi düşüncənin təmsilçisi olan dövlət xadimi kimi Azərbaycan üçün örnəkdir.**

Birinci vitse-prezident və müasir dünyada nümunəvi və fəal bir qadın kimi həyata keçirdiyi layihələr yalnız ölkə sərhədləri ilə məhdudlaşmayıb, eyni zamanda ümumbəşəri mahiyyəti ilə də böyük diqqət cəlb edir. Birinci vitse-prezidentin, xüsusən də Şərqlə Qərb arasında mədəni dialoqun inkişafı, fərqli sivilizasiyaların bəşəri ideallar naminə bir araya gəlməsi, dini tolerantlığın və multikulturalizmin gücləndirilməsi, gender bərabərliyinin təmin edilməsi istiqamətindəki fədakar fəaliyyəti beynəlxalq miqyasda yüksək qiymətləndirilir.

2006-cı ilin noyabrında Mehriban xanım Əliyeva humanitar sahədə genişmiqyaslı fəaliyyətinə, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, islam mədəni irsinin təbliğinə və qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllində böyük dəstəyə görə ICESCO-nun xoşməramlı səfiri adına layiq görülüb. 2016-cı ilin iyununda Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayında Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü seçilib.

Azərbaycan mədəniyyətinin geniş təbliği və sağlam mənəvi dəyərlərin qorunması sahəsində görülən işlər Birinci vitse-prezident Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əsas xəttini təşkil edir. Ulu Öndər Heydər Əliyevin zəngin irsinin davamçısı olan Heydər Əliyev Fondu Azərbaycanın yüksək dəyərlərini və humanizm prinsiplərini beynəlxalq aləmə tanıtdırmaqda əvəzsiz rol oynayır.

Fondun qarşıya qoyduğu məqsəd demək olar ki, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş layihələr, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulub. Bu məqsəd fondun fəaliyyət proqramında daha dəqiq ifadə olunduğu kimi, milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir.

Cənab Prezident İlham Əliyev bu fondun fəaliyyətini yüksək qiymətləndirərək qeyd edib ki, Mehriban Əliyevanın rəhbərliyi ilə fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir.

Pandemiya ilə mübarizə dövründə Mehriban Əliyeva öz missiyasına və amalına sadiqliyini bir daha nümayiş etdirdi. Belə ki, Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu xeyriyyə aksiyaları həyata keçirdi. Bu aksiyalar çərçivəsində 200 mindən çox ailəyə ərzaq məhsulları ilə sovqatlar paylanması fondun sosial missiyasını bir daha nümayiş etdirdi.

Birinci vitse-prezidentin fəaliyyətində ən vacib məsələlərdən biri, bəlkə də birincisi şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlərlə bağlı olan işdir. O, Vətən müharibəsi şəhidlərini və qaziləri "mənim qardaşlarım" adlandıraraq, onların qəhrəmanlığına və fədakarlığına qarşı öz dərin səmimiyyətini nümayiş etdirib. Mehriban Əliyeva valideyn himayəsindən məhrum olmuş uşaqların mənəvi anası, şəhid analarının, qaçqın və məcburi köçkünlərin himayəçisidir. Harada yardıma ehtiyac duyan bir şəxs varsa, o, Mehriban xanımın pənahında olacaq. Birinci xanım xeyirxah qəlbinin səsi ilə bütün qüvvəsini və zamanını təmənnasız olaraq insanların rifahı və xoşbəxtliyi uğrunda sərf edir.

Uşaqların sağlamlığının qorunmasını öz fəaliyyətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirən Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın talassemiyalı uşaqlara böyük diqqət və qayğısı xüsusi qeyd olunmalıdır. Fond 2005-ci ildən ölkəmizdə bu xəstəliyin yayılmasının qarşısını almaq məqsədilə "Talassemiyasız həyat naminə" layihəsinə başlayıb. Bundan əlavə, Bakı şəhərində istifadəyə verilən Talassemiya Mərkəzi indi hemofiliyalı uşaqların və onların valideynlərinin böyük ümid yeridir. Talassemiya Mərkəzi bu xəstəliyə düçar olanların müalicəsində mühüm rol oynamaqla yanaşı, həm də xəstələrə və onların ailələrinə mənəvi baxımdan böyük dəstəkdir.

Mehriban xanım Əliyeva dini ibadət yerlərinin abadlığına və dini dəyərlərimizin qorunmasına daim önəm verir. Ötən il Əhmədli qəsəbəsindəki 120 yaşlı məscid əsaslı təmirdən sonra istifadəyə verilib. 1904-cü ildə inşa olunmuş məsciddə təmir və bərpa işləri Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilib.

Heydər Əliyev Fondu məhz milli-bəşəri ideyaların tərənnümçüsü, daşıyıcısı olması ilə qüdrətlidir. Mehriban Əliyevanın fondun rəhbəri kimi ən böyük məqsədi də Heydər Əliyev irsinin bir məktəb kimi yeni nəslə öyrədilməsi, təbliğ olunmasıdır. Mehriban Əliyeva onun ideallarına sadiq qalaraq, milli-mənəvi dəyərlərimizi özünün həyat tərzində, əxlaqında və düşüncəsində yaşadaraq Ulu Öndərin yolunu ləyaqətlə davam etdirir.

*Pərvanə VƏLİYEVA,*
*Milli Məclisin deputatı*



# Sadiqlik, xeyirxahlıq və nəciblik nümunəsi

## Ürəyində mərhəmət, əməlində yaxşılıq

**Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən dövlət idarəçiliyində aparılan islahatlar Prezident İlham Əliyevin inkişaf siyasətinin əsas istiqamətləri sırasındadır. Bu baxımdan dövlət idarəçiliyində Birinci vitse-prezidentlik institutunun yaradılması Azərbaycanın müasir simasının yeni və mütərəqqi əlamətidir.**

Ötən müddət ərzində əldə olunmuş müsbət nəticələri nəzərə alaraq əminliklə qeyd oluna bilər ki, Birinci vitse-prezidentlik institutu idarəetmənin səmərəliliyini və çevikliyini artırıb.

Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı sərəncama əsasən, Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması cəmiyyətdə də yüksək dəyərləndirildi. Əlbəttə, bu, tam yerində olan qərar idi və heç də təsadüfi xarakter daşımırdı. Təyinatın arxasında Mehriban xanım Əliyevanın dövlətçilik və xalqın mənafeyi naminə uzun illər boyu göstərdiyi səmərəli, məqsədyönlü fəaliyyət dayanırdı.

Vətənə sədaqət, milli dəyərlərə hörmət və uğurlu fəaliyyət Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillərdir. Birinci vitse-prezidentlik institutu bu gün funksional siyasi təsisat kimi uğurla fəaliyyət göstərir. Mehriban xanım Əliyeva mütəmadi olaraq cəmiyyətin həssas təbəqələrinin problemlərini həll edir, ana nəvazişinə ehtiyac duyan uşaqları sevindirir, zəngin mədəniyyətimizin təbliği istiqamətində tədbirlər həyata keçirir, müxtəlif istiqamətlərdə yeni layihələr reallaşdırır. Təsadüfi deyil ki, Mehriban xanım Birinci vitse-prezident kimi öz ilk müşavirəsini məcburi köçkün soydaşlarımızın problemlərinə həsr etmişdi.

Mehriban Əliyeva dövlət idarəetməsində çeviklik və effektivlik naminə bütün potensialın səfərbər olunmasını, habelə uğurlu beynəlxalq təcrübə nümunələrindən istifadəni təmin edir. Onun təşəbbüsü ilə ölkə əhalisinin bərabər, əlçatan və keyfiyyətli təhsillə təmin olunması istiqamətində layihələr reallaşdırılır. Azərbaycanın Birinci vitse-prezidenti ölkə əhalisinin sağlamlığının qorunması naminə də daim müxtəlif təşəbbüslərlə çıxış edir, o cümlədən sosial baxımdan həssas əhali qruplarının problemlərinin həllinə tədbirlər görür.

Mehriban xanım Azərbaycan xalqının yaratdığı milli mədəniyyət və incəsənət nümunələrinin dünyada tanıdılması istiqamətində də layihələr reallaşdırır. Eyni zamanda ölkədə idman hərəkatının davamlılığını təmin edir, ekoloji problemlərin həllinə dəstək göstərir, işğaldan azad olunmuş torpaqların bərpasında yaxından iştirak edir.

Effektiv təşkilatçılıq, peşəkar qərarların qəbul olunması və çeviklik Mehriban xanım Əliyevanın uğurlu fəaliyyətini şərtləndirən əsas amillərdir. Mehriban xanım Əliyeva həm insanpərvər, həm də vətənpərvərdir. Ona görə də daim sosial məsələlərin həllinə xüsusi diqqət göstərir. Birinci xanım cəmiyyəti narahat edən, dövlətimiz və xalqımız üçün müstəsna əhəmiyyət daşıyan məsələlərin həllinə çalışır və buna nail olur.

Ölkəmizdə müxtəlif xalqların nümayəndələri sülh, təhlükəsizlik şəraitində mehriban birgəyaşayışa malikdirlər. Onlar öz milli adətlərini, dini rituallarını qanun çərçivəsində sərbəst yerinə yetirirlər. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkəmizdə yeni məscidlər inşa edib, müqəddəs ziyarətgahların təmir-bərpa işlərini həyata keçirib. Bundan əlavə, Mehriban xanım Əliyeva yüz illər boyu Azərbaycanda dost və qardaş kimi yaşayan müxtəlif dinlərin nümayəndələrinin mədəni özünəməxsusluqlarını qoruyub saxlamaları, dini ayinlərini sərbəst yerinə yetirmələri üçün ibadət evlərinin bərpası və inşası işində də öndə dayanıb.

Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun multikulturalizmin, tolerantlığın, sivilizasiyalararası dialoqun, mədəniyyətlərin inteqrasiyası ideyasının təbliği və təşviqi istiqamətində ardıcıl tədbirlər həyata keçirməsi təqdirəlayiq hal kimi ölkəmizdə və beynəlxalq müstəvidə yüksək qiymətləndirilir. Mehriban xanımın rəhbərliyi ilə bir sıra ölkələrdə dini abidələrin əsaslı təmir edilməsi, müxtəlif layihələrin reallaşdırılması nəinki ölkəmizdə, dünyada rəğbətlə qarşılanır.

Onun Azərbaycanı dünyada mədəniyyət carçısı, sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlıq məkanı kimi təqdim etməsi Prezident İlham Əliyevin müzəffər lider portretini uğurla tamamlayır.

Mehriban xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurun dirçəlişində fəal iştirak edir. Fond azad edilmiş ərazilərimizdə tarixi, dini və mədəni abidələrin bərpası ilə məşğul olur. Bərpa işlərinin dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə etməsi isə Heydər Əliyev Fondunun bəşəri missiyasını, Azərbaycan xalqının tolerant və multikultural mahiyyətini əks etdirir.

***Pərvin KƏRİMZADƏ,***
***Milli Məclisin deputatı***



## Xoşməramlı fəaliyyət

**Azərbaycanın inkişafı, sosial məsələlərin həllinə olan həssas yanaşma, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan xeyirxahlıq, mərhəmət və şəfqət birinci xanım, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın həyat fəlsəfəsini tərənnüm edir. Prezident İlham Əliyevin ömür-gün yoldaşı və ən yaxın silahdaşı olmaqla yanaşı, Mehriban xanım Əliyeva Azərbaycanın tərəqqisi naminə hər zaman mühüm töhfələr verir.**

Bu mənada Mehriban xanımın mədəniyyətimizin tanıdılması istiqamətindəki fəaliyyəti, vətənpərvərliyi və xeyirxahlığı ona milyonların sevgisini qazandırıb. Məhz bunun bariz nümunəsidir ki, Mehriban xanım Əliyeva Azərbaycan humanizminin simvolu adlandırılır. Hər zaman həssas təbəqədən olan insanlara, şəhid ailələrinə, qazilərə, valideyn himayəsindən məhrum olmuş uşaqlara böyük sevgi ilə yanaşan Mehriban xanım Əliyevanın Vətən müharibəsi zamanı ordumuza verdiyi mənəvi dəstək, milli həmrəyliyə xidmət edən çağırışları daim minnətdarlıqla qeyd olunur. O, xalqımızın sosial rifahına hesablanan bir çox layihənin müəllifi kimi birinci xanım adını şərəflə daşıyır, dünyada müasir Azərbaycan qadınının qürur doğuran obrazını formalaşdırır.

2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi müasir Azərbaycan tarixində mühüm hadisə idi. Mehriban xanımın bu yüksək vəzifəyə təyin edilməsi dövlətçiliyimizin daha da möhkəmləndirilməsi naminə onun zəngin və yüksək təşkilatçılıq qabiliyyətinə verilən qiymətin nəticəsidir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva ötən müddət ərzində bu yüksək və məsul vəzifədə gördüyü işlərlə dövlətimizin başçısının və xalqımızın etimadını layiqincə doğruldub. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkə əhalisinin bərabər, əlçatan və keyfiyyətli təhsillə təmin olunması istiqamətində reallaşan layihələr təhsildə demokratik prinsipin yaşadılmasını təmin edir.

Azərbaycanın Birinci vitse-prezidenti ölkə əhalisinin sağlamlığının qorunması naminə daim müxtəlif təşəbbüslərlə çıxış edir. Onun fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin, şəhid ailələrinin, qazilərin problemlərinin həlli xüsusi yer tutur. Məhz yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni o, qaçqın və məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrini və qazilərimizi hər zaman diqqətdə saxlamışdır. Bu bir reallıqdır ki, ordumuzu qələbəyə ruhlandıran müraciət və çağırışlar müharibədən sonrakı dövrdə də Mehriban xanımın fəaliyyətində başqa rakurslarda özünü göstərə bilib. Dövlət başçısı ilə birlikdə Qarabağa çoxsaylı səfərlər, Şuşada möhtəşəm "Xarıbülbül" Musiqi Festivalının təşkili bu xüsusda qeyd olunmalıdır. Ölkəmizdə "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar Mehriban Əliyevanın fəaliyyətində mühüm yer tutur. Həmçinin əhalinin sağlamlığı, "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi layihələr, bir çox xeyriyyə aksiyası da vurğulanması vacib olan addımlar sırasındadır. Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq xidmətə açılıb.

Bununla yanaşı, Azərbaycan həqiqətlərinin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği sahəsində mühüm işlər görülüb. Bu xüsusda Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günləri keçirilib, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələri ucaldılıb. Azərbaycanın evsahibliyi etdiyi "Avroviziya" Beynəlxalq Mahnı Müsabiqəsi, "Formula-1", Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığının bariz nümunəsidir.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti ölkənin "Yumşaq güc" siyasətinin təcəssümüdür. Beynəlxalq münasibətlər sistemində Azərbaycanın dostu olan ölkələrin sayının artmasında Birinci vitse-prezidentin misilsiz xidmətləri var. Mehriban xanım Əliyevanın xeyriyyəçilik tədbirləri bir çox ölkəni əhatə edir. Prezidenti olduğu Heydər Əliyev Fondu uzun illərdir ki, Azərbaycanın humanitar və mədəniyyət diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət hər şeydən əvvəl dünyada Azərbaycanın təqdimatı və təbliğidir. Heydər Əliyev Fondu Vatikanda, Fransa, Pakistan, Bosniya və Herseqovina, Misir, Hindistan və digər ölkələrdə bir sıra önəmli layihələri məhz Mehriban xanımın təşəbbüsü ilə icra edib. Mehriban xanım Əliyevanın qlobal təşəbbüsləri sayəsində mədəniyyətlərarası dialoq Azərbaycanın beynəlxalq brendinə çevrilib. Bilavasitə Azərbaycanın Birinci vitse-prezidentinin təşkilatçılığı ilə ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində mədəniyyətlərarası dialoq ünvanlarından biri sayılır.

2004-cü ildən Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Heydər Əliyev Fondu Ümummilli Lider Heydər Əliyevin ideyalarının təbliğində, dahi şəxsiyyətin dövlətçilik irsinin tanıdılmasında əvəzsiz xidmətlər göstərir. Sözsüz ki, Azərbaycan xalqının xeyriyyəçilik ənənələrinin bilavasitə Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilməsi bu gün minnətdarlıqla vurğulanan amillər sırasındadır. Beynəlxalq sülh, təhlükəsizlik, mədəniyyətlərarası və dinlərarası dialoq mühitinin formalaşması, tarixi mədəni irsin qorunması kimi vacib məsələlər də hər zaman Mehriban Əliyevanın diqqətində olan məqamlardandır. Məhz onun fəaliyyətinin nəticəsi olaraq İçərişəhər, Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, "Xınalıq və Köç yolu mədəni landşaftı", Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına salınıb. Eyni zamanda muğam və aşıq sənəti, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahıya daxil edilib. Bütün bunların məntiqi davamı kimi Azərbaycan 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına evsahibliyi edib.

Azərbaycan cəmiyyəti istər Heydər Əliyev Fondunun prezidenti, istərsə də ölkəmizin yüksək səviyyədə evsahibliyi etdiyi müxtəlif beynəlxalq tədbirlərin təşkilat komitələrinin rəhbəri kimi fəaliyyətində Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığının, məqsədyönlülüyünün dəfələrlə şahidi olub. Azərbaycanın Birinci vitse-prezidenti siyasi karyerası və ictimai fəaliyyəti dövründə başladığı bütün işlərin öhdəsindən böyük məharətlə gəlir.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək səviyyədə qiymətə layiq görülüb. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, eləcə də "Qızıl ürək" beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalları və bir sıra yüksək təltiflər onun fəaliyyətinə, şəxsiyyətinə verilən qiymətin göstəricisidir.

Siyasətində ümumbəşəri dəyərləri yaşadan, xeyirxahlıq, mərhəmət və insanpərvərlik nümunəsi olan Mehriban xanım Əliyevaya ən böyük mükafatı isə xalqı tərəfindən verilib. Bu mükafat Azərbaycan xalqının sevgisidir.

***Sevinc HÜSEYNOVA,***
***Milli Məclisin deputatı,***
***YAP-ın Təftiş komissiyasının sədri***



# Sadiqlik, xeyirxahlıq və nəciblik nümunəsi

**Mövcud ənənələri yaşadanların missiyası nisbətən asandır. İllərlə toplanmış zəngin təcrübə, müəyyən edilmiş yol, istiqamət bu ənənələri inkişaf etdirməyə şərait yaradır. Amma ənənələrin özünü yaratmaq, yeni təcrübələr formalaşdırmaq, ən mühümü isə bunun saysız çətinliklərini bilərək belə ağır bir işi üzərinə götürmək asan deyil və bu, tarixi şəxsiyyətlərin missiyasıdır. Burada söhbət təkcə hansısa vəzifəni layiqincə yerinə yetirməkdən, göstərilən etimadı doğrultmaqdan getmir. Görülən işlərlə gələcək nəsillər üçün dəyərli bir irs formalaşdırmaq, başqaları üçün də örnək yaratmaq bu missiyanın bəlkə də daha əhəmiyyətli hissəsidir.**



# Şərəfli missiya

## Milli dövlətçilik tariximizə yazılmış gün

Düz səkkiz il əvvəl Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli sərəncamı ilə Mehriban xanım Əliyeva ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olundu. Vətəndaşlarımızın ürəyindən xəbər verən bu qərar adi bir vəzifə təyinatı deyildi. Son illər ölkəmizdə aparılan ardıcıl islahatların, baş verən dəyişikliklərin bundan sonra daha da sürətlənəcəyinin, Azərbaycanda müsbətə doğru əsaslı dəyişikliklərin baş verəcəyinin, idarəetmə sistemində və ümumən cəmiyyətimizdə tamamilə yeni bir dövrə keçidin xoş müjdəsi idi. Bu təyinata qədər Mehriban xanım müasir tariximizdəki bir çox ilklərin müəllifi olmuşdu - Azərbaycanda müasir meyarlar baxımından heç bir ənənəsi olmayan birinci xanım institutunu formalaşdırmış, qısa müddətdə bu ictimai təsisatın ən mükəmməl fəaliyyət nümunəsini yaratmışdır. 2004-cü ildən rəhbərlik etdiyi Heydər Əliyev Fondunun çoxşaxəli humanitar fəaliyyəti ilə bu sahədə də əhəmiyyətli bir ilkə imza atmışdır. Mehriban xanım Ulu Öndərin adını daşıyan fondla, bu tarixi şəxsiyyətin əbədi irsi ilə təşkilatın insanların həyatına, ümumən bəşəriyyətə gətirdiyi mühüm töhfələr arasında sintez yaratmış, beynəlxalq aləmdə qazandığı rəğbətlə, layiq görüldüyü ictimai titullarla, müxtəlif ölkələrin, qlobal qurumların ali mükafatları ilə Azərbaycan qadınının adını tarixboyu yüksəldiyi ən uca mərtəbələrə ucaltmışdır.

Azərbaycanın Birinci vitse-prezidenti təyinatı 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla ölkə Konstitusiyasına edilmiş dəyişikliklər əsasında yaradılmışdı. Bu dəyişikliyə qədər Azərbaycanın idarəetmə sistemində belə bir təsisat mövcud deyildi.

Özünü doğrultmuş bu mütərəqqi dünya təcrübəsinin Azərbaycanda da yaradılması bir sıra məqsədlərə xidmət edirdi. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi üçün aparılan sistemli islahatlar fonunda vitse-prezidentlik institutu dövlət idarəetməsinin daha səmərəli və çevik hala gətirilməsinə töhfə verir. Daxili və xarici siyasətdə səmərəliliyin əldə olunmasına, bir çox məsələnin, layihənin icrasında daha operativ qərarların qəbuluna, onların icrası vəziyyətinin həssaslıqla nəzarətdə saxlanmasına şərait yaradır, ölkənin iqtisadi və sosial inkişaf strategiyasının gücləndirilməsində mühüm rol oynayır.

## Xalqın sosial sifarişi

Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə məhz Mehriban xanım Əliyevanın təyin edilməsi xalqımızın sosial sifarişi idi. Vətəndaşlarımız əmin idilər ki, bu təsisatı ən mükəmməl şəkildə məhz Mehriban xanım formalaşdıra, bu vəzifənin öhdəliklərini layiqincə yerinə yetirib cəmiyyətimizin, insanlarımızın həyatına yeni faydalar gətirə bilər. Mehriban xanım Əliyeva xalqımızda bu təəssüratı ötən əsrin 90-cı illərinin ortalarından etibarən cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirakı, gördüyü işlər, yerinə yetirdiyi uğurlu layihələrlə yaratmışdı.

8 il əvvəl Mehriban xanım Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti kimi cəmiyyətə təqdim edərkən dövlət başçısı İlham Əliyev onun Yeni Azərbaycan Partiyasının Sədr müavini, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti, Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvü, ölkəmizdə keçirilmiş "Avroviziya" Beynəlxalq Mahnı Müsabiqəsinin, I Avropa və IV İslam Həmrəyliyi Oyunları Təşkilat komitələrinin rəhbəri kimi gördüyü işləri diqqətə çatdırmış, bütün bu çoxşaxəli, uğurlu fəaliyyətin bu qərarı qəbul etməyində əsas rol oynadığını bildirmişdi: "Eyni zamanda qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir".

Prezident İlham Əliyevin bu qərarı bir tərəfdən Azərbaycan naminə görülmüş işlərin, ardıcıl fəaliyyətlə dövlətimiz, cəmiyyətimiz üçün yaradılmış faydaların layiqli qiyməti, digər tərəfdən isə cəmiyyətdə qadın iştirakçılığına, bütövlükdə qadına verilən dəyərin ifadəsidir. Mehriban xanım bu təyinatdan sonrakı müsahibələrinin birində qeyd edirdi ki, onun Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmağı barədə qərar məhz Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü idi: "Əlbəttə, mənim artıq uzun illər Prezidentin təkcə həyat yoldaşı deyil, deyə bilərəm ki, həmməsləki olmağım yəqin ki, öz rolunu oynayıb. Lakin düşünürəm ki, onun belə qərara gəlməsinin səbəbi bu deyildi. Əsas budur ki, rəhbər vəzifədə - Azərbaycan Respublikasının Prezidenti kimi İlham Əliyev ilk növbədə ölkənin və Azərbaycan xalqının maraqlarına istinad edir. Düşünürəm ki, bu qərarı da o, bu prinsiplərə istinad edərək qəbul etmişdir. Buna görə də, əlbəttə, üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam".

21 fevral 2017-ci ildən keçən tarix salnaməsinin hər səhifəsi bu inamı doğruldan layiqli işlərlə, real əməllərlə, parlaq nəticələrlə zəngindir. Heydər Əliyev Fondunun çoxşaxəli layihələrinin uğurlu təcrübəsinə əsaslanaraq, bu illərdə Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətinin ən mühüm istiqamətlərindən biri sosial sahəyə aid olmuşdur. Dövlətimizin genişmiqyaslı sosial inkişaf proqramlarının icrasında, bu çərçivədə görülən işlərin bilavasitə nəzarətdə saxlanmasında çox mühüm rol oynamış, həyata keçirilən sosial siyasətin öz məqsədlərinə çatmasına, bu sahəyə yönələn resurslardan səmərəli şəkildə istifadə edilməsinə, ən yaxşı beynəlxalq təcrübələrin, innovasiyaların tətbiqinə nail olmuşdur.

Dövlətimizin sosial dəstəyi, diqqət və qayğısı ilə əhatə olunmuş hər bir Azərbaycan vətəndaşı bu nailiyyətləri gündəlik həyatında hiss edir. Əhalinin sosial müdafiəsi sahəsində ədalət meyarlarının bərqərar olması, sosial xidmətlərdə ehtiyacı olan hər kəs üçün bərabərliyin, şəffaflığın, hesabatlılığın təmin edilməsi, proseslərin rəqəmsallaşdırılması, müəyyən dövrlərdə sosial müdafiə sahəsində mövcud olan neqativ halların aradan qaldırılması bunun bariz nümunəsidir.

## Qarabağın və Şərqi Zəngəzurun dirçəlişinə layiqli töhfələr

Mehriban xanım Əliyeva keçmiş qaçqın və məcburi köçkünlərin sosial təminatı sahəsində də mühüm işlər görmüşdür. Təsadüfi deyil ki, o, Azərbaycanın Birinci vitse-prezidenti kimi ilk müşavirəsini də məhz qaçqın və məcburi köçkün ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması məsələlərinə həsr etmişdir. Rəhbərlik etdiyi layihələr çərçivəsində respublikamızın müxtəlif bölgələrində yeni yaşayış kompleksləri tikilmiş, minlərlə məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunmuşdur.

2020-ci ildə qazandığımız tarixi Zəfərdən, torpaqlarımızın işğaldan azad edilməsindən, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra bu istiqamətdə fəaliyyətin yönü dəyişməkdədir. Bir vaxtlar erməni işğalçılarının doğma yurdlarından didərgin saldıqları, uzun illər ölkəmizin müxtəlif məkanlarında min bir əziyyət içində yaşayan soydaşlarımız artıq məcburi köçkün adı ilə vidalaşıblar. Qarabağ və Şərqi Zəngəzurdakı azad yurdlarımıza Böyük qayıdış başlanıb. İndi keçmiş məcburi köçkünlər üçün evlər, yaşayış kompleksləri öz ata-baba yurdlarında tikilir. Mehriban xanım Əliyeva Qarabağın, Şərqi Zəngəzurun dirçəlişinə yenə də mühüm töhfələr verir. Erməni vandallarının işğal dövründə tar-mar etdikləri tarixi abidələrimizin bərpası, yenidən həyata qaytarılması istiqamətində Birinci vitse-prezidentin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Heydər Əliyev Fondu genişmiqyaslı tədbirlər həyata keçirir. Şuşa şəhərindəki Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Çöl qala, Mamayı, Saatlı məscidlərinin, Ağdam və Zəngilan şəhərlərindəki cümə məscidlərinin təmir-bərpası, Şuşada, Hadrutda, Daşaltıda yeni məscidlərin inşası Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərimizə sevgisinin Qarabağda, Şərqi Zəngəzurda nəcib əməllərə çevrilən ifadəsidir.

Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə görkəmli şairimiz Vaqifin Şuşa şəhərindəki muzey-məqbərə kompleksi və büstü də əvvəlki görkəmində bərpa olunub. Mir Möhsün Nəvvabın Cıdır düzündə yerləşən qəbirüstü məzarı yenidən həyata qaytarılıb. Zəfər rəmzimiz olan Şuşada dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin heykəli ucaldılıb. Şuşanın tarixi yaddaşında xüsusi yer tutan məşhur tarzən Sadıqcanın evində, Mehmandarovların malikanə kompleksində, Şirin su hamamında bərpa-quruculuq işləri görülüb. Şuşada tarixi görkəmində bərpa olunan yaradıcılıq mərkəzi, Milli Xalça Muzeyinin Şuşa filialı, "Yasəmən" hoteli də bu gün Azərbaycan dövlətinin qüdrətli əlləri, böyük sevgisi ilə dirçəldilən azad Şuşamıza Mehriban xanım Əliyevanın hədiyyəsidir.

Azad yurdlarımızın dirçəlişinə dəstək təkcə maddi-mədəniyyət abidələrinin bərpası ilə məhdudlaşmır. Mehriban xanımın yaxından iştirak etdiyi mühüm layihələrlə Qarabağın dünyanın tanınmış mədəniyyət mərkəzlərindən birinin - Şuşanın statusu, şöhrəti də yenidən özünə qayıdır. Hər il ən yüksək səviyyədə qeyd edilən "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri və digər bu kimi mədəni tədbirlərlə dünya bu əzəli yurdumuzu yenidən kəşf edir. Şuşada yeni teatr, konsert salonları, sərgi məkanları yaradılır. Qarabağda, Şərqi Zəngəzurda əhalinin yeni evlərinə qayıdışına həmahəng şəkildə məktəblər, uşaq bağçaları, tibb müəssisələri və başqa infrastruktur obyektləri inşa olunur.

## Həssas təbəqəyə xüsusi qayğı

Ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda canını qurban vermiş şəhidlərimizin ailələri, döyüşlərdə yaralanmış hərbçilərimizin sağlamlıq durumu da daim Mehriban xanımın nəzarətindədir. Onun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən müvafiq layihələr çərçivəsində qazilərimiz dünyada ən müasir protez istehsalçıları kimi tanınan şirkətlərin yüksəktexnologiyalı məhsulları ilə təmin edilirlər.

Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının genişləndirilməsi məqsədilə Birinci vitse-prezidentin təşəbbüsü, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Naxçıvanda, Gəncədə, Yevlaxda onlar üçün regional informasiya mərkəzləri yaradılıb. Bu mərkəzlərdə gözdən əlilliyi olan və görmə imkanları məhdud insanlara informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə internetə çıxış, internetdə lazımi informasiyaların tapılması və s. üçün imkanlar təmin edilib.

Mehriban xanım əlilliyi olan uşaq və gənclərin əl işlərindən ibarət sərgilərin təşkilinə, onların yaradıcılıq potensialının inkişafına da dəstək verir. Heydər Əliyev Fondu sosial xidmət müəssisələrində, habelə ahıllar üçün sosial xidmət məkanlarında mütəmadi olaraq aksiyalar, dövlət himayəsində yaşayanlara, aztəminatlı ailələrə dəstək məqsədli ardıcıl tədbirlər təşkil edir.

Mehriban xanım Əliyeva özünüməşğulluq proqramının genişləndirilməsi prosesinə də xüsusi diqqət yetirir. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən icra olunan "Sosial bağlar" layihəsi çərçivəsində son illərdə yüzlərlə aztəminatlı ailə üçün müxtəlif özünüməşğulluq təsərrüfatları yaradılıb.

Ölkənin Birinci vitse-prezidentinin yüksək humanizminin, həssas əhali qruplarına diqqət və qayğısının təcəssümü olan və çox mühüm sosial əhəmiyyət daşıyan layihələrdən biri də son illər müxtəlif bölgələrimizdə tikilən "Məzun evləri"dir. Bu çoxmənzilli yaşayış binaları dövlət uşaq müəssisələrinin məzunu olan, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum gənclərin istifadəsinə verilir.

## Elm və təhsillə qurulan gələcək

İllər əvvəl olduğu kimi, bu gün də Mehriban xanımın fəaliyyətində Azərbaycanın təhsil sisteminin müasirləşdirilməsi, qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılması mühüm yer tutur. Yada salaq ki, 2005-ci ildən Mehriban xanım Əliyevanın təşəbbüsü, Heydər Əliyev Fondunun təşkilatçılığı, ölkəmizdəki bir sıra dövlət və özəl qurumların dəstəyi ilə "Yeniləşən Azərbaycana yeni məktəb", eləcə də "Uşaq evləri və internat məktəblərinin inkişafına dəstək" layihələrinin reallaşdırılmasına başlanmış, ölkəmizin müxtəlif regionlarında yüzlərlə təhsil və səhiyyə ocağı tikilmiş, eləcə də mövcud olanlar yenilənərək əhalinin istifadəsinə verilmişdir.

Mehriban xanımın təhsili, geniş mənada sosial tərbiyə məsələlərini uzun illərdən bəri əsas fəaliyyət prioritetlərindən biri kimi müəyyənləşdirərək bu istiqamətdə sistemli iş aparması heç də təsadüfi deyil. Tarixboyu elmə, təhsilə mühüm diqqət verən ölkələr, cəmiyyətlər irəli gediblər. Bəşəriyyət indi də bütün nailiyyətlərinə görə bu sahələrin inkişafına zəhmət sərf edən şəxsiyyətlərə borcludur. Bu mənada Mehriban xanım Əliyevanın təşəbbüsü ilə elm və təhsil sahələrində həyata keçirilən layihələr Azərbaycanın bu günü və gələcəyinə ən böyük xidmətdir.

Azərbaycanın Birinci vitse-prezidentinin bir neçə il əvvəl Heydər Əliyev Fondunun xətti ilə irəli sürdüyü "Təhsilə dəstək" layihəsi vacib əhəmiyyət kəsb edir. Bu layihə çərçivəsində hər tədris ilində keçmiş qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə, ölkəmizin milli azlıqlar yaşayan bəzi bölgələrinin məktəblərində təhsil alan şagirdlərə dərsliklər, müxtəlif tədris ləvazimatları hədiyyə edilir. Mehriban xanımın müəllifi olduğu "Təhsilə dəstək" layihəsi çərçivəsində indiyə qədər Azərbaycanla yanaşı, bir sıra başqa ölkələrdə - Pakistanda, Niderland Krallığında, Gürcüstanda, Misirdə, Rumıniyada, Rusiyada da yeni məktəblər tikilib, yaxud əsaslı təmir edilərək yerli icmaların istifadəsinə verilib.

Birinci vitse-prezidentin irəli sürdüyü təşəbbüslər sırasında Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin, Talassemiya Mərkəzinin və başqa bu kimi tibb müəssisələrinin tikilərək əhalinin istifadəsinə verilməsi də mühüm yer tutur. Bütün bunlar ölkəmizdə fiziki və əqli cəhətdən sağlam nəslin yetişməsi məsələsinin Mehriban xanım Əliyeva üçün nə qədər böyük əhəmiyyət daşıdığını göstərir.

## Sevgi, şəfqət, mərhəmət

Bu gün Mehriban xanımın ölkəmizin ali rəhbərliyində təmsilçiliyi dövlətimiz, xalqımız üçün gördüyü mühüm işlər Azərbaycanda qadın fəallığı ənənələrinin tarixi təntənəsidir. Qadınlara geniş hüquqların verilməsi, onların cəmiyyətdəki layiqli mövqeyinin təmin olunması ilk növbədə sağlam nəslin formalaşması, xalqın genetik saflığının qorunub saxlanması baxımından vacibdir. Xanımlara özünütəsdiq imkanı yaratmaq, onların qabiliyyət və bacarığından səmərəli şəkildə istifadə etmək sağlam gələcək barədə düşünən hər bir dövlətin ümdə vəzifəsidir. Mehriban xanım Əliyevanın timsalında Azərbaycanın qadın hərəkatında güclü dövlət, ədalətli cəmiyyət və azad qadın anlayışları bir-birinə möhkəm tellərlə bağlanaraq sosial-mədəni inkişafımızın mütəhərrik qüvvəsinə çevrilir.

Mehriban xanım sülh elçisi olaraq fərqli sivilizasiyalar, dinlər arasında körpü yaradan, fərqli mədəniyyətlərə hörmət ruhu aşılayan şəxsiyyətdir. Bu gün Azərbaycanın dünyada dialoq məkanı kimi tanınmasında, xalqımızın əsrlərdən bəri malik olduğu tolerantlıq, multikulturalizm ənənələrinin dünyada diqqət doğurub xoş örnəyə çevrilməsində Azərbaycanın Birinci vitse-prezidentinin əməyi çox böyükdür. Bütün bunlar dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin təşkilinə Mehriban xanımın da böyük zəhmət sərf etdiyi humanitar forumların, müxtəlif mədəni təşəbbüslərin sayəsində mümkün olmuşdur. Məhz bu fəaliyyət nəticəsində 2008-ci ildə paytaxtımızdan start götürmüş "Bakı prosesi" bu gün dünyada mədəniyyətlərarası dialoq, multikulturalizm sahəsində ən uğurlu platformalardan biri kimi qəbul olunur. Bu istiqamətdə apardığı ardıcıl fəaliyyətlə, mədəniyyət incilərimizin, milli-mənəvi dəyərlərimizin dünyada təbliği ilə Mehriban xanım Azərbaycanın mədəniyyət diplomatiyasının uğurları üçün də misilsiz işlər görür.

Ən mühümü isə Birinci vitse-prezident bütün dinlərin, mədəniyyətlərin bəşəriyyətə təlqin etdiyi ali dəyərləri - insana sevgini, şəfqəti, xeyirxahlığı, köməyə ehtiyacı olanlara əl tutmağı, eləcə də çağdaş dünyamızda bu dəyərlərin daşıyıcılarına nə qədər böyük ehtiyacın olduğunu öz fəaliyyəti ilə təsdiqləyir. Mehriban xanımın xeyirxah əməlləri xeyirxahlığın mahiyyətindən daha üstündür. O, öz xeyir əməlləri, şəxsiyyətinin miqyası ilə cəmiyyət üçün yeni dəyərlər formalaşdırır, ictimai meyarlar yaradır. Xeyirxahlığı, mərhəməti, insanlara sevgini həyat normalarına çevirir. Birinci vitse-prezidentin həyat və fəaliyyət meyarlarına görə hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı hissləri əsas yer tutmalıdır: "O cəmiyyətdə ki həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir".

Ötən il ölkəmizin evsahibliyi etdiyi COP29 tədbiri çərçivəsində də Mehriban xanım Əliyevanın fəaliyyəti mühüm məqamlarla yadda qaldı. Onun müxtəlif ölkələrin birinci xanımlarının iştirakı ilə təşkil olunmuş "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusundakı konfransda çıxışı xüsusilə əhəmiyyətli idi. Azərbaycanın Birinci vitse-prezidentinin COP29 tədbirindəki fəaliyyəti ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə verdiyi töhfələri və gənclərin bu prosesdəki rolunun önəmini bir daha nümayiş etdirmiş oldu.

"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız". Bunlar söz xatirinə deyilmiş adi kəlmələr deyil. Mehriban xanım Əliyevanın həyatı Yer üzünün ən dəyərli əşrəfi olan insanın ictimai missiyasını dərk etdiyi anlardan seçdiyi həyat qayəsidir. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsini də məhz belə bir məsuliyyətlə artıq 8 ildir davam etdirir.

Ötən illər ərzində Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin gördüyü işlərin mahiyyəti də, miqyası da çox böyükdür. Mehriban xanım Əliyevanın fəaliyyəti sosial, mədəni və humanitar sahələri əhatə edərək Azərbaycanın inkişafına mühüm töhfələr vermişdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



# Sadiqlik, xeyirxahlıq və nəciblik nümunəsi

**"...Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir".**

**2019-cu ilin mayında Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə ilk DOST mərkəzinin açılışında Prezident İlham Əliyevin səsləndirdiyi kimi, bu layihə ölkəmizdə uğurla gerçəkləşdirilib və fəaliyyət göstərdiyi 6 illik zaman ərzində vətəndaşların böyük rəğbətini qazanıb. O da təsadüfi deyil ki, bu gün DOST xidmətlərindən əhalinin məmnunluq səviyyəsi 98,5 faiz təşkil edir.**

**Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsi olan DOST layihəsi əhaliyə, xüsusilə sosial cəhətdən həssas qruplara dövlət sosial xidmətlərinin "bir pəncərə"dən operativ, şəffaf və nəzakətli, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim olunmasını özündə ehtiva edir.**



## Hər kəsin "DOST"u

### Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan bu mərkəzlərdən əhalinin məmnunluğu 100 faizə yaxındır

### "Burada sanki insanın ruhu dincəlir"

Prezidentin 2018-ci il avqustun 9-da imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin 4 saylı Bakı DOST mərkəzindən reportaj hazırlayan zaman mərkəzin işçi heyəti, "DOST könüllüləri" tərəfindən göstərilən xidmətlə bağlı apardığımız müşahidələr, bura müraciət edən şəxslərlə etdiyimiz söhbətlər də bunu deməyə əsas verdi ki, vətəndaşlarımız sözün əsl mənasında bu ünvanların timsalında əsl dosta sahib olublar.

"Bu mərkəzə pensiya məsələmlə əlaqədar gəlmişəm. Müraciətimə dərhal baxıldı və lazım olan məlumatlar verildi. Çox razı qaldım. Ümumiyyətlə, əvvəllər də bir neçə dəfə DOST-a gəlmişəm. Bu mərkəzə gəlib-gedəndə sanki insanın ruhu dincəlir. Könüllülər, burada çalışan işçilər bizi gülər üzlə qarşılayır, qayğı ilə lazım olan bütün köməklikləri göstərirlər. Allah Prezidentimizə də, Mehriban xanıma da cansağlığı versin ki, biz vətəndaşlara bu cür yüksək səviyyədə xidmət göstərən mərkəz yaradıb".

4 saylı DOST mərkəzində pensiya bölməsində lazım olan xidməti aldıqdan sonra bu ünvanı tərk etməyə hazırlaşan Arif Məmmədovla həmsöhbət olduğumuz zaman söylədi bu fikirləri.

Daha sonra A.Məmmədov mərkəzin çıxış qapısı yaxınlığında dayanan könüllü xanımın vətəndaş məmnunluğu sorğusunda iştirak edib, xidmətləri "5" səviyyəsində dəyərləndirərək, bu məkanı razılıqla tərk etdi...

### Dost könüllülər

Vətəndaşlar 4 saylı DOST mərkəzinə daxil olduqdan sonra əvvəlcə qəbul masasına yaxınlaşırlar. Burada şəxsiyyət vəsiqələrini, yaxud da elektron imzalarını onlayn şəkildə təqdim edərək hansı xidmətdən yararlanmaq istədiklərini söyləyirlər. Qəbul masası arxasında əyləşən əməkdaşlar təqdim olunan sənədi yoxlayıb vətəndaşa növbə kağızı verirlər.

Daha sonra isə proses "DOST könüllüləri"nin köməyi ilə davam edir. Belə ki, vətəndaş mərkəzdə bunun üçün xidmət göstərən könüllüyə yaxınlaşıb növbə kağızını təqdim edir və onun tərəfindən uyğun xidmət masasına yönləndirilir.

Vətəndaşı xidmət masasına yönləndirən könüllü Aytac Ədilova söylədi ki, artıq iki aya yaxındır ki, bu mərkəzdə fəaliyyət göstərir. Günlərə görə vətəndaşların müraciət sayının dəyişdiyini bildirən könüllü xanımın sözlərinə görə, ümumilikdə bazar ertəsi və çərşənbə axşamı mərkəzə daha çox vətəndaş gəlir: "Bu gün isə saat 11 radələrinə qədər təxminən 100-ə yaxın vətəndaş bizə tibbi sığorta, pensiya, məşğulluq və sair ilə bağlı müraciət edib".

Qərbi Kaspi Universitetində sosial iş ixtisasında oxuyan 20 yaşlı Nuray Mirzəli də burada könüllü kimi çalışaraq vətəndaşlara xidmət göstərir: "Mərkəzdəki iş ortamı çox maraqlıdır. Eyni zamanda ixtisasımla əlaqəli olduğu üçün könüllü kimi çalışaraq təcrübəmin daha da artmasını istəyirəm. Ümumiyyətlə, vətəndaşlarla iş mənə çox maraqlı gəlir və bu vəzifəmi layiqincə yerinə yetirməyə çalışıram".

Mərkəzdə könüllülərin idarə edilməsi üzrə məsul şəxs Səyyarə Binnətova söylədi ki, beş ilə yaxındır DOST Agentliyində könüllülər sahəsində çalışır. 2019-2020-ci illərdə özü də könüllü kimi fəaliyyət göstərən Səyyarə xanım məlumat verdi ki, hər ay bu mərkəzə 50-yə yaxın könüllü şəxs gəlir: "Onların gündəlik fəaliyyəti vətəndaşların qarşılanması, xidməti pəncərələrə yönləndirilməsi, vətəndaşların məmnunluq sorğularında iştirak etməsi, elektron cihazlardan vətəndaşlara növbələrin verilməsi və bu kimi digər işlərdən ibarətdir".













4 saylı mərkəzdə diqqətçəkən məqamlardan biri də "özünəxidmət masası"dır. Burada könüllülər vətəndaşlara müəyyən məsələlərdə kömək göstərirlər.

Gənc könüllü Ülkər Məmmədli dedi ki, elə olur ki, vətəndaş hansısa səbəbdən, tutaq ki, evdə internetlə təmin olunmayıbsa, yaxud kompüteri yoxdursa, ünvanlı yardım təyinatı üçün özü qeydiyyatdan keçə bilmir. Belə halda vətəndaş "özünəxidmət masası"na yaxınlaşır: "Bu masada biz həmin şəxslərə kömək edirik. Burada həmçinin müxtəlif xidmətlərlə bağı ərizələrin, arayışların yazılması ilə əlaqədar da kömək göstəririk. Bu gün günortaya qədər 7 vətəndaşa ünvanlı sosial yardımla bağlı qeydiyyatdan keçmək üçün kömək göstərilib, hazırda da bu proses davam edir".

### "Bu təşəkkürlərin ən böyüyü Mehriban xanıma düşür"

Mərkəzin xidmətindən yararlanan vətəndaşların rəylərini öyrənən Aytəkin Hüseynova ilə də həmsöhbət olduq. Onun sözlərinə görə, ikiaylıq könüllülük fəaliyyətinin bitməsinə sayılı günlər qalıb: "DOST-da yeni dostluqlar qurdum, yeni şeylər öyrəndim, təcrübələr qazandım. Məsələn, yaşlı insanlarla işləmək bacarığım birə-beş artdı. Hazırda da burada vətəndaşların mərkəzdə aldıqları xidmətlə bağlı rəylərini öyrənirəm. Demək olar ki, vətəndaşların xidmətimizdən məmnunluğu yüksək səviyyədədir".

66 yaşlı Züleyxa Mikayılova isə 4 saylı mərkəzin "Gümüşü könüllü"südür. O danışdı ki, 2020-ci ildən "Üçüncü bahar" İctimai Birliyinə üzv olub və birliyin DOST-la olan müqaviləsi əsasında ötən ildən bu mərkəzdə "Gümüşü könüllü" kimi fəaliyyət göstərməyə başlayıb: "Bura çox maraqlıdır və vətəndaşlara kömək etmək xoşdur. Onu da deyim ki, xüsusilə bizim yaşda olan insanlara gənclərlə ünsiyyətdə olmaq müsbət təsir edir. Mərkəzdə bu imkana da sahib olmuşam. Gənclərimizin burada çox böyük həvəslə fəaliyyət göstərdiklərini görürəm. Onlar işə sözün əsl mənasında ürəklərini qoyurlar və bacardıqları qədər insanlara kömək edirlər ki, hər şey onlar üçün rahat olsun".

Z.Mikayılova insanların rahatlığı üçün yaradılan bu mərkəzlərin təşəbbüskarı Mehriban xanım Əliyevaya böyük minnətdarlıq edərək söylədi ki, bura gəlib məsələlərini rahatlıqla həll edən vətəndaşlar mərkəzi razı tərk edirlər: "Onların təşəkkürlərinin ən böyük payı isə heç şübhəsiz Mehriban xanıma düşür".

### Peşəkar xidmət

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası Azərbaycanda son illər aparılan sosial islahatların mühüm nailiyyətlərindən biridir. Bu konsepsiya əmək, məşğulluq, əlillik, reabilitasiya, sosial müdafiə və sosial təminat sahələrinə dair 15 istiqamət üzrə 160 sosial xidmətin "bir pəncərə"dən, müasir və çevik, tam şəffaf mexanizmlər üzərindən, vətəndaş məmnunluğuna uyğun təqdim olunmasını təmin edir.

4 saylı DOST mərkəzində əlillik istiqaməti üzrə sosial agent Aygün Zeynalova məlumat verdi ki, vətəndaşlar adətən onlara əlilliyin qiymətləndirilməsi, ilkin əlilliklə müddətsiz əlillik sənədlərinin sistemə daxil edilməsi, əlillik arayışlarının əldə edilməsi və sair ilə bağlı müraciətlər edirlər.

Pensiya məsələləri üzrə sosial agent Seyran Səfərov söylədi ki, pensiya sahəsi üzrə məsələn, pensiyaların yenidən hesablanması, təyinatı və digər bu kimi məsələlərlə əlaqədar vətəndaşların müraciətlərini qəbul edirlər: "Bu gün də vətəndaşlar tərəfindən pensiyanın yenidən hesablanması ilə bağlı bir neçə müraciət olub".

Övladlığa götürmə üzrə sosial agent Nərmin Abdullayeva dedi ki, övladlığa götürmək istəyən vətəndaşlar DOST mərkəzinə yaxınlaşıb bununla əlaqədar qanunvericiliklə, elektron müraciətlə bağlı izahat alırlar, suallarını verirlər: "Övladlığa götürmə bir sıra formalarda olur. Yəni vətəndaşların öz situasiyasından asılı olaraq hansı sənədləri toplayacaqları və müraciəti hansı formada edəcəkləri ilə bağlı qanunvericiliyi onlara izah edirik. Vətəndaşlar sənədlərini yığdıqdan sonra özlərinə uyğun DOST mərkəzlərinə yaxınlaşıb özəl xidmət masasında qeydiyyatdan keçə bilərlər ki, burada da könüllülərimiz onlara kömək göstərirlər".

5 ildir bu mərkəzdə çalışan sosial müavinətlər üzrə böyük mütəxəssis Sərdar Əliyev məlumat verdi ki, əsasən vətəndaşlara ünvanlı sosial yardımla bağlı kömək göstərir, onlara bununla əlaqədar hüquqlarını izah edirlər: "Əlilliyə, ailə başçısını itirməyə, yaşa görə və bu kimi bir neçə növ müavinətlərin təyin olunması ilə bağlı məsələlərlə məşğul oluruq. Həmçinin xəstəlik vərəqələrinə görə ödənilən vəsaitlərin məlumatlarını veririk. Son zamanlar əsasən bizə edilən müraciətlərin 80 faizi ünvanlı sosial yardımla əlaqədar olur. Biz bununla bağlı qanunun tələblərini vətəndaşlara izah edirik. Digər müraciətlərin azalmasının səbəbi isə əlilliyə, yaşa və sairə görə müavinətlərin təyinatının elektron formada aparılmasıdır".

Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 4 saylı DOST mərkəzində bölməsi fəaliyyət göstərir. Əlilliyi olan şəxslər gəlib burada əyani müayinədən, qiymətləndirilmədən keçə bilirlər.

### Böyük məmnunluq

Ölkə üzrə 7 DOST mərkəzi, həmçinin Zəngilan rayonunun Ağalı kəndində "Smart" DOST məntəqəsi və Qarabağ Regional DOST mərkəzinin Şuşa filialı fəaliyyət göstərir. Hazırda Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda DOST xidmətləri şəbəkəsinin qurulması üçün layihə, təmir-tikinti işləri aparılır. Ümumilikdə 17 yeni Regional DOST mərkəzinin, 55 DOST filialının yaradılması nəzərdə tutulur.

DOST mərkəzlərində indiyədək 3,3 milyondan çox vətəndaşa xidmət göstərilib. Bu il fevralın 3-də isə DOST mərkəzlərində rekord sayda vətəndaş müraciəti qeydə alınıb. Belə ki, mərkəzlərə ümumilikdə 6480 nəfər vətəndaş müraciət edib. Bu göstərici DOST mərkəzlərində indiyədək qeydə alınan ən yüksək nəticədir.

DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 98,5 faiz təşkil edir. "DOST" Çağrı Mərkəzi 142 üzrə isə 6,9 milyondan çox zəng cavablandırılıb və məmnunluq səviyyəsi 95,1 faizdir.

Reportajımız zamanı 4 saylı mərkəzdə rəylərini öyrəndiyimiz vətəndaşlar da bir ağızdan DOST-dan razılıq etdilər.

"Həyat yoldaşımın pensiyasını hesablatdırmaq üçün bu mərkəzə müraciət etmişik. Çox sağ olsun könüllülər də, mərkəzdə xidmət göstərən digər işçilər də, dərhal bizə kömək göstərdilər və ətraflı məlumat verdilər".

Bu fikirləri səsləndirən Elza Əliyeva dedi ki, mərkəzdə ilk dəfə olmasına baxmayaraq, göstərilən xidmətə görə təəssüratları çox xoşdur.

Həmsöhbət olduğumuz Niyazi Şirinov, Rüqəyya Əbdülova adlı vətəndaşlar da xidmətdən çox məmnun qaldıqlarını bildirdilər.

Ayaz Ərzumanov söylədi ki, bu ünvana sosial yardım üçün müraciət edib və 14 iş günü ərzində ona cavab veriləcək: "Operativ şəkildə məsələmlə bağlı mənə kömək göstərildi. Burada hər kəsin güləruz və mehriban olması, xoş əhvali-ruhiyyəsi biz vətəndaşlara da sirayət edir".

Bu, 4 saylı DOST mərkəzində yaşanan gərgin bir iş gününün qısa zaman kəsiyi idi. Sözügedən məkanda bir neçə saat ərzində iş prosesini izləyərkən gəldiyimiz qəti qənaət bu oldu ki, mərkəzdə bütün işlər vətəndaş məmnunluğuna köklənib və elə buna görə də əhalimizin ən çox müraciət edərək razı qaldığı ünvanın məhz DOST olması təəccüblü deyil...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Sadiqlik, xeyirxahlıq və nəciblik nümunəsi





# Talassemiyasız həyat naminə

## Heydər Əliyev Fondu talassemiyalı xəstələrin sağlamlıqlarına qovuşmaları üçün mühüm layihələr həyata keçirir

**Dünyaya hər kəs şanslı gəlmir. Bəziləri müəyyən sağlamlıq problemləri ilə doğulur, bəziləri isə bu və ya digər səbəbdən səhhətləri ilə bağlı narahatlıqlar yaşayırlar. İnsanların xəstəliklərdən qurtulub cəmiyyətə qaytarılması isə güclü dövlətin prioritetlərindən biridir. Azərbaycan kimi...**

Hər bir dövləti qüdrətli edən zamanında verilmiş düzgün qərarlar, doğru addımlardır. Prezident İlham Əliyevin hakimiyyətə gəldiyi ilk günlərdən etibarən "sağlam ailə - sağlam cəmiyyət" devizi ilə səhiyyə sahəsində mühüm islahatlar reallaşdırılıb, layihələr həyata keçirilib. Heydər Əliyev Fondunun da bu layihələrin həyata keçirilməsində rolu əvəzsizdir. Belə layihələrin gerçəkləşdirildiyi müəssisələrdən biri də Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Talassemiya bölməsidir.

### Valideynlərdən övladlara keçən ağır irsi qan xəstəliyi

Talassemiya valideyndən övlada keçən ağır irsi qan xəstəliyidir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünyada 250 milyondan artıq talassemiya daşıyıcısı və təxminən 300 min talassemiyalı xəstə var. Bu, təəssüf ki, ölkəmizdə də geniş yayılmış xəstəlik qrupundan biridir. Hazırda Azərbaycanda qeydiyyatda 3200 nəfər talassemiyalı xəstə var. Bu xəstələrin 1500-ə yaxını transfuziyadan asılı olan, yəni davamlı olaraq qan alan xəstələrdir. Milli Hematologiya və Transfuziologiya Mərkəzinin icraçı direktorunun müalicə işləri üzrə müavini Səhər İsmayılova bildirir ki, hazırda Azərbaycan əhalisinin 4-6 faizində daşıyıcılıq var. Bunda qohum evliliklərinin ciddi təsiri var. Daşıyıcı insan xəstə hesab edilmir. Bu gen həmin insanın dünyaya gətirdiyi uşağa keçsə belə təhlükəli hesab edilmir, çünki uşaq da yalnız daşıyıcı olur. Mendel qanununa görə, hər iki valideyn daşıyıcı olduqda 25 faiz ehtimalla xəstə, 50 faiz ehtimalla daşıyıcı, 25 faiz ehtimalla isə sağlam uşaq doğulur. Hər ikisi daşıyıcı olan valideynlərin neçə uşağının xəstə və ya sağlam olacağını isə heç kəs söyləyə bilməz. Bu valideynlərin mayalanma zamanı uşaqlara verdiyi gendən asılıdır. Xəstəliyin araşdırılması, müayinə və müalicəsi isə məhz Talassemiya Mərkəzində həyata keçirilir.

"20 il öncə fevralın 8-də Birinci vitse-prezident Mehriban Əliyeva "dəyirmi masa" təşkil edərək, "Talassemiyasız həyat naminə" adlı layihə başlatdı. Layihənin əsas məqsədi talassemiyalı xəstələrin düzgün diaqnostikası, müayinə və müalicəsi, radikal müalicə üsulu olan sümük iliyi transplantasiyası, xəstələrin yüksəkkeyfiyyətli qan və qan komponentləri ilə təmin olunması idi. Bütün bu müzakirələr nəticəsində 2009-cu ildə Talassemiya Mərkəzi istifadəyə verildi. Mərkəz istifadəyə verildikdən sonra talassemiya diaqnozu qoyulan xəstələr daha komfortlu şəraitdə müalicə edildi, əvvəl qan tapmaqda çətinlik çəkən xəstələr vaxtlı-vaxtında qanla təmin olundular", - deyə Səhər İsmayılova bildirdi.

### Belə xəstələrin dünyaya sağlam körpələr gətirmələri mümkündür

"Talassemiyasız həyat naminə" şüarına uyğun olaraq 2015-ci ildən bütün nikaha daxil olmaq istəyən şəxslər icbari tibbi müayinədən keçərək, qan testləri verirlər. Qan Bankının məlumatına görə, ötən il nikah üçün ümumilikdə 111913 vətəndaş qan analizləri verib. Hər ikisində daşıyıcılıq olan cütlüklərin sayı 25, yalnız bir nəfərdə daşıyıcılıq olanların sayı isə 4357 olub.

S.İsmayılovanın sözlərinə görə, test nəticələrindən sonra hər ikisində daşıyıcılıq aşkarlanan cütlüklərə genetik konsultasiya verilir. Onlara izah edilir ki, dünyaya gətirəcəkləri körpələr 25 faiz ehtimalla talassemiya xəstəsi ola bilər. Buna baxmayaraq, ailə quran cütlüklərdə daha sonrakı aylarda, hamiləliyin erkən dövründə doğulacaq uşağın sağlam və ya xəstə olduğu müəyyən edilir. 2024-cü ildə 85 nəfərdə perinatal müayinələr aparılıb. Onların 22-də talassemiya xəstəliyi aşkar edilib. Sevindirici hal odur ki, hər ikisi xəstəlik daşıyıcısı olan valideynlər süni mayalanmadan istifadə edərək, tamamilə sağlam körpələr də dünyaya gətirə bilərlər.

Talassemiyalı pasiyentlərdən həyat keyfiyyətlərini yaxşılaşdırmaq və həyati vacib orqanların normal fəaliyyətini təmin etmək məqsədilə ayda bir və ya bir neçə dəfə qan alırlar. Əks halda onlarda ciddi qan azlığı, ürək, qaraciyər, dalaq böyüməsi müşahidə edilir. O bildirir ki, qan köçürülməsi xəstənin vəziyyətindən asılı olaraq dəyişir: "Talassemiyalı xəstələr vaxtlı-vaxtında qan almadıqda üzlərində deformasiya əmələ gəlir, boyları qısalır, sümük sistemində ləngimələr olur. Çalışırıq ki, xəstələrin qan səviyyəsini normal saxlayaq. Analizlərə baxıb qan köçürmə təyin edirik". S.İsmayılova məlumat verir ki, normal insanlarda qan 120 gün yaşayır, daha sonra yenilənir: "Talassemiyalı xəstələrdə isə bu müddət azdır. Qırmızı qan hüceyrələri tez müddətdə parçalanır, parçalandıqca qan aşağı düşür. Bu halda qan köçürülür. Köçürülən qan qanı artırsa da, dəmir səviyyəsini qaldırır. Bu zaman qaraciyərdə, ürəkdə, mədəaltı vəzidə toplanır, orqanların fəaliyyətində problemlər yaranır. Bunun üçün dəmirqovucu preparatlar, xüsusi diyetlər təyin edilir, hər ay analizlər verilir".











### "Fond hər zaman bizə dəstək göstərir"

Mərkəzin icraçı direktorunun müalicə işləri üzrə müavini bildirir ki, mərkəzdə ən vacib sahələrdən biri laborator xidmətdir. Ən yüksək səviyyədə təşkil edilən laboratoriyada xəstəliklərin müayinəsi, genetik analizlər, oxuma tipləndirmə, yəni donorla resipientin bir-birinə uyğunluğu təhlilləri aparılır. Şüa, diqnostika bölməsində xəstələr üçün vacib olan dastimetriya və rentgen müayinəsi həyata keçirilir. Mərkəzdə həmçinin poliklinik xidmətlər var. Burada hematoloq və pediatrlarla yanaşı, kardioloq, endokrinoloq, infeksionist və revmatoloq da xidmət göstərir. Ağırlaşmış formada olan, bölgələrdən gəlib vaxtlı-vaxtında qan almayan, dərman qəbul edə bilməyən xəstələr bəzi hallarda stasionar şöbəyə yatızdırılır.

Talassemiya Mərkəzinin ən önəmli hissələrindən biri transfuziya zalıdır. Ötən il mərkəz təmir olunana qədər burada yalnız bir transfuziya zalı olub, hazırda onların sayı üçdür. Artıq 0-5 yaşlı xəstələrə bir, 5-15 yaşlılara bir, 15 yaşdan böyüklərə isə digər zalda xidmət görürlər.

S.İsmayılova onu da deyir ki, ötən il oktyabrın 31-də təmirdən sonra respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərkəzi ziyarət edib: "Bu, bizim üçün böyük şərəf idi. Fond hər zaman bizə dəstək göstərir, lazımi tibbi avandanlıqlarla təmin edir. Mehriban xanım burada olarkən "Talassemiyasız həyat naminə" layihəsi barədə məlumat aldı, əldə etdiyimiz nailiyyətlərlə maraqlandı. Böyük fərəhlə nəticələrimizi bölüşərək bildirdik ki, əvvəllər talassemiyalı doğulan körpələrin sayı indikindən 2-3 dəfə çox idi. Talassemiyalı xəstələrin Mehriban xanımla görüşü isə onlar üçün unudulmaz xatirə oldu".

### 200-dən artıq xəstəyə sümük iliyi transplantasiyası icra olunub

Talassemiya xəstəliyində radikal müalicə üsulu sümük iliyinin transplantasiyasıdır. Azərbaycanda yeganə olan və mərkəzdə yerləşən Sümük iliyi transplantasiya bölməsi 2014-cü ildən fəaliyyət göstərir. İndiyədək 200-dən artıq xəstəyə sümük iliyi tranplantasiyası icra olunub. Onların 90 faizini talassemiyalı xəstələr təşkil edir. Eyni zamanda digər qan xəstəlikləri olan kəskin leykoz, limfoma diaqnozu olan xəstələr də sümük iliyi transplantasiyası olunaraq bəladan tam azad olurlar.

Sümük iliyinin transplantasiya şöbəsinin müdiri Nərgiz Əliyeva bildirir ki, donor bankı yaradılsaydı, bu rəqəm daha yüksək ola bilərdi. Bunun üçün Səhiyyə Nazirliyi tərəfindən ciddi işlər görülür. Artıq orqan donorluğu və transplantasiya mərkəzi qurulub. Hazırda yalnız bacı-qardaş donor qismində çıxış edir. Onların iliyinin uyğun olması ehtimalı 20-35 faiz, valideynlərdə isə cəmi bir faizdir.

"2023-cü ildə sümük iliyinin transplantasiyasının təkmilləşdirilməsi çərçivəsində Türkiyənin Kök hüceyrə bankından bizim xəstələrə uyğun donorlar tapıldı. Ötən il 25 xəstə əməliyyat olunub ölkəmizə geri döndü. Bu il daha çox xəstənin əməliyyat olunması gözlənilir. Təbii ki, xəstənin orqanizminin donorun sümük iliyini qəbul etməməsi halı ilə də üzləşirik. Amma bu, indiyədək 220 xəstədən cəmi 8-də baş verib. Ümumi statistikaya nəzər yetirəndə bu, yaxşı nəticədir. Əməliyyatdan dönən xəstələr mərkəzdə stasionar müalicə olunurlar. Əvvəllər yalnız 5 palatamız vardı, təmir-tikintidən sonra isə onların sayı 6 oldu", - deyə Nərgiz Əliyeva bildirdi.

Xəstələrin bəzilərinin sümük iliyi transplantasiyasından çəkindiklərini qeyd edən mütəxəssis bunun, əslində, adi qan köçürülməsinə bənzədiyini bildirir: "Transplantasiya zamanı Aferez cihazından istifadə olunur. Sümük iliyinin hüceyrələri periferik qana keçdikdən sonra bu cihazla toplanır. İnsana xüsusi dərman preparatı verilir ki, sümük iliyində olan hüceyrələr qana tökülsün. Cihaz donordan götürülən qanın içindən lazımi hüceyrələri yığır. Əgər donorlar kiçik olarsa, əməliyyatxana şəraitində anesteziya verilərək ilikdən nümunə götürülür. Sümük iliyi transplantasiyasının donor üçün heç bir ziyanı yoxdur. Amma transplantasiya maksimum steril şəraitdə aparılmalıdır. Çünki transplantasiyadan öncə xəstənin bütün hüceyrələri, immun sistemi sıfırlanır, ona donor hüceyrələri verilir. Buna görə də mərkəz xüsusi hipofilterlərlə təchiz olunub".

Şöbə müdiri onu da qeyd edir ki, transplantasiya olan xəstələr 40-45 gündən 6 aya qədər stasionarda qalırlar. Transplantasiyadan sonra xəstələr 5 il müddətində davamlı olaraq müayinə, müalicə alır, müşahidə altında qalırlar. 5 ildən sonra isə onlar tam sağalmış hesab edilirlər. Onu da qeyd etmək lazımdır ki, azyaşlı xəstələrin təhsildən geri qalmamaları üçün onlara distant təhsil verilir. Bu həm uşaqların öz yaşıdlarından geri qalmamasına, həm də vaxtlarını daha səmərəli keçirmələrinə səbəb olur. Diaqnoz və vəziyyət nəzərə alınaraq dərslər məktəbdəkindən daha qısa olur.

### Xəstələr mütəmadi olaraq psixoloji dəstək görürlər

Talassemiya Mərkəzində iki psixoloq fəaliyyət göstərir. Xəstələr mütəmadi olaraq psixoloji dəstək görürlər. Beş ildir mərkəzdə çalışan psixoloq Günel Əliyevanın sözlərinə görə, yaşından asılı olmayaraq bütün talassemiyalı xəstələrə psixoloji dəstək göstərilir, onların hər birinə fərdi yanaşılır: "Psixoloji dəstək alanların arasında azyaşlılar üstünlük təşkil edirlər. Ağır, uzunmüddətli müalicələr, qanköçürmələr uşaqları yorur, əsəbi edir, davranışlarına mənfi təsir göstərir. Psixoloji dəstək zamanı bir kurs həftədə bir dəfə olmaqla 12 seans təşkil edir. Bölgələrdən gələn pasiyentlərə xidmət etmək çətinlik yaradır. Onları yalnız ayda bir dəfə, rutin müayinələrə gəldikdə qəbul edə bilirik. Lakin istədiyimiz nəticəni almaq üçün əlimizdən gələni edirik".

Talassemiyalı xəstə olan 17 yaşlı Ağaxan Abdullayev psixoloji dəstəkdən olduqca məmnun qaldığını, seanslardan sonra özünü çox yaxşı hiss etdiyini deyir. O, bəzən heç kimə deyə bilmədiyi sözləri psixoloqla bölüşdükdə özünü daha rahat, sakit hiss etdiyini qeyd edir. Hər iki valideyni daşıyıcı olan və diaqnozu 1 yaşında qoyulan gənc peşə məktəbində oxuyur. O bildirir ki, böyüdükcə orqanizmi daha çox qan tələb etdiyi üçün hazırda ona ayda bir dəfə olmaqla 4-5 gün qan köçürülür.

Mərkəzdə rastlaşdığımız Ülkər Abiyevanın iki övladı var. Ülkərin özü və yoldaşı daçıyıcı olduqları üçün 14 yaşlı oğlu talassemiya xəstəsi, 5 yaşlı qızı isə sağlamdır. 9 ildir mütəmadi olaraq ayda 2 dəfə mərkəzə qan köçürülməsi üçün gəldiklərini deyən ana oğlunun da yaşıdları kimi sağlam olması üçün ümidinin sümük iliyi bankının yaradılması olduğunu bildirir.

66 yaşlı talassemiya xəstəsi Rasim Süleymanov isə son 15 ildir bunun üzə çıxdığını bildirir. Transfuziya üçün ayda iki dəfə gəlməli olduğu halda Qax rayonunda yaşadığı üçün Bakıya yalnız ayda bir dəfə gələn Rasim kişi xəstəliyinin ağır əməliyyat və stresdən sonra ortaya çıxdığını deyir. Ailəsində heç kim talassemiya xəstəsi olmasa da, böyük oğlu daşıyıcıdır. O bildirir ki, qan aldıqdan 20-25 gün sonra halsız olur, sümük ağrıları başlayır. Mərkəzin bütün əməkdaşlarına təşəkkür edən Rasim kişi deyir ki, burada işləmək çox çətindir: "Çünki bütün xəstələrin canı ağrıyır, sinirləri zəif, kaprizləri isə çoxdur. Mərkəzdəki tibb işçiləri isə səbirlə onların qayğısına qalırlar. Ən böyük minnətdarlığımız isə talassemiyalı xəstələri belə bir mərkəzlə, müayinə və müalicə ilə təmin edən birinci xanım Mehriban Əliyevayadır".

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



# Sadiqlik, xeyirxahlıq və nəciblik nümunəsi

**Şəhərlər də insanlar kimidir.**
**Öz talelərini yaşayırlar…**
**Sevilirlər… Əzizlənirlər… Xoşbəxt olurlar…**
**Şuşa kimi…**
**Şuşa Vətən sevgimizin zirvəsi, Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzidir. Tarixi, mədəni abidələrimizin saxlanc yeri, ecazkar təbiəti, saf suları, göylərə ucalan şiş qayaları ilə yolçunu yoldan edir gözəl Şuşa.**
**Biz Şuşaya çatanda aramsız qar yağırdı. Təbiət dağların yamaclarında lövbər salmış evlərin damlarını ağ çətiri altına almışdı. İndi təmir edilib bərpa olunmuş binalarla erməni vandallarının 30 illik işğalı dövründə Şuşada zərər vurduqları, dağıtdıqları binaları ayırd etmək olmur. Sanki təbiət ermənilərin insanlığa yaraşmayan hərəkətlərindən utanıb, onların törətdikləri vandalizmin izlərini gizlətməyə çalışırdı...**




# Tarixin yadigarı Şuşa şanlı görkəminə qayıdır

## Şəhərdə mədəni irsimizin qorunmasında Heydər Əliyev Fondunun böyük xidmətləri var

Azərbaycanın tarixi-mədəni irsinin böyük bir hissəsi Qarabağın payına düşür. 30 illik işğal dövründə Şuşada və ətraf rayonlarda olan yüzlərlə maddi-mədəni abidələrimiz erməni vandalizminə məruz qalıb, müqəddəs and yerlərimiz, inanc ünvanlarımız düşmən tərəfindən təhqir olunub. Qəsbkarlar yüz illərin tarixinə şahidlik edən dini ocaqlarımızın, məscidlərimizin başına min bir oyun açsalar da, onların milli və dini identikliklərini silə bilməyiblər. Tarixin yaddaşına öz möhürünü vuran həmin abidələr bizim mənəvi dəyərlər sistemimizin ayrılmaz parçası olaraq tanınırlar.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və şanlı ordumuzun müstəsna qəhrəmanlığı nəticəsində Şuşa əbədi olaraq işğaldan azad edilib. İllərlə düşmən tapdağı altında qalan, dağıdılan, məhv edilən, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesi gedir.

İndiyə kimi yüzlərlə abidəyə nəfəs verən Heydər Əliyev Fondu Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Qarabağdakı dini abidələrimizin, məscidlərimizin yenidən bərpa olunmasına başlayıb. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın konservasiyası və yenidən qurulması həyata keçirilir.

Xatırladaq ki, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva torpaqlarımız işğaldan azad ediləndən az sonra rəsmi "İnstaqram" səhifəsində paylaşım etmişdi. Paylaşımda deyilirdi: "Əziz həmvətənlər! Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcək. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanmışdır. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaq!".

İşğaldan azad olunduqdan sonra Şuşada görülən abadlıq, quruculuq işlərinin kataloquna baxanda təəccüblənməmək olmur. Aşağı Gövhər ağa məscidi, Şirin su hamamı, İsa bulağı, "Yasəmən" hoteli, Saatlı məscidi, Bayraq meydanı, Mehmandarovların malikanə kompleksi, Üzeyir bəy Hacıbəylinin ev-muzeyi, Dövlət xidmətləri mərkəzi, Şuşa sutəmizləyici qurğular kompleksi, 23 binadan ibarət yaşayış kompleksi, Mamayı məscidi, daha nələr, nələr…

XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər ağa məscidi İbrahim xanın qızı Gövhər ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Aşağı Gövhər ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir. Şuşa şəhəri tarixən yuxarı və aşağı hissədən ibarət olmaqla 17 məhəlləni əhatə edir. Aşağı Gövhər ağa məscidi şəhərin aşağı hissəsində yerləşdiyinə görə belə adlandırılıb. Məscidi daha uca və cəlbedici etmək üçün memar minarələri arxa fasadda yerləşdirib. İkimərtəbəli məscidin silindrşəkilli minarələri kərpicdən hörülüb, ibadət zalı çatma tağ günbəzlə örtülüb. Şuşanın işğalı zamanı məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmişdir. 2021-ci ilin dekabr ayından məsciddə Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə bərpa işlərinə başlanılmışdı. Layihənin icrasına Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislər cəlb olunmuşdu. Şuşada Heydər Əliyev Fondu tərəfindən ən geniş bərpa işlərindən biri Aşağı Gövhər ağa məscidində aparılıb. İlkin memarlıq üslubunun qorunması ilə həyata keçirilən bərpa işləri məscidlə yanaşı, ərazidəki mədrəsə binasını da əhatə edib. Məscidin daxilində qazıntı işləri, qruntun çıxarılması və çınqıl qatının hazırlanması işləri aparılıb. Bundan əlavə, damdakı günbəzlərin üst səthinin xüsusi qatqılı suvaqla suvanması işləri də görülüb. Xarici mütəxəssislərin iştirakı ilə qübbələrin daxili səthində tarixi naxış hissələri mikroinyeksiya üsulu ilə bərkidilib. Mədrəsə bölməsində sonradan əlavə edilmiş divarlar aradan qaldırılıb, əsas divarların inyeksiya ilə doldurulması işləri aparılıb.

Bərpa işləri zamanı Aşağı Gövhər ağa məscidində erməni vandalizminə dair bir sıra faktlar aşkarlanıb. Belə ki, məscid divarlarında müxtəlif yazılar, müdaxilələr, o cümlədən divara həkk olunmuş xaç işarəsi müəyyən edilib. İşğal dövründə erməni vandalizminə məruz qalmış mədrəsə binasının dağıntılarının bir qismi də konservasiya olunub.



Məscidə gələn hər bir ziyarətçi tarixi-dini abidəyə qarşı erməni vandalizminə dair bu faktların şahidi ola bilər.

Qeyd edək ki, məscid ərazisindəki tarixi mədrəsə binasında hazırda muzey yaradılıb. "Qarabağ və Şərqi Zəngəzur Muzeyi: İşğaldan əvvəl və sonra. Dirçəliş" mövzusundakı ekspozisiyada Qarabağın və Şərqi Zəngəzurun işğaldan əvvəlki dövrü, işğal illərində ermənilər tərəfindən dağıdılmış dini abidələr, tarix və mədəniyyət abidələri, ekosid barədə məlumatlar, o cümlədən hazırda Qarabağın və Şərqi Zəngəzurun dirçəlişinə dair məlumatlar, foto və videomateriallar yer alıb.

Muzeydə dünyada tolerant ölkə kimi tanınan Azərbaycanda tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunmasına, dini abidələrin bərpası və mühafizəsinə daim diqqət yetirilməsinə dair məlumatlar əks olunub.

Muzeyin "İşğal dövründə dağıdılmış tarix və mədəniyyət abidələri" bölməsində isə işğal dövründə vandalizmə məruz qalmış tarix və mədəniyyət abidələrini əks etdirən foto və videomateriallar təqdim edilir.

"İşğal dövründə ekosid" bölməsində ziyarətçilərə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, 30 ilədək davam edən işğalın insan hüquqlarının və çoxsaylı beynəlxalq hüquq normalarının pozulması, sosial-iqtisadi fəsadlar və mədəni irsə vurulan ziyanla yanaşı, misli görünməmiş ekoloji terror, təbii sərvətlərin genişmiqyaslı və uzunmüddətli talanı ilə nəticələnməsinə dair faktlar diqqətə çatdırılır.

"30 illik həsrətin sonu" bölməsində müzəffər Azərbaycan Ordusunun 44 günlük müharibədə qazandığı şanlı Zəfər, 30 ilə yaxın doğma yurdlarına qayıtmaq arzusu ilə yaşayan insanların Vətən həsrətinə son qoyulmasına dair məlumatlar, fotolar və videomateriallar yer alıb.

"Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi" bölməsində Qarabağda və Şərqi Zəngəzurda bu gün canlanan həyata dair materiallar əksini tapıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq tədbirləri istər Qarabağın və Şərqi Zəngəzurun dirçəlişinə, istərsə də Azərbaycan xalqının milli yaddaşının bərpasına, zəngin tarixi ənənələrin və milli-mənəvi dəyərlərin dünyaya təqdim olunmasına yönəlib. Muzeydə məhz bu dirçəlişi əks etdirən fotolar və videomateriallar da nümayiş olunur. Burada Qarabağa və Şərqi Zəngəzura dair müxtəlif nəşrlərlə tanış olmaq mümkündür. Muzeydə "Şuşada dörd fəsil" beynəlxalq fotolayihəsi çərçivəsində Qarabağın incisi olan Şuşanın mənzərələrini əks etdirən əsərlər də təqdim olunur.

Şuşada yenidən həyata qaytarılan tarixi abidələr siyahısında görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir bəy Hacıbəylinin ev-muzeyi də var. Üzeyir bəyin evi XIX əsrdə inşa olunub. 1959-cu ildə bina ev-muzeyi kimi fəaliyyətə başlayıb, Şuşa şəhəri işğal edilən tarixədək fəaliyyət göstərib. Muzeydə Hacıbəylilər ailəsinə məxsus ev əşyaları, həmçinin bəstəkarın şəxsi əşyaları, fotomateriallar, kitablar - ümumilikdə 1700 eksponat qorunub saxlanılırdı. Şuşa şəhəri ermənilər tərəfindən işğal edildikdən sonra eksponatlar talanmış, bina isə dağıdılmışdı. Muzeyin mövcud 1700 eksponatından yalnız 136-sını qorumaq mümkün olmuşdu.

Üzeyir bəy Hacıbəylinin ev-muzeyində Heydər Əliyev Fondu tərəfindən 2022-ci ilin aprel ayında başlanan bərpa işləri 2024-cü ilin sentyabrında başa çatıb. Dövlət başçısı İlham Əliyev həmin il sentyabrın 19-da Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak edib. Təmir və bərpa zamanı bünövrələrin möhkəmləndirilməsi, döşəmənin, fasadların və dam örtüyünün bərpası, daxili və xarici bəzək işləri, qapıların, pəncərələrin, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılması, həmçinin həyətyanı sahənin yaşıllaşdırılması həyata keçirilib. Ərazidə mövcud divar daşlarının sökülərək ölçülərinə görə inventarlaşdırılması, dağılmış hissələrdə bünövrələrin qazılması və sahənin ümumi təmizlənməsi işləri aparılıb. Həmçinin material analizi üzrə nümunələr götürülərək Türkiyədəki laboratoriyada tədqiq edilib, konservasiya və restavrasiya hesabatları yerinə yetirilib. Ev-muzeyinin daxilində divarlar və arakəsmələr hörülüb, döşəmənin bərpası və yenidən qurulması işləri görülüb. Həyətin daş divarının bərpası üzrə bünövrənin qazılıb betonlanması, tarixi görkəminə uyğun hörgüsü və dekorativ elementlərin qoyulması işləri həyata keçirilib. Muzey binasında aparılan bərpa işlərinin yekununda yeni ekspozisiya yaradılıb.

Mədəniyyət ocağının birinci mərtəbəsində Üzeyir bəyin ailəsi, uşaqlıq illəri, təhsili haqqında sənədlər, məlumat və digər müxtəlif eksponatlar yer alıb. Bu mərtəbədəki ikinci otaqda Ü.Hacıbəylinin Qori Müəllimlər Seminariyasında təhsili, pedaqoji fəaliyyəti, müəllifi olduğu əsərləri və məqalələri nümayiş olunur. Burada divarboyu "Sənsiz" romansından notların əks olunduğu fraqment də yer alıb.

İkinci mərtəbədə bəstəkarın tamaşaya qoyulan əsərlərinin ilk premyeralarının afişa və proqramları, eləcə də səfərlərini əks etdirən fotoşəkillər nümayiş olunur. Divarboyu "Koroğlu" operasından notların əks olunduğu fraqment yer alıb.

Ev-muzeyində Üzeyir bəy Hacıbəylinin səhnələşdirilən əsərlərindəki obrazlar üçün çəkilən eskizlər, əsərlərinin proqram və afişalarının kollajından ibarət divar da dizayn edilib. Həmin bölmədə bəstəkarın həyatı, fəaliyyəti, onun əsərləri əsasında lentə alınan filmlərdən kadrlar nümayiş olunur.

Heydər Əliyev Fondunun "PAŞA Holdinq"in dəstəyi ilə Şuşada bərpa etdiyi dini abidələrdən biri də Mamayi məscididir. Məsciddə bərpa işlərinə 2023-cü ildə başlanılıb. 2024-cü il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştrakı ilə bərpadan sonra açılışı olub.

Mamayı məscidi şəhərin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında tikilib. Düzbucaqlı plan quruluşu olan ikimərtəbəli məscidin sütunlu interyeri var. Məhəllə məscidləri kimi Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılıb. Mamayı məscidi sovet hakimiyyəti illərində poeziya evi kimi də fəaliyyət göstərib. Şəhərin digər məhəllələri kimi burada da məscid, bulaq, kiçik meydan və hamam olub. İşğal dövründə məscid və onun yanında yerləşən bulaq yararsız hala salınıb. Ermənilər bir çox abidə kimi, ərazidəki Mamayı bulağını da erməniləşdirmək istəyiblər. Saxtakarlar bulağın üzərindəki yazıları silib, yerinə xaç işarəsi həkk ediblər.



Bununla da kifayətlənməyərək, daşlarının üzərinə erməni və rus dilində yazılmış lövhə də həkk etmişdilər. Aparılan bərpa işləri nəticəsində erməni vandalizminin bütün izləri aradan qaldırılıb.

Mamayı məscidində mehrab sərt ağac materialından istifadə olunub. Bərpa zamanı bütün işlər tarixi görkəmi nəzərə alınmaqla aparılıb. Məscidin pəncərələri əzəli görünüşünə uyğun bərpa edilib, qarşı tərəfdə yararsız halda olan döşəmə yenidən qurulub.

Şuşada ilk bərpaolunan abidələrdən biri də dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Xatırladaq ki, 1982-ci il yanvarın 14-də Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olmuşdu. Məhz bu səfər çərçivəsində Ümummilli Lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş vermiş və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirilmişdi.

Muzey-məqbərə kompleksi Cıdır düzünə yaxın bir ərazidə dahi şairin məzarı üstündə inşa edilib. Dördkünc quruluşa malik və mərmərlə bəzədilən türbənin inşası məsələsi həll edilərkən ətrafdakı dağ mənzərəsi və şəhərsalma xüsusiyyəti nəzərə alınmış, Azərbaycanın qülləvari türbələrinin kompozisiya quruluşundan istifadə edilmişdir. Məqbərənin inşasında xalq memarlığının yerli ənənələrinə, monumental-dekorativ və tətbiqi plastika vasitələrinə yer verilmişdir. Türbənin daxilində Molla Pənah Vaqifin heykəltaraş Albert Mustafayev tərəfindən hazırlanan büstü qoyulmuşdu.

1992-ci ildə Şuşa şəhərinin Ermənistan tərəfindən işğalı nəticəsində kompleksin binası və burada sərgilənən bütün eksponatlar məhv edilmişdi. Müzəffər Azərbaycan Ordusunun şanlı Zəfərindən sonra, 39 il əvvəl məqbərənin açıldığı gündə - yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı məqbərəni ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə start verilmişdi.

Məqbərədə təmir-bərpa və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. 2021-ci ilin mart ayından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırılıb və bu çərçivədə işçi layihələr hazırlanıb. İşçi layihələr əsasında xarici mütəxəssislər tərəfindən təyin edilən xüsusi kimyəvi materiallarla elementlərin konstruktiv bərpa işləri yerinə yetirilib, korroziyaya qarşı əlavə tədbirlər görülüb. Həmçinin abidənin dam örtüyü yenidən qurulub. Topoqrafiya işləri nəticəsində əldə edilən məlumatlar üzrə, o cümlədən ərazidə axtarış işləri keçirməklə qırılmış, dağılmış üzlük hissələrin əldə edilməsi ilə birlikdə abidənin ilkin ölçülərinin bərpası məqsədilə memarlıq işçi layihələri hazırlanıb. Bu layihələr əsasında isə fasadın və daxili hissələrin divar səthləri mərmərlə üzlənib və abidənin əvvəlki görkəmi bərpa edilib.

Şuşada Heydər Əliyev Fondu tərəfindən Saatlı məscidi, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa edilib və 2023-cü ilin may ayında istifadəyə verilib.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***











# Sadiqlik, xeyirxahlıq və nəciblik nümunəsi



# Əzəmətli quruculuq işləri

## Prezident İlham Əliyevin qətiyyəti ilə Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəlir

Azərbaycanın əsas milli prioritetlərindən biri işğaldan azad edilmiş ərazilərimizin bərpasıdır. Ötən müddətdə Qarabağ və Şərqi Zəngəzurun dəyişən mənzərəsi bu vəzifənin sürətlə və yüksək keyfiyyətlə həyata keçirilməsindən xəbər verir. Artıq bu ərazilərdə həyat yenidən qaynayır, keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıtmağın sevincini yaşayırlar.

### Ağdam tezliklə modern şəhərə çevriləcək

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu günlərdə işğaldan azad edilmiş bölgələrə səfərləri göstərdi ki, bu ərazilərin bərpası yüksək dinamizmlə davam edir, Böyük qayıdış proqramı üzrə qarşıya qoyulmş bütün vəzifələrin və layihələrin yerinə yetirilməsi təmin olunur.

Dövlət başçısı Qarabağa növbəti səfərinə Ağdam şəhərindən başladı. "Hilton Garden İnn" hotelində, Muğam Mərkəzində, 1268 mənzilli 2-ci yaşayış kompleksində, 1 nömrəli körpələr evi-uşaq bağçasında, 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri və "Ağdam Residence" yaşayış kompleksində yaradılan şəraitlə tanışlıq bir daha göstərdi ki, Ağdam şəhərinin bərpası sürətlə davam edir. Həm də bu əzəmətli bərpa prosesi ən müasir şəhərsalma standartları çərçivəsində həyata keçirilir ki, bu da Ağdamın yaxın gələcəkdə ən gözəl və modern şəhərlərdən biri olacağından xəbər verir.

Bir məsələni də xüsusi vurğulamalıyıq ki, artıq 2021-ci ildən Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri həm də quruculuq layihələrinin başa çatdırılması, açılış mərasimlərinin həyata keçirilməsi ilə yadda qalır. Onun Ağdama səfəri də bu baxımdan əlamətdar oldu. Fevralın 18-də açılışı olan "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksi son illərdə bu rayonda inşası başa çatdırılan növbəti infrastruktur layihəsidir. Regional Rəqəmsal İdarəetmə Mərkəzi Ağdam şəhərinin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək.

Təlim-Tədris Kompleksində isə yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışları təşkil ediləcək. Burada beynəlxalq tədbirlərin keçirilməsi üçün bütün zəruri şərait yaradılıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin ötənilki səfərləri zamanı Ağdam şəhərində "Aghdam City Hotel"inin, Ağdam Sənaye Parkında yeni zavodların və bərpadan sonra İmarət Kompleksinin açılışı olub.

### Xankəndi əzəli Azərbaycan şəhəri kimi simasını özünə qaytarır

Bu gün Qarabağda quruculuğun əsas ünvanlarından biri də Xankəndi şəhəridir. Uzun illər erməni məkrinin yuvası olan, separatçıların meydan suladıqları bu qədim yurdumuz indi əzəli Azərbaycan şəhəri kimi bərpa olunur. Şəhərdə aparılan quruculuq işləri çərçivəsində erməni separatizminin izləri də aradan qaldırılır, ermənilər tərəfindən xarici görünüşləri dəyişdirilən binaların əzəli siması özünə qaytarılır. Eləcə də yararsız vəziyyətə düşmüş binalar sökülür və onların yerinə yeniləri inşa olunur.

Xankəndidə Qarabağ Universiteti yaradılıb və fəaliyyətə başlayıb. Şəhərdə "Qarabağ" hoteli, "Palace" hotel, 1 nömrəli körpələr evi-uşaq bağçası, Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəb istifadəyə verilib, Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabriki məhsul istehsalını artırıb. Hazırda çoxsaylı infrastruktur layihələrinin icrası davam edir.

Prezident İlham Əliyevin Xankəndiyə növbəti səfəri də şəhər üçün mühüm hadisələrlə əlamətdar oldu. Dövlət başçısının iştirakı ilə fevralın 19-da Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışı oldu, Zəfər parkının təməli qoyuldu. Dövlət başçısı həmçinin Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış oldu. Xatırladaq ki, Xankəndi tikiş fabrikinin açılışı ötən ilin noyabrında Bakıda keçirilən COP29 tədbiri zamanı Azərbaycan və Özbəkistan prezidentləri tərəfindən videobağlantı vasitəsilə həyata keçirilmişdi. Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan bu fabrik iki ölkə arasında ənənəvi dostluq, qardaşlıq, iqtisadi tərəfdaşlıq əlaqələrini möhkəmləndirir, Qarabağda yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır.

### Turizmin inkişafı da diqqət mərkəzindədir

Qarabağ və Şərqi Zəngəzurun olduqca böyük turizm potensialı var. Bu ərazilərdə hər bir şəhər və kənd turizmin inkişaf etdirilməsi baxımından çox əlverişlidir. Təsadüfi deyil ki, hələ sovet hakimiyyəti illərində bu füsunkar diyara keçmiş ittifaqın hər yerindən qonaqlar gəlirdi. Ona görə işğaldan azad edilmiş ərazilər bərpa olunarkən həm də onların turizm imkanları nəzərə alınır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda qarşıya qoyulmuş hədəflərdən biri Qarabağ və Şərqi Zəngəzurun turizm sektorunun inkişaf etdirilməsidir. Bu məqsədlə bu ərazilərdə turizmin müxtəlif növlərinin inkişafı dövlət tərəfindən dəstəklənir, bu istiqamətdə ayrı-ayrı layihələr həyata keçirilir. Bərpa və quruculuq prosesində hotellərin inşası məhz bu məqsədə xidmət edir.

Hazırda işğaldan azad edilmiş bütün şəhərlərdə nəhəng və əzəmətli kompleks quruculuq işləri həyata keçirilir. Şuşa, Füzuli, Laçın, Xocalı və Cəbrayıl şəhərlərinin, Zəngilanın Ağalı, Laçının Zabux və Sus, Tərtərin Talış sakinləri artıq öz doğma evlərinə qayıdıblar və bu proses davam edir. Xocalının Ballıca kəndi isə bərpa olunmuş və keçmiş köçkünlərin qayıtdığı 10-cu yaşayış məntəqəsidir. Ümumilikdə isə 11 min nəfərdən artıq keçmiş məcburi köçkün doğma yuruna qayıdıb. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri tamamlandıqca doğma yurda qayıdanların sayı da artır.

Bu il daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin qaytarılması planlaşdırılır. İşğaldan azad edilmiş ərazilərin bərpası 2025-ci ildə də yüksək templə davam etdiriləcək. Bunu dövlət büdcəsindən bu məqsəd üçün nəzərdə tutulmuş xərclərin miqyası da təsdiq edir. Ümumilikdə isə işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq və bərpa işləri olduqca əhatəlidir. Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura hər səfəri bunu təsdiq edir. Dövlətimizin başçısının əzmi ilə bu ərazilər sürətlə dirçəlir, hər bir şəhər və kənddə yeni həyat başlayır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Mədəni irsimizin keşiyində

**"Mədəni irsimiz bizim milli sərvətimizdir və biz onu qoruyub gələcək nəsillərə çatdırmalıyıq". Bu sözləri çıxışlarının birində Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyeva deyib. Mehriban xanım Əliyevanın özü bu sahədə əvəzsiz xidmətlər göstərir. Onun rəhbərliyi ilə həyata keçirilən layihələr nəticəsində ölkəmizin mədəni irsi dünyada daha geniş tanınır və layiqincə qorunur.**

Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin əsl carçısı, milli irsimizin qoruyucusu və təbliğatçısı kimi misilsiz xidmətlər göstərən dövlət xadimidir. Onun mədəniyyət sahəsində həyata keçirdiyi genişmiqyaslı layihələr, tarixi abidələrimizin bərpası, muğam sənətinin, aşıq yaradıcılığının və digər milli-mənəvi dəyərlərimizin beynəlxalq səviyyədə tanıdılması ölkəmizin mədəni irsinin qorunmasına mühüm töhfələr vermişdir. Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərimizi yalnız yaşatmaqla kifayətlənmir, eyni zamanda onları müasir dünyaya inteqrasiya etdirən uzaqgörən siyasət yürüdür. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycan mədəniyyəti dünya mədəniyyət ailəsinin ayrılmaz hissəsinə çevrilmişdir. Onun rəhbərliyi altında gerçəkləşən beynəlxalq layihələr sayəsində muğam sənətimiz UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş, Şəki şəhəri dünya irsi siyahısında yer almış, eləcə də ölkəmizin xalçaçılıq və digər ənənəvi sənət sahələri qlobal miqyasda tanıdılmışdır. Mehriban xanım Əliyevanın fəaliyyəti həm də mədəni irsimizin gələcək nəsillərə ötürülməsinə xidmət edir. Onun təşəbbüsü ilə yaradılan mədəniyyət və incəsənət mərkəzləri, bərpa edilən tarixi-memarlıq abidələri, təşkil olunan beynəlxalq festivallar və sərgilər Azərbaycan mədəniyyətinin yaşaması və inkişaf etməsi üçün mühüm zəmin yaradır. Bu uzaqgörən fəaliyyət nəticəsində xalqımızın əsrlər boyu yaratdığı mədəni sərvətlər həm ölkə daxilində, həm də beynəlxalq arenada layiqli şəkildə tanıdılır və qorunur. Mehriban xanım Əliyeva, sözün əsl mənasında, Azərbaycan mədəniyyətinin qoruyucusu və təbliğatçısı kimi mühüm missiyanı uğurla yerinə yetirir.

Mehriban xanım Əliyevanın bu sahədəki misilsiz fəaliyyəti Azərbaycan qadınının müdrikliyinin, vətənpərvərliyinin və milli dəyərlərə sədaqətinin parlaq nümunəsidir. O öz fədakar əməyi və uzaqgörən siyasəti ilə Azərbaycan mədəniyyətinin qorunmasına və beynəlxalq səviyyədə tanınmasına böyük töhfələr vermişdir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı layihələr sayəsində milli-mənəvi irsimiz təkcə ölkə daxilində deyil, dünya miqyasında da təbliğ olunur, qlobal mədəni irsin bir hissəsi kimi qorunur və yaşadılır. Təsadüfi deyil ki, onun yorulmaz səyləri nəticəsində Azərbaycan mədəni irsinin dünyada tanıdılması istiqamətində indiyə qədər misilsiz işlər görülmüşdür. Xalqımızın ən qədim sənət növlərindən biri olan xalçaçılıq sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilərək beynəlxalq miqyasda tanınıb və qorunmağa başlanıb. Bununla yanaşı muğam sənəti, aşıq yaradıcılığı, Novruz bayramı və digər milli-mənəvi dəyərlərimiz də Mehriban xanım Əliyevanın təşəbbüsləri sayəsində beynəlxalq səviyyədə layiqincə təqdim olunmuşdur. Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə təbliği ilə yanaşı, onun gənc nəsillərə ötürülməsi və inkişaf etdirilməsi üçün də mühüm addımlar atır. Onun təşəbbüsü ilə keçirilən müxtəlif festivallar, sərgilər, elmi konfranslar və mədəniyyət tədbirləri ölkəmizin zəngin irsini dünyaya tanıtmaqla yanaşı, gələcək nəsillərin də bu dəyərlərə sahib çıxmasına imkan yaradır. Onun mədəni irsimizin qorunması sahəsindəki fəaliyyəti Azərbaycan xalqının öz tarixi köklərinə bağlılığını daha da gücləndirir və bu dəyərlərin daim yaşamasına xidmət edir.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan mədəni irsinin qorunması və dünya səviyyəsində tanıdılması istiqamətində mühüm işlər görülmüşdür. Onun dəstəyi və rəhbərliyi ilə İçərişəhərin, Qız Qalasının və Şirvanşahlar Saray Kompleksinin bərpası və mühafizəsi üzrə genişmiqyaslı layihələr həyata keçirilmiş, bu tarixi məkanların dünya irsi siyahısında öz layiqli yerini tutması təmin olunmuşdur. Heydər Əliyev Fondunun xətti ilə Möminə Xatun Türbəsi, Şəki Xan Sarayı və digər memarlıq incilərinin bərpası və qorunması sahəsində də böyük işlər görülmüş, nəticədə bu abidələr öz tarixi görkəmini qorumaqla yanaşı, mədəniyyətimizin canlı simvollarına çevrilmişdir. Mehriban xanım Əliyevanın yorulmaz səyləri nəticəsində Azərbaycan muğamı, aşıq sənəti və digər milli-mədəni dəyərlərimiz dünyanın ən nüfuzlu səhnələrində və mədəni nəşrlərində tanıdılmış, təbliğ olunmuşdur. Onun təşəbbüsü ilə muğam sənətinin dirçəlməsi və inkişafı üçün fundamental addımlar atılmış, muğam mərkəzləri yaradılmış və beynəlxalq muğam festivalları təşkil olunmuşdur. Bu təşəbbüslər sayəsində Azərbaycan muğamı öz klassik ənənələrini qorumaqla yanaşı, müasir dövrdə də geniş dinləyici auditoriyasına sahib olmuş və yeni ifaçılar üçün platforma rolunu oynamışdır. Mehriban xanım Əliyevanın mədəni irsimizin qorunması sahəsində apardığı fəaliyyət təkcə musiqi və memarlıq abidələri ilə məhdudlaşmır. Onun rəhbərliyi altında Novruz bayramı, xalça toxuculuğu, kəlağayı sənəti kimi milli dəyərlərimiz beynəlxalq səviyyədə tanıdılmış və UNESCO-nun reprezentativ siyahısına daxil edilmişdir. Bu nailiyyətlər Azərbaycan mədəniyyətinin dünya miqyasında tanıdılması və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm addımlar hesab olunur. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən bu işlər xalqımızın zəngin mədəni irsinin qorunmasına və onun bəşəriyyətin ortaq dəyərləri sırasında yer almasına mühüm töhfələr vermişdir.

Mehriban xanım Əliyevanın himayəsi altında Azərbaycan mədəni irsinin zənginləşdirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər nəticəsində bir çox sahələrdə konkret nailiyyətlər əldə olunub. Milli mədəni dəyərlərimizin beynəlxalq səviyyədə tanınması təmin edilib. UNESCO-nun Qeyrimaddi Mədəni İrs Siyahısına 15-dən çox milli mədəni nümunəmiz daxil edilib. Tarixi abidələrimizin bərpası və konservasiyası üzrə genişmiqyaslı layihələr reallaşdırılıb. Qədim tarixi məkanlarımızın müasir muzey komplekslərinə çevrilməsi təmin edilib. Muğam sənətinin inkişafı və təbliği üçün beynəlxalq muğam mərkəzləri yaradılıb. Milli xalçaçılıq sənətinin dirçəldilməsi üçün xüsusi məktəblər və emalatxanalar açılıb. Milli mətbəx nümunələrimizin beynəlxalq səviyyədə təbliği üçün kulinariya festivalları təşkil edilib. Ənənəvi sənətkarlıq növlərinin yaşadılması üçün xüsusi proqramlar həyata keçirilib. Gənc nəslin milli-mənəvi dəyərlərə bağlılığının artırılması üçün maarifləndirici layihələr reallaşdırılıb. Mədəni irsimizin qorunması və təbliği sahəsində beynəlxalq əməkdaşlıq əlaqələri genişləndirilib. Azərbaycan mədəniyyətinin dünya miqyasında tanıdılması üçün sistemli fəaliyyət həyata keçirilib. İşğaldan azad edilmiş ərazilərimizdə mədəni-tarixi abidələrimizin bərpasına başlanılıb. Milli bayram və mərasimlərimizin beynəlxalq səviyyədə qeyd edilməsi ənənəsi formalaşdırılıb. Azərbaycan mədəniyyətinin virtual platformalarda təbliği üçün innovativ layihələr işlənib hazırlanıb. Mədəni irsin qorunması sahəsində yeni qanunvericilik təşəbbüsləri irəli sürülüb.

Görülən işlər və həyata keçirilən genişmiqyaslı tədbirlər və strateji layihələr nəticəsində Azərbaycan mədəniyyəti dünya mədəni xəzinəsinin ayrılmaz tərkib hissəsinə çevrilmiş, beynəlxalq mədəni dialoqun fəal iştirakçısı statusunu qazanmışdır. Ölkəmiz təkcə öz milli-mədəni dəyərlərini qorumaqla kifayətlənmir, həm də bu dəyərləri dünya mədəni irsi kontekstində təqdim edərək qlobal mədəni müxtəlifliyə töhfə verir. Azərbaycanın zəngin irsi təkcə region səviyyəsində deyil, beynəlxalq miqyasda da yüksək dəyərləndirilir və ölkəmiz mədəniyyət beşiyi kimi tanınır. Bütün bu nailiyyətlər sübut edir ki, Azərbaycan təkcə tarixi keçmişi ilə deyil, həm də bu gün mədəniyyətin inkişafında oynadığı mühüm rol ilə dünya mədəniyyət ailəsinin vacib üzvüdür. Milli irsimizin qorunması və gələcək nəsillərə ötürülməsi yalnız dövlət siyasətinin deyil, hər bir azərbaycanlının milli borcudur. Hər bir vətəndaş öz tarixi-mədəni dəyərlərinə sahib çıxmalı, bu irsin yaşadılması və inkişafı üçün çalışmalıdır. Azərbaycan torpağı, özünün qədim tarixi, zəngin mədəniyyəti və bənzərsiz irsi ilə daim dünyanın diqqət mərkəzində olacaqdır. Bu irsin yaşaması, gələcək nəsillərə ötürülməsi və onun daha da zənginləşdirilməsi üçün hər birimiz üzərimizə düşən məsuliyyəti dərk etməli və milli-mədəni irsimizi qorumaq üçün çalışmalıyıq. Azərbaycanın mədəni irsi, xalqımızın tarixi yaddaşı və bəşəriyyətə töhfəsi kimi əsrlər boyu yaşamağa və dünyanı heyrətləndirməyə davam edəcəkdir.

*Nüşabə SEYİD,*
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin şöbə müdiri, pedaqogika üzrə fəlsəfə doktoru*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən şəxslərin məhkəməsi davam etdirilir

Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesi fevralın 20-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər - Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmə iclasında təqsirləndirilən şəxslər və onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, habelə dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev təqsirləndirilən şəxslərin hər birinə onlara qarşı irəli sürülmüş hər bir ittihamın mahiyyətini, onlara istinad olunan əməllərin hüquqi tövsifini, həmin əməllərə görə cinayət qanunu ilə nəzərdə tutulan cəzanı və təqsirləndirilən şəxslərin malik olduqları hüquqları izah edib, habelə özlərini tam və ya qismən təqsirli, yaxud təqsirsiz bilib-bilmələrinə dair suallar ünvanlayıb. Məhkəmə iclasının əvvəlində təqsirləndirilən şəxs Arayik Harutyunyanın vəkili məhkəməyə müraciət edərək hüquqlarını müdafiə etdiyi şəxslə konfidensial görüş keçirmək istədiyini bildirib. Məhkəmə vəsatəti təmin edərək konfidensial görüş üçün şərait yaradıb.

Təqsirləndirilən şəxslərin heç biri onlara elan olunmuş ittihamlar üzrə özlərini təqsirli bilmədiklərini qeyd edib.

Təqsirləndirilən şəxslərdən Arayik Harutyunyan bir qədər geniş danışaraq baş vermiş cinayət hadisələri ilə bağlı təəssüf hissi keçirdiyini bildirib. O deyib: "Mən prokurorluq tərəfindən təqdim edilmiş ittihamlarla tanış olmuşam. Son 34 il ərzində Qarabağda hansı proseslərin baş verməsindən xəbərdaram. Təəssüf edirəm. Münaqişə Sovet İttifaqının xüsusi xidmət orqanları tərəfindən təhrik edilib. Ona görə də biz özümüzü qurban hesab edirik".

Daha sonra baş prokurorun böyük köməkçisi Vüsal Əliyev məhkəmə istintaqında sübutların tədqiq edilmə ardıcıllığına dair ittiham tərəfinin təklifini səsləndirib.

Digər proses iştirakçıları, o cümlədən təqsirləndirilən şəxslər və onların müdafiəçiləri ittiham tərəfinin təklifini dəstəkləyiblər.

Məhkəmə iclasına sədrlik edən hakim Zeynal Ağayev cinayət prosesinin tərəflərinə məhkəmə istintaqında sübutların tədqiq edilmə qaydasını izah edib.

Bundan sonra təqsirləndirilən şəxslərə məhkəmə tərəfindən müəyyən edilmiş ardıcıllıqla sərbəst ifadə vermək təklif olunub. Təqsirləndirilən şəxslər və onların müdafiəçiləri məhkəməyə müraciət edərək ifadə vermək üçün hazırlaşmaq və onlara təqdim olunmuş cinayət işi materiallarını yenidən nəzərdən keçirmək üçün əlavə vaxt istəyiblər.

Məhkəmə onların xahişini təmin edərək iclası təxirə salıb. Məhkəmənin növbəti iclası fevralın 24-nə təyin olunub. Növbəti məhkəmə iclası təqsirləndirilən şəxs Arkadi Qukasyanın sərbəst ifadəsi ilə başlayacaq.

Qeyd edək ki, Ermənistan dövlətinin onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## Məhkəmə həqiqətləri üzə çıxarır

### Ermənistan hərbi arsenalını Rusiyanın əvəzsiz olaraq verdiyi silahlar hesabına gücləndirib

Azərbaycan xalqına qarşı hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin Vətən müharibəsidən sonra saxlanılaraq məhkəməyə veriliblər.

Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərləri barəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlərlə bağlı haqlarında cinayət işi açılıb.

Məhkəmə prosesinin növbəti iclasında Ermənistanın, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş ayrı-ayrı cinayət faktlarına dair epizodlar, habelə Azərbaycan Respublikasının hərbi arsenalına və mülki infrastrukturuna vurulmuş maddi ziyanın məbləği elan edilib.

İclasda, həmçinin Ermənistanın hərbi cinayətlər törətməsinə şərait yaradan hərbi silah-sursatların bu ölkəyə daşınmasına dair məlumatlar da açıqlanıb. Qeyd olunub ki, 2001-ci ilin əvvəllərindən 2021-ci il mayın sonlarınadək müxtəlif iriçaplı silahlar, raket kompleksləri, döyüş sursatı, partlayıcı maddələr, qumbaraatanlar qanunsuz əldə edilərək Rusiya Federasiyasından gizli üsullarla Ermənistana, oradan isə əvvəllər işğal altında olmuş Azərbaycan ərazisində qanunsuz olaraq qurulmuş mühəndis-istehkam mövqelərinə yerləşdirməklə ölkəmizə qarşı təcavüzkar müharibədə istifadə edilib.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, çoxsaylı cinayətlərdə, o cümlədən, sülh və insanlıq əleyhinə, eləcə də müharibə cinayətlərində təqsirləndirilən erməniəsilli şəxslərin Bakıda baş tutan məhkəməsində 2001-ci ildən etibarən Rusiyadan Ermənistana müxtəlif adlı və tipli silahların daşınmasına dair ifadələrin verilməsi, əslində, 30 ildən artıq bir müddətə regionda üzərinə vasitəçilik missiyası götürmüş Rusiyanı münaqişə dövründə dolayısı ilə tərəf kimi çıxış etdiyini bir daha ortaya qoyur.



Xüsusən Rusiyanın aşkar marionetləri olan Köçəryan və Sarkisyanın dövründə bu ölkənin Ermənistana hərbi-siyasi dəstəyi pik həddinə çatmış, Ermənistan özünün hərbi arsenalını məhz ilk növbədə Rusiyanın əvəzsiz olaraq verdiyi silahlar hesabına gücləndirmişdi. "Təbii ki, biz Azərbaycan ərazilərinin 30 illik işğal və təcavüzə məruz qalmasında birbaşa Rusiyanı günahlandırmırıq, lakin o da faktdır ki, beynəlxalq hüquq normalarında əskini tapan prinsiplərin və BMT Nizamnaməsində müəyyən edilmiş şərtlərin əleyhinə mövcud olmuş status-kvoda şimal qonşumuz özünə məxsus paya malik olub. Xatırlayırsınızsa, müsahibələrində möhtərəm Prezidentimiz dəfələrlə bəyan edib ki, Azərbaycan və Ermənistan arasında mövcud olmuş münaqişənin nizamlanması üzrə vasitəçilərin hər biri bu və ya digər formada davamlı şəkildə Ermənistanı dəstəkləyib. Çox təəssüflər olsun ki, şimal qonşumuz vasitəçi qismində bu məsələdə fəallıq göstərmiş, hətta Vətən müharibəsindən sonrakı dövrdə belə Azərbaycanın yeni yaratdığı reallıqları separtçılara birbaşa sülhməramlılar vasitəsi ilə, yaxud dolayısı yolla, o cümlədən, hümanitar dəstək adı altında dəyişməyə çalışmışdır. Bu gün Azərbaycanda ədalət mühakiməsi qarşısına çıxarılan erməni milyarder Ruben Vardanyan da məhz bu məqsədlə o zaman hələ separtçıların və paralel olaraq Rusiya sülhməramlılarının nəzarətində olan Qarabağa məhz bu məqsədlə göndərilmiş, lakin Azərbaycan rəhbərliyinin qətiyyəti ilə və Vətən müharibəsində yaranmış hərbi-siyasi reallıqlarla Bakı bu cəhdləri neytrallaşdıra və vəziyyəti lehinə dəyişdirə, Ruben Vardanyan başda olmaqla bu və ya digər formada Rusiyanın və digər ayrı-ayrı güclərin dəstəyi ilə Azərbaycanın suverenliyinə təhdid yaradan şəxsləri zərərsizləşdirə, onların bir qismini ədalət məhkəməsi qarşısına çıxara, əleyhimizə olan status-kvonu lehimizə işləyən reallığa çevirə bilib. Bütün bunların fonunda biz ümumbəşəri dəyərlərə sadiq qalaraq dünya xalqları ilə olduğu kimi Rusiya ilə də xüsusən ötən bir neçə yüzilliyə əsaslanan dərin mədəni, humanitar, siyasi, iqtisadi əlaqələrimizə istinad edərək mehriban və dinc münasibətlərə, əməkdaşlığa, o cümlədən, beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərə əsaslanan tərəfdaşlıq qurmağa çalışmışıq", - deyə deputat əlavə edib.

B.Məhərrəmov bildirib ki, Rusiyadan zaman-zaman ayrı-ayrı dairələrdən Azərbaycan əleyhinə səslənən çoxsaylı qarayaxma və çirkab kampaniyası, habelə aidiyyəti dövlət qurumlarının Azərbaycan əleyhinə bəyanatları fonunda belə Azərbaycan hər zaman problemlərin dialoq vasitəsi ilə həllinə, şimal qonşumuzla münasibətlərin zədələnməməsinə çalışıb. Lakin görünən odur ki, Rusiya siyasi dairələri imperiya təxəyyülündən qurtula bilmir və hər hansı prosesdə yalnız ittihamçı mövqeyində qalacağını düşünürlər. Rusiya ərazisində Azərbaycan hava yollarına məxsus təyyarənin vurulması fonunda da eyni proseslərin təkrarlandığına şahidlik etdik və təyyarə qəzası xəbəri yayılandan dərhal sonra bu ölkənin mediası məsələnin mahiyyətini təhrif edən müxtəlif xəbərlər yayaraq qeyri-vicdani davranış nümayiş etdirmək üslubunu seçdilər: "Prosesin ardınca isə Rusiya Dövlət Dumasının deputatlarından tutmuş, dövlətin nəzarətində olan media qurumlarına və qeyri-hökumət təşkilatlarına qədər Azərbaycan dövlətinə və rəsmilərinə çoxsaylı hücum, təhqir və böhtan ritorikasına şahidlik etdik. Bu, o deməkdir ki, ərazi və əhali sayının verdiyi üstünlüyü şimal qonşumuz böyük dövlət anlayışına transformasiya edə bilməyib. Daha dəqiq desək, Rusiya ən azı Azərbaycan hava yollarına məxsus təyyarənin vurulması fonunda özünü böyük dövlət kimi apara bilmədi. Bu günlərdə isə ədalət mühakiməsi həyata keçirilən separatçıların Rusiyanın separatizmə verdiyi dəstək, eləcə də Ermənistana ötürdüyü silahlar barədə mühüm faktlar açıqlaması Rusiyada bir çox dairələrin hələ də imperiya məfkurəsini heç bir siyasi, hüquqi və sosial zəmini olmadan yaşatdığını göstərməkdədir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Paşinyanın konstitusiyaya dəyişiklik etmək istəyi həqiqətdirmi

### Yoxsa bu onun vaxt qazanmaq üçün məkrli oyunudur

Beş ilə yaxındır ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində danışıqlar gedir. Azərbaycan qalib ölkə kimi prosesə sadiqliyini dəfələrlə təsdiqləsə də, Hayastan məğlub ölkə olmasına baxmayaraq, bu müddət ərzində dondan-dona girməklə sülh sazişini imzlamaqdan yayınır. Hətta müqavilənin imzalanmamasında Azərbaycanı günahkar çıxarmağa da can atır. Bununla da rəsmi İrəvan beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışır.

Fakt budur ki, sülhü istəyən Azərbaycandır. Torpaqları işğal altında olarkən də Azərbaycan keçmiş münaqişənin sülh yolu ilə həllini istəyirdi. Bu gün də Azərbaycan öz humanizm prinsiplərinə sadiq qalaraq savaş istəmir.

Əgər Azərbaycan sülh tərəfdarı olmasaydı, onun şərtlərini hazırlayıb Ermənistana təqdim etməzdi. Azərbaycan savaş istəsəydi, işğaldan azad etdiyi əraziləri yenidən qurub yurdundan-yuvasından didərgin düşən vətəndaşlarını atəş altına göndərməzdi.

Sülh müqaviləsinin imzalanması isə yalnız bir şərt əsasında reallaşa bilər. Bunu qalib komandan kimi Azərbaycan Prezidenti birdəfəlik bəyan edib. Ermənistanın konstitusiyasında dəyişiklik edilməlidir. Prezident qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları var: "Məhz onların konstitusiyasında sonradan daxil olan müstəqillik bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları var. Məhz onların ideologiyasında, siyasətində və ictimai diskursunda Türkiyəyə qarşı ərazi iddiaları davamlı olaraq eşidilir. Azərbaycanlılar və türklər məhz onların cəmiyyətində kiçik yaşlarından düşmən obrazında təqdim edilirlər. Millətçilər və hərbi cinayətkarlar tərəfindən zəhərlənən onların cəmiyyətidir. Ona görə də onlar bu məsələlərlə məşğul olmalıdırlar. Təbii ki, Ermənistanın hazırkı konstitusiyası dəyişməz qaldığı halda Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanması, sadəcə, mümkün deyil. Biz bu sualı qaldıranda mən dedim və yenə də demək istəyirəm, ona görə yox ki, biz onların daxili işlərinə qarışırıq, qətiyyən yox,



amma bu, bizə aiddir. Onların bizə qarşı ərazi iddiaları olduğu bir vaxtda biz Ermənistanla sülh sazişi bağlaya bilmərik".

Ermənistan rəhbərliyi və erməni xalqı da yaxşı bilir ki, İlham Əliyev sözünün sahibidir. Sözü imzası qədər keçərli olan lider dediyini qısa zamanda gerçəkləşdirir. Bu səbəbdən də ölkənin baş naziri N.Paşinyan fevralın 19-da xalqa müraciətində Azərbaycanın tələblərinin yerinə yetirilməsinin vacibliyini etiraf edib.

Paşinyan deyib ki, yeni konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi zəruridir. Amma o, referendumun keçiriləcəyi vaxtı açıqlamayıb.

Keçmiş hərbi xunta və bəzi müxalifət partiyaları Paşinyanı Azərbaycanın müstəqillik bəyannaməsinə istinadın əsas qanunun mətnindən çıxarılması ilə bağlı növbəti tələbini qəbul etməkdə ittiham etməyə başlayıblar. Ölkənin bəzi ekspertləri isə hesab edirlər ki, Paşinyan Ermənistanın regionda geostrateji mövqeyini düzəltmək və çökmüş iqtisadiyyatını dirçəltmək üçün çalışır.

Bəzi ekspertlər isə hesab edirər ki, Paşinyan yenə də məkrli oyun oynayır. Xalqa müraciətində referendumun keçirilməsinin vacibliyini söyləsə də, xarici havadarlarından aldığı silah-sursat, hərbi arsenalın gücləndirilməsi, dövlət büdcəsində hərbi xərclərin artırılması, heç də uyğunluq təşkil etmir. Çox güman ki baş nazir yenə də vaxt udmaq üçün bu fikirləri söyləyib. Yəni Ermənistan sülhə yox, savaşa hazırlaşır.

Amma Azərbaycan yenə də ümid edir ki, sülh danışıqlarının başlanmasına dair ölkəmizin təşəbbüsü sülh sazişinin imzalanması ilə nəticələnəcək. Bu isə təkcə Cənubi Qafqaz deyil, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaq. Bu, 30 il ərzində münaqişədə olmuş iki ölkənin birgə çalışaraq sülhə nail olmasının nümunəsi kimi tarixə düşə bilər.

Baxmayaraq ki, işğaldan əziyyət çəkən və ərazisinin təqribən 20 faizi tamamilə dağıdılan Azərbaycandır, yenə də İlham Əliyev Hayastana barış əlini uzadır. Bu ölkəninin əhalisinin düşdüyü acınacaqlı vəziyyətdən qurtarmaq, İrəvanın da bölgədə reallaşan qlobal miqyaslı layihələrə qoşulması üçün Azərbaycan Prezidenti humanist siyasətini bir daha nümayiş etdirir. Lakin əvəzində Ermənistan Hindistan, Fransa tərəfindən silahlanır, hərbi texnikalarının sayını artırmaqla bir növ təxribatlara hazırlaşdığını göstərir. Əgər rəsmi İrəvan İlham Əliyevin sülh gündəliyindəki şərtlərə əməl edərək Azərbaycanla sülh əldə etmək istəyirsə, reallıqlarla barışmalı, kimlərinsə diktəsi ilə hərəkət etməməli, konstitusiyasında dəyişiklik tələbini yerinə yetirməlidir. Əks təqdirdə sülh olmayacaq!

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



Vətən deyəndə...



# Cəsur tankçı və kəşfiyyatçı

## Birinci Qarabağ müharibəsi şəhidi Baloğlan Süleymanovun qəhrəmanlıq gündəliyi



**Zaman 1992-ci il avqustun 22-si, məkan Zəngilan rayonunun Rəzdərə kəndi idi...**
**Həmin gün səhərdən kəndi bürümüş ölüm sükutunu küçələrdə oynayan uşaqların səs-küyü arabir dəlib keçmiş, Rəzdərənin ötən qayğısız günlərini xatırlatmış, kədər, təlaş, təhlükə hissi içərisində olan sakinlərin ani də olsa üzlərinə təbəssüm qondurmuşdu...**
**Lakin qarşı tərəfdəki yüksəkliklərdən kəndə dolu kimi qəfil yağan top, tank mərmiləri bu kövrək təbəssümü də onların əlindən birdəfəlik alıb aparmışdı...**
**Süleymanovlar ailəsinin ürəyinə çəkilən bala dağının yanğısı isə onilliklər boyu davam edərək, bu günün özünə qədər də səngimək bilməmişdi...**
**O məşum tarixdə tankdan açılan mərminin qurbanına çevrilən 9 yaşlı övladının cansız bədəni qarşısında diz çöküb hönkürən Baloğlan adlı gənc ata "ölsəm də, qoymaram Sadiq uyuyan torpağa düşmənin murdar ayağı dəysin" - deyə qisas andı içmişdi...**
**Bu, o Baloğlan Süleymanov idi ki, Birinci Qarabağ müharibəsində tank və kəşfiyyat komandiri kimi erməni faşistlərinə qan uddurmuş, oğlunun qisasını almışdı. Son nəfəsinə qədər torpaqlarımızı qəhrəmanlıqla müdafiə edən Baloğlan Süleymanov elə canından çox sevdiyi Vətənin qoynunda da şəhadət zirvəsinə ucalmışdı...**

### 9 yaşlı şəhid oğlunun qisasını aldı, amma...

Müstəqilliyini yenicə qazanmış Azərbaycanın ən ağrılı-acılı dövründə - işğalla üzləşdiyi, Milli Ordusunun hələ tam formalaşmadığı, daxili parçalanma ilə qarşı-qarşıya olduğu Birinci Qarabağ müharibəsi zamanı minlərlə azərbaycanlı vətənpərvər oğul və qızlarımız kimi ilk gündən savaşa atılan Baloğlan Süleymanov hələ 1980-ci illərin sonlarından, Xankəndidə hadisələrin qızışdığı zamandan torpaqlarımızın müdafiəsinə qalxmışdı: "Baloğlan çox vətənpərvər idi. Eşidəndə ki, Milli Ordu yaranır, dərhal müraciət edib onun sıralarına yazıldı. Elə olurdu günlərlə evə gəlmirdi, çox nigaran qalırdıq, sonra öyrənirdik ki, demə, kəşfiyyata gedib. Ermənilərə o qədər zərbə vururdu ki, hətta o zaman Baloğlanın başına pul da qoymuşdular. Sadiq şəhid olan gündən isə Baloğlan həm də oğlunun qisasını almaq üçün yaşayırdı. O, dediyini etdi, Sadiqin qisasını aldı da... amma özü də bu uğurda gənc yaşında qəhrəmancasına şəhid oldu..."



Birqərinəlik zamanın o üzündə baş verən hadisələri indiki kimi xatırlayan və o ağrı-acıları yenidən yaşayan şəhid anası, şəhid həyat yoldaşı Adikə Süleymanova ilə "Vətən oldu oğullar!" rubrikasında cəsur tankçı və kəşfiyyatçı Baloğlan Süleymanovun başdan-başa igidliklə dolu döyüş gündəliyinə nəzər saldıq. Vətənpərvər Azərbaycan oğlunun illər sonra belə unudulmayan şücaətlərindən danışdıq, qəhrəman şəhidimizi minnətdarlıqla bir daha andıq.

1960-cı il avqustun 5-də Zəngilan rayonunun Keçikli kəndində anadan olan Baloğlan Süleymanov 1975-ci ildə səkkizillik məktəbi bitirib, sənədlərini rayondakı 144 nömrəli texniki peşə məktəbinə verib. Traktorçu-maşinist diplomunu aldıqdan sonra "1 May" kolxozunda traktorçu-mühəndis, rayon rabitə qovşağında mexanik işləyib.

Baloğlan Sülyemanov 1991-ci ildə könüllü olaraq Milli Orduya yazılıb. Zəngilan rayon ərazi özünümüdafiə taborunun - 806 saylı hərbi hissəndə əvvəlcə tank komandiri, sonra isə kəşfiyyat qrupunun bölük komandiri vəzifəsini icra edib.

1993-cü il oktyabrın 25-də Cəbrayıl rayonunun Dərzili kəndində qəhrəmancasına şəhid olub. Tərtər rayonunun Köçərli kəndində dəfn olunub.

Prezident Heydər Əliyevin 16 sentyabr 1994-cü il tarixli fərmanı ilə Azərbaycan Respublikasının torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində göstərdiyi xüsusi xidmətlərə, şəxsi igidlik və şücaətlərə görə baş gizir Baloğlan Süleyman oğlu Süleymanov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

### Alovlar içində

1979-cu ilin qızmar bir yay günündə Tərtər rayonundan Zəngilanın Rəzdərə kəndinə gəlin köçən Adikə ilə Baloğlan Süleymanovlara üç gün çal-çağırlı toy edilir. Həyat yolunda qoşa addımlamağa başlayan gənclərin Cəsarət, Sadiq və Aidə adlı üç övladları olur. Baloğlan atasıgillə bir neçə il yaşadıqdan sonra kəndin təzə məhəlləsində özünə hər cür şəraiti olan ev tikərək ailəsini ora köçürüb, övladlarını böyütməyə başlayır... Qarşıda onları bir-birindən müdhiş hadisələrin gözlədiyindən xəbərsiz...

Adikə Süleymanova deyir:

- 1988-ci il fevralın 13-də Xankəndi-Qafan avtobusu ilə Baloğlanla birlikdə Yevlaxa qohum yasına gedirdik, amma avtobusda bizdən başqa heç kimin olmadığını görüb çox təəccübləndik. Cəbrayıldan kəsə yolla keçib Xocavəndə gəldik və buranın avtovağzalında da xeyli kişinin bir yerə yığışıb nə isə qızğın müzakirələr etdiyini gördük. Yenə də heç nə başa düşmədik. Ağdamın Muradbəyli kəndindəki dayanacaqda düşüb piyada Ağdam Avtovağzalına getdik. Ağdam Rayon İcra Hakimiyyətinin qarşısında xeyli uşaq, qadın, yaşlı olduğunu gördük. Fevral ayı olsa da, onların hamısı nazik paltarda, başıaçıq, ayaqyalın idilər. Yaxınlaşıb soruşduqda dedilər ki, gecə Xankəndidə ermənilər aptekin müdiri Həsən adlı kişinin başını kəsiblər, oradakı universitetin direktorunu öldürüblər. Buna görə də kişilər özləri Xankəndidə qalıb, uşaqları, qadınları, qocaları çıxarıb Ağdama yollayıblar. Yollar bağlandığı üçün yalnız bir gündən sonra birtəhər kəndə qayıda bildik. Baloğlan şahidi olduqlarımızı kənd camaatına danışsa da, əvvəlcə heç kim buna inanmaq istəmədi... Ancaq o dayanmadı, kənddə qardaşlarını və dost-tanışı başına yığıb, - ermənilərin yaxın kəndlərindən meşəiçi bizə yollar gəlirdi, - həmin yollarda post qurdu, gecədən səhərə qədər növbə çəkməyə başladılar. Silahsız da olsalar, bir müddət kəndə nəzarət etdilər. Hadisələr isə səngimək əvəzinə getdikcə alovlanırdı...

Milli Ordu yaradılanda Baloğlan onun sıralarına yazıldı. Sovet ordusunun Zəngilanda olan hərbi hissəsində qəsdən yararsız hala salınmış zirehli texnikaların hamısını Baloğlan bir-bir düzəldib işlək vəziyyətə gətirdi. O, traktorçu olduğu üçün bacarırdı.

Baloğlan həm də kəşfiyyata gedirdi. Artıq ermənilər də onun kimliyini bilirdi deyə başına pul da qoymuşdular.

### Ailə tablolarına qan çiləndi

Adikə xanım danışır ki, görünür, elə o vaxt ermənilərə Baloğlan Süleymanovun yaşadığı küçəni, evi nişan verdikləri üçün, 1992-ci il avqustun 22-də düşmən əsasən kəndin bu hissəsini bombardman etmişdi.

- Həmin gün Rəzdərə ilə üzbəüz olan erməni kəndləri tərəfindən bizi top, tank atəşinə tutdular. Elə bil göydən mərmi yağışı yağırdı. Hərə bir yana qaçıb gizlənməyə çalışırdı. Həmin vaxt Sadiq küçədə əmisi uşaqları ilə oynayırdı, üzüyuxarı qaçanda tankdan açılan mərmi üstünə düşür... Nə yaşamışdı bu dünyada balam, cəmi 9 yaşı vardı... Onun param-parça olmuş meyitini görəndə dünya başıma fırlandı, az qaldım havalanam...

Həmin gün yuxarı mövqelərdə postda olduğu üçün Sadiqin şəhidliyindən atasının xəbəri yox idi. O zaman camaat dedi ki, gəlin uşağı dəfn edək, amma qoymadım, dedim "Baloğlan gəlib görsün sonra". Qonşu uşaqlar gedib başqa bir bəhanə ilə onu evə gətirmişdilər. Atası gəlib qapımıza yığılan adamları, cənazəni görəndə tək bircə kəlmə soruşdu ki, "tez deyin, bu kimin cənazəsidir?" "Sadiq" cavabını alanda əli ilə ürəyini tutdu, dedi ki, daha heç kim mənə heç nə deməsin... Ata-anası nə qədər yalvardı ki, heç olmazsa dəfnə qədər gözlə, o qulaq asmadı, başını götürüb harasa getdi...




Bir də axşam saatlarında qardaşı Elman, dostu və özünün tabeliyindəki iki əsgəri ilə kəndə gəlib silahlanıb yenidən getdilər və düz üç gün biz onlardan xəbər ala bilmədik.

Bütün rayon ayağa qalxmışdı ki, Baloğlangil yoxa çıxdılar, bəlkə başlarına bir iş gəlib? Qaynatam Süleyman o vaxt qurban demişdi ki, nəvəm Sadiqi şəhid vermişəm, iki oğlumun da şəhid olmasına dözə bilmərəm...

Demə hələ Sadiqin dəfnini gözləmədən ilk dəfə getdiklərində Baloğlangil ermənilərin yaşadığı Hənd qəsəbəsinə hücuma keçiblərmiş. Tankla bu qəsəbəni bir müddət atəşə tutandan sonra geri qayıdıblar. Baloğlan deyib ki, Sadiqin qisasını almasam, onun qəbrinin üstünə getməyəcəm. Buna görə yenidən silahlanıb ermənilərdən intiqam almağa yollanırlar.

Onlar avqustun 22-dən 23-nə keçən gecədən səhərə kimi Sadiqi öldürən tankı axtarıblar, amma tapmayıblar. "Qızlar ağacı" adlanan yüksəklikdə özlərinə mövqe seçərək gözləməyə başlayıblar, səhər saat 6-da görüblər ki, içərisində 4 erməni hərbçisi olan bir "Niva" onlara tərəf gəlir. Qranatatanla "Niva"nı vurub, onların hamısını öldürüblər. Sonra isə Kollu kəndi ilə üzbəüz yerləşən erməni postunun arxasına keçiblər. Onlar burada 25 erməni öldürüblər və bundan sonra kəndə qayıdıblar.

Baloğlan yalnız bundan sonra onlarla birlikdə Sadiqin qəbrinin üstünə getmişdi...

Kollu kəndi ilə üzbəüz yerləşən erməni postunu məhv edəndən sonra Baloğlanı kəşfiyyat bölüyünün komandiri təyin etmişdilər. Qaynım Elman da həmin vaxt kəşfiyyat bölüyündə xidmət edirdi. Bölükdə hamısını bir-bir Baloğlanın seçib götürdüyü 100-ə yaxın əsgər var idi. 1993-cü ilin aprel ayında həmin bölüklə Şıxavız kəndini mühasirəyə alırlar və burada Sadiqi vuran tankın ekipajını öldürürlər, tankın özünü isə ələ keçirirlər. Sonra isə yaxınlıqdakı Kilsə kəndinin üzərinə hücuma keçirlər. Baloğlangil həmin gün ermənilərin yaşadığı bir qəsəbəni və 2 kəndi ələ keçirmişdilər. Qənimət olaraq 1 tank, 1 BMP, 2 iriçaplı top və 100-ə yaxın silah-sursat götürmüşdülər.

Sonradan həmin tankın üzərinə "Sadiq" yazmışdılar.

### Ayrılığın sonu yoxmuş

Bizimlə söhbətində o qan-qadalı günləri yaddaşında bir-bir çözələyən şəhid xanımı sonrakı hadisələrə ağlaya-ağlaya belə işıq tutdu:

- Sadiqin ilinə hazırlaşırdım. İl mərasimindən bir gün əvvəl o zaman 14 yaşı olan oğlum Cəsarəti kəndin digər tərəfində yaşayan qohumlardan birini mənə kömək üçün çağırmağa göndərdim. Cəsarət ora gedəndə atışmaya düşüb sağ ayağından yaralanmışdı. Kənd camaatı mənə bildirmədən onu təcili maşınla rayon xəstəxanasına çatdırırlar. Bir müddət sonra uşaqdan nigaran qalıb küçəyə çıxanda qaynım Elmanın gəldiyini gördüm. O dedi ki, qorxma, Cəsarətə heç nə olmayıb, yüngül yaralanıb, hazırlaş xəstəxanaya gedək. Bunu eşidəndə sanki qədəmlərim qırıldı...

Təsəvvür edin ki, palatanın qapısından vəziyyətimi görən Cəsarət özü o halda ola-ola başını qaldırıb məni sakitləşdirməyə çalışdı, dedi ki, ana, heç nəyim yoxdur, narahat olma...

3-4 gün xəstəxanada qaldıqdan sonra evə gəldik. Həmin günlərdə Baloğlan evə gəlmirdi, tutduqları mövqelərdə olurdu. Bir dəfə o gələndə dedim ki, daha burda qalmaq bizim üçün təhlükəlidir, Aidə balacadır, Cəsarət də yaralıdır, bir şey olsa, biz kənddən çıxa bilməyəcəyik. Baloğlan da gördü ki, həqiqətən, pis vəziyyətdəyik, Cəsarətə görə həkimdən kağız aldı və bizi postdan buraxdılar, gəldik Tərtərə. Baloğlan bizi atamgildə qoyub özü döyüşlərə qayıtdı. Bu dövrdə o, sadəcə bir dəfə Müdafiə Nazirliyinə hansısa iş dalınca getmişdi və qayıdanda gəlib bizimlə də görüşdü. Bu, bizim Baloğlanla son görüşümüz oldu... O, bir daha qayıtmadı...

1993-cü il oktyabrın 30-u idi. Bir də gördüm Cəsarətlə Aidə sevincək həyətə qaçdılar ki, atamız gəldi... Tez mən də onların arxasınca çıxdım. Gördüm ki, küçədə bir avtobus dayanıb, qaynatam, qaynanam və qaynım da onun içərisindədir, amma elə bir haldadırlar ki... Onlar Baloğlanın meyitini gətirmişdilər...



### Son döyüş

- Sonradan qaynım Elmandan öyrəndim ki, ermənilər Horadiz yolunu bağladıqları üçün Zəngilan mühasirədə qalır və Baloğlan öz bölüyü ilə Cəbrayıl rayonunun ərazisinə keçib, ermənilərin Zəngilana girməsinin qarşısını almağa çalışır. O, öz əsgərləri ilə birlikdə 1993-cü il oktyabrın 24-dən 25-nə keçən gecə səhər saat 5-ə kimi ermənilərə müvaqimət göstərir. Amma əsgərlərin çoxu şəhid olduğu üçün Baloğlan bir neçə nəfərlə Araz sahilinə çəkilmək istəyir. Bu zaman ermənilər Baloğlanı və sağ qalan bir neçə əsgəri elə səngərdəcə vururlar.



Həmin vaxt qaynım qərargah rəisinin köməkçisi işlədiyi üçün bu döyüşdən bir az gec xəbər tutur. Əvvəlcə Elmana Baloğlanın öz bölüyü ilə birlikdə İrana keçdiyini söyləyirlər, amma o, bu sözlərə inanmır. Çünki Baloğlan ölərdi, ermənilərin qabağından qaçmazdı. O, həmişə əsgərlərinə deyərmiş ki, bir gülləni mütləq özünüz üçün saxlayın, düşmən əlinə keçməyəsiniz. Odur ki, o, düşmən qabağından heç zaman qaçmazdı... Bundan sonra qardaşı Baloğlanın axtarışına çıxır. O, iki-üç gün Baloğlanı axtarsa da, tapa bilmir. Avqustun 28-də mülki paltar geyinib, İrana gedir. Araz çayının qırağı ilə təxminən 30 kilometr irəliləyəndən sonra Cəbrayıl rayonunun ərazisinə keçir. Cəbrayılın bir neçə kəndini keçib, saat 11 radələrində Baloğlangilin döyüşdüyü əraziyə çatır. Uzaqdan baxanda bir neçə meyit görür. Düşünür ki, yəqin Baloğlanın da cəsədi orada olar. Sürünə-sürünə meyitlərin 100 metrliyinə qədər gedib çatır. Buradan səngərdə vurulan qardaşının cəsədini aydın görür. Baxır ki, bir neçə erməni meyitlərin yanında dayanıb, söhbət edir. Qaynım üzünü göyə tutub deyir ki, ay Allah, ermənilərin gözünü bağla, qardaşımın meyitini götürüb aparım. Bu vaxt yolda onların olduğu istiqamətə bir maşın gəldiyini görürlər və ermənilərin hamısı həmin maşına tərəf irəliləyir. Getdikcə ətrafı duman bürüməsini fürsət bilən Elman Baloğlanın cəsədini cəld götürüb, həmin yerdən uzaqlaşır. Çətinliklə də olsa, 3 kilometr yol qət edib, Cəbrayılın Dərzili kəndinə çatır.

Elman danışır ki, "elə bil qardaşımın dirisini tapmışdım, yolboyu onunla söhbət edə-edə gəlirdim... Təsəvvür edin ki, cəmi 50-55 kiloluq bir gənc özündən iki dəfə ağır olan Baloğlanın meyitini 3 gün acsusuz daşıyıb gətirmişdi. O, Dərzili kəndində bir çalada Baloğlanın meyitini gizlədərək üstünü qurumuş otlarla örtür. Sonra özünü sərhəd bölüyümüzün əsgərlərinə yetirir. Komandirin ona qoşduğu əsgərlərlə birlikdə geri qayıdıb, Baloğlanın meyitini götürür. Əvvəlcə istəyir ki, qardaşının cəsədini aparıb Sadiqin yanında dəfn etsin, amma görür ki, bu mümkün deyil. Sonra o, Baloğlanın cəsədini Azərbaycana gətirir.

### Dərd yükü

- Sadiqin və Baloğlanın şəhid olmaları mənim də əllərimi bu dünyadan üzdü. Düz 10 il yataq xəstəsi oldum. Astma xəstəliyinə tutulmuşdum, ürəyim qidalanmadan dayanmışdı... Nə qədər müalicə olunsam da, faydası yox idi... Xəstəliyimin əsəblə bağlı olduğu bilinəndən sonra müalicə aldım. İndi nisbətən yaxşıyam...

Zəngilanın, torpaqlarımızın işğaldan azad edildiyini eşidəndə sevincimdən ağladım. Elə can atırdım ki, gedib Sadiqin məzarını ziyarət edim. Övladlarımla birlikdə Zəngilana yollandıq, amma Cəbrayılda Baloğlanın şəhid olduğu yerdən o yana getməyə taqətim olmadı. 30 illik ayrılıqdan sonra körpə balamla görüşməyə özümdə güc tapa bilmədim... Ürəyim qan ağlaya-ağlaya geri döndüm... Bilirsiniz, bu necə dözülməz əzabdır, ağrıacıdır... İndi hər gün Allaha yalvarıram ki, mənə bir az qüvvət versin, Sadiqin uyuduğu torpağa gedə bilim, heç olmazsa bircə dəfə məzarda da olsa, nakam balamın boyunu oxşayım... Atasının - Baloğlanın yerinə də...

Bu, bir şəhid anasının, şəhid xanımının sözlə ifadəsi çətin olan faciəvi taleyi idi. Zalım fələk gənc yaşında Adikə xanımın övladını, həyat yoldaşını əlindən alaraq ona bu həyatda yaşanacaq ən ağır zərbəni vurub. Bu dərd gənc yaşında onun belini büküb, saçlarını ağardıb, xəstəliyə salıb, ruhunu öldürüb...

Adikə xanımı bu dünyada yeganə yaşadan qüvvə övladları Cəcarətlə Aidənin varlığı, tək təsəllisi isə oğlu Sadiq və həyat yoldaşı Baloğlan Süleymanovun vətən uğrunda şəhid olmaları olub...

Birinci Qarabağ müharibəsində döyüşlərdə göstərdiyi saysız qəhrəmanlıqları ilə torpaqlarımızı cəsurluqla müdafiə edən Baloğlan Süleymanov kimi igidlərimizin sayəsində indi bu Vətən bütövdür. Elə bu uğurda qurban gedən bütün şəhidlərimizin, eləcə də 9 yaşlı Sadiq və atası cəsur tankçı və kəşfiyyatçı "Azərbaycan Bayrağı" ordenli Baloğlan Süleymanovun da ruhu şaddır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ombudsman Aparatının nümayəndələri hərbi hissədə olublar



Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında imzalanan 2025-ci ilin birgə tədbirlər planına əsasən, aparatın nümayəndələri hərbi hissələrdən birini ziyarət ediblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nümayəndələr hərbi hissədə şəxsi heyətin təminatı və məişət şəraiti ilə tanış olublar. Hərbi qulluqçularla görüşən qonaqlar tibb məntəqəsində müalicə alanların sağlamlıq durumları, o cümlədən onlara göstərilən tibbi xidmətlə maraqlanıblar.



Görüş zamanı hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi və digər mövzularda fikir mübadiləsi aparılıb, şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

Hərbi hissədə şəxsi heyət üçün yaradılan şərait, onların mənəvi-psixoloji vəziyyəti, eləcə də ideoloji işlə bağlı aparılan tədbirlər ümumilikdə müsbət qiymətləndirilib.

# Dəniz piyada bölmələri ilə təlim keçirilib



Hərbi Dəniz Qüvvələrinin (HDQ) Dəniz piyada bölmələri ilə təlim keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, plana əsasən icra olunacaq fəaliyyətlər dəqiqləşdirildikdən sonra bölmələr şərti düşmən pusqusuna qarşı fəaliyyəti yerinə yetiriblər.

Mobil qruplar əlverişsiz hava şəraitində, meşəlik və dağlıq ərazilərdə vaxt normativinə uyğun təyin olunan istiqamətdə irəliləyib və pusqunu dəf edib. Həmçinin yaralılara ilkin tibbi yardım və təxliyə tapşırıqları uğurla icra edilib.

Ordumuzun apardığı uğurlu döyüş əməliyyatlarında qazanılmış təcrübənin tətbiq edildiyi, eləcə də şəxsi heyətin dözümlülük və praktiki vərdişlərinin artırılması məqsədilə yerinə yetirilən təlimdə verilən tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib, qarşıya qoyulmuş məqsədlərə tam nail olunub.

# REGİONLAR

## Füzuli şəhərinin daxili yollarının tikintisi sürətlənir

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Füzuli şəhərinin daxili yollarının tikintisi layihəsi sürətlə və keyfiyyətlə icra olunur.**

Layihə üzrə I mərhələdə ümumilikdə 18,5 km uzunluğa malik 12 küçənin tikintisi aparılır. Salınan küçələr boyunca yararsız qrunt qazılaraq çıxarılır, əvəzində yararlı material ilə əks-dolğu işləri aparılaraq yeni torpaq yatağı inşa edilir. Ardınca hamarlaşdırıcı qatın, əsasın alt və üst qatının tikintisi yerinə yetirilir. Yol əsası hazır olan ərazilərdə asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur.

Paralel olaraq piyada səkilərinin kənarlarına səki daşları düzülür, səkilərə tamet daşları döşənir, işıq dirəkləri quraşdırılır. Bundan başqa, küçələr boyu yeni yaşıllıqlar salınır, kol və ağaclar əkilir.

Küçələr boyu Füzuli şəhərinin kommunikasiya xətlərinin (su, kanalizasiya, yağış suları boruları, qaz, rabitə və elektrik xətləri) tikintisi işləri də icra olunur. Tikinti işləri "İnşaat Norma və Qaydaları"na uyğun aparılır. Tərtib olunmuş qrafikə uyğun işlərin vaxtında yekunlaşdırılması üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilir.

Qeyd edək ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, Füzuli şəhərinin daxili yollarının tikintisi 1 mərhələ üzrə 30 faizi yerinə yetirilib.



## İmişlidə Aqrar Biznes Festivalı keçirilib

**2025-ci ilin ilk Aqrar Biznes Festivalı İmişli rayonunda keçirilib. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə keçirilən festivalda İmişli, Saatlı, Sabirabad, Beyləqan və Biləsuvar rayonlarından olan fermerlər iştirak ediblər.**

Festivalda müxtəlif kənd təsərrüfatı məhsulları, texnika və avadanlıqlar sərgilənib. Fermerlər toxum, gübrə və pestisidlər, müasir suvarma texnologiyaları və kənd təsərrüfatı texnikaları ilə tanış olub, onların tətbiqi barədə ətraflı məlumat əldə ediblər.

Festival çərçivəsində kənd təsərrüfatına dair müxtəlif xidmətlərin təklifi və məhsulların nümayişi ilə yanaşı, regionlarda sahibkarlığın inkişafına dəstək, eləcə də fermerlərin maliyyə savadlılığının artırılması, güzəştli kreditlərin verilməsi ilə bağlı məlumatlandırma məqsədilə kredit yarmarkası keçirilib. Yarmarkada iştirak edən 10-a yaxın bank və bank olmayan kredit təşkilatının mütəxəssisləri potensial müştərilərinə kreditlərin verilməsi ilə bağlı məsləhət və tövsiyələr verib.

Bandan başqa, tədbir çərçivəsində "Dövlətin maliyyə mexanizmləri" mövzusunda panel müzakirə keçirilib. Müzakirədə Aqrar Kredit və İnkişaf Agentliyi, Sahibkarlığın İnkişafı Fondu, Aqrar Sığorta Fondu, banklar və kredit təşkilatlarının nümayəndələri iştirak ediblər. Panel müzakirələr zamanı fermerlərə güzəştli kreditlər, kənd təsərrüfatına dövlət dəstəyi və digər maliyyə mexanizmləri barədə məlumat verilib, fermerlərin sualları cavablandırılıb, aqrar təyinatlı kredit almaq üçün müraciət edənlərə texniki dəstək göstərilib. Festival çərçivəsində fermerlər və sahibkarlarla bank və kredit təşkilatlarının nümayəndələri arasında görüşlər olub, potensial əməkdaşlıq imkanları müzakirə edilib.

Qeyd edək ki, cari ildən Aqrar Biznes Festivalları ölkənin aparıcı banklarının tərəfdaşlığı ilə təşkil olunur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Aydınlıqdan təmizliyə

### Salyan şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması gələn il yekunlaşacaq

**Prezident İlham Əliyevin 10 fevral 2022-ci il tarixli sərəncamı ilə ölkə üzrə bir neçə şəhərin, o cümlədən Salyanın su-kanalizasiya sisteminin yenidən qurulması davam edir. Bu, Muğan şəhəri olan Salyan üçün misli-bərabəri olmayan bir işdir.**









Yerli əhali illər, əsrlər boyu Kür çayının boz-bulanıq suyunu içirdi. Layihənin gerçəkləşməsi ilə əlaqədar indi Salyan şəhər əhalisi Hacıqabul rayonunun Talış kəndindəki sutəmizləyici qurğudan çəkilmiş xətlə gətirilən duruldulmuş içməli sudan istifadə edir. Özü də günün bütün saatlarında lazımi təzyiqlə. Hazırda isə Salyan şəhərində, habelə ona bitişik olan dəmiryolu stansiyası, plastik kütlə emalı zavodu, MTS, Gilan evləri massivi, süd zavodu adlanan yaşayış sahələrində, Kürqaraqaşlı və Arbatan kəndlərində kanalizasiya xətlərinin çəkilişi gedir.

Onu da qeyd edək ki, Salyan şəhərinin yalnız bir mərkəzi küçəsində keçən əsrin 60-cı illərində kanalizasiya çəkilişi aparılıb. Yayı həddən artıq isti keçən bu Muğan şəhərində yaranan problemi göz önünə gətirmək o qədər də çətin deyil. Buna görə şəhər əhalisi bu nəcib işi böyük sevinc, minnətdarlıq hissi ilə qarşılayır. Düzdür, aparılan qazıntılar zamanı, xüsusən indiki qış aylarında avtomobillərin, piyadaların hərəkəti, gediş-gəlişi üçün müəyyən çətinliklər yaranır, amma insanlar başa düşürlər ki, bu, müvəqqəti haldır. Qazılan ərazilər üzü yaya doğru asfaltlanacaq, əvvəlki səliqə-sahman bərpa ediləcək. Kanalizasiya çəkilişi gedişinin ağır iş olmaqla bərabər, həm də çox vəsait tələb etdiyini sakinlər yaxşı bilirlər. İnşaatçılar da öz növbəsində nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə çalışırlar. Yeri gəlmişkən, bildirək ki, layihənin sifarişçisi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, icraçısı (baş podratçı) "NORTH WEST Construktor" şirkətidir.

Tikintinin rəhbəri Seymur Umarovun dediyindən məlum oldu ki, layihə üzrə kanalizasiya xəttinin uzunluğu 92 min 616 metrdir. İndiyədək onun 36 min 515 metri tikilib. Kanalizasiya xətləri xüsusi texnologiya - mikro tunel və açıq qazma üsulu ilə aparılır. Xüsusi texnologiya ilə icra olunan iş ardıcıllıqla icra edilir - əvvəlcə hər 50 metrdən bir diametri 3,6 və 4,6 metr olan keton tipli şaxtalar qazılır. Tökmə dəmir-beton yolu ilə tikilən bu şaxtaların hər birinin dərinliyi 9 metrdən 5,8 metrə qədərdir. 50 metrdən bir qazılan bu şaxtaların arası Almaniya istehsalı olan BORTECH və Belarusun MEMPEX markalı xüsusi texnologiyalarla yerinə yetirilir. Özü də küçənin asfalt qatına zərər vurmadan yeraltı yolla. Həmin tikinti avadanlıqları vasitəsilə qazılan tunellərin torpağı qırağa daşınır, yerinə mərhələli şəkildə və həmin diametrdə bir-birinə keçirilən beton borular qoyulur. Həmin beton borular vasitəsilə çirkli suları şəhərin 9 ərazisində tikiləcək nasos stansiyalar Kürqaraqaşlı kəndindəki təmizləyici qurğuya ötürəcək. Söz düşmüşkən qeyd edək ki, layihənin ikinci mərhələsində həmin qurğu yeni texnologiyalarla tikiləcək. Burada təmizlənən çirkli sular təmizlənmə mərhələsindən sonra əkinlərin suvarılması üçün yararlı olacaq.

Tikintidə hazırda 100 nəfərdən çox işçi çalışır. Onların istifadəsində müxtəlif markalı 46 maşın və mexanizm var. Layihənin nəzərdə tutulmuş müddətdə - 2026-cı ildə istifadəyə verilməsi nəzərdə tutulur. Və həmin günü salyanlılar səbirsizliklə gözləyirlər. Uşaqların sağlamlığı keşiyində duran həkim Sabir Kərimov bu barədə ürək sözlərini belə ifadə etdi:

- Hər bir şəhərin su-kanalizasiya sisteminin olması əhalinin sağlamlığında mühüm rol oynayır. Dövlət başçısının bununla əlaqədar imzaladığı sərəncamlar bu baxımdan böyük əhəmiyyət kəsb edir. Bir neçə ildir fasiləsiz olaraq günün bütün saatlarında duruldulmuş içməli sudan istifadə edirik. İndi isə Salyan şəhərinin bütün küçələrinə kanalizasiya xətti çəkilir. İndidən sonra çirkli sular hər kəsin küçədə tikdiyi yeraltı quyuya yox, kanalizasiya xəttinə axıdılacaq. Bu, insanların antisanitariyadan, xoşagəlməz qoxulardan, digər fəsadlardan qorunması deməkdir. Bir həkim kimi buna görə Prezidentə, bu işi həyata keçirən inşaatçılara minnətdarlığımı bildirmək istəyirəm.

Salyan şəhərinin digər bir sakini - təqaüddə olan müəllim Sahib Həsənov:

- Əsrlərin problemini həll etmək heç də asan məsələ deyil. Uzaq məsafədən içməli su xətti çəkib gətirmək, kanalizasiya sistemi qurmaq külli miqdarda vəsait tələb edir. Məndə olan məlumata görə, Prezidentin sərəncamında digər bir neçə şəhərdə də belə işlərin görülməsi nəzərdə tutulub. Mən hələ Qarabağın şəhər və kəndlərində gedən nəhəng quruculuq işlərini demirəm. Onların həyata keçirilməsi üçün görün nə qədər vəsait lazımdır. Bütün bunlar düzgün qurulmuş iqtisadi siyasətin nəticəsidir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində bölgələrdə böyük tikinti-quruculuq, abadlıq işləri görüldü. Məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, olimpiya idman kompleksləri, müalicə diaqnostika mərkəzləri tikildi, yollar çəkildi, körpülər salındı, şəhərlər, qəsəbə və kəndlər qazlaşdırıldı. Və quruculuq işləri, gördüyümüz kimi, bu gün də davam edir.

"Görülən işdən gül qoxusu gələr", - deyiblər. Gün keçir, ay dolanır, il təzələnir. İnsan əli, insan əməyi ilə tikilən, qurulan, yaradılan nə varsa, tarixə düşür, yaddaşlarda qalır. Bu gün salyanlılar yaşadıqları şəhərdə ilk kanalizasiya xəttinin keçən əsrin 60-cı illərində çəkildiyini xatırlayırsa, demək, gələcək nəsillər də indiki layihənin icra olunduğu bu günləri də yəqin ki, unutmayacaqlar, minnətdarlıq hissi ilə anacaqlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## "Ağdam Residence" yaşayış kompleksində ilkin olaraq 6 yaşayış binası inşa edilib

**"Ağdam Residence" yaşayış kompleksi 1,55 hektar ərazini əhatə edir. Kompleksin ərazisində ilkin olaraq 6 yaşayış binası inşa edilib.**

Tarixi Ağdamın yeni baş planına əsasən şəhərdə həm fərdi evlər, həm də ortamərtəbəli yaşayış binalarının inşa olunması planlaşdırılır. Bu baxımdan "Ağdam Residence" yaşayış kompleksi işğaldan azad olunmuş ərazilərimizdə inşa edilən ilk yaşayış komplekslərindən biridir. "Ağdam Residence" layihəsinin tikinti rəhbəri Emin Cəfərov AZƏRTAC-a bildirib ki, kompleksdəki binalar 6 mərtəbəlidir və ümumi blokların sayı 11-dir. Mənzillərin 45-i birotaqlı, 108-i ikiotaqlı, 48-i üçotaqlı, 8-i isə dördotaqlıdır.

Kompleksdə tikinti-quraşdırma işləri artıq yekunlaşıb. Sakinlərin rahat yaşayışı üçün kompleksin ərazisində park, istirahət guşələri, sosial-məişət obyektləri, avtodayanacaqlar, velosiped yolları, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.



"Ağdam Rezidence" şəhərin mərkəzinə yaxın ərazidə yerləşir. Yaşayış kompleksi Ağdam şəhərinin yenidən qurulması, abadlaşdırılması və inkişafının təmin olunması istiqamətində öz əvəzsiz töhfəsini verəcək.

## Qəbələdə 15,3 milyon manatlıq sənaye məhsulları istehsal olunub

**Cari ilin yanvarında Qəbələ rayonunda fəaliyyət göstərən sənaye müəssisələri, həmçinin fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən faktiki qiymətlərlə 15 milyon 343,1 min manatlıq məhsul istehsal olunub.**

Qəbələ Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 72,4 min manat və ya 7,8 faiz çoxdur. İstehsal edilən sənaye məhsulunun 12,7 faizi dövlət, 87,3 faizi qeyri-dövlət sektorunun payına düşüb. İlin ilk ayında rayonda 3 milyon 218,3 min manatlıq sənaye məhsulu ixrac olunub.

## Üzümün üz ağartması üçün...

### Tovuzun bağlarında aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə aparılır

**Üzümçülüyün bərpası və inkişafı istiqamətində son illər Tovuzda xeyli iş görülmüşdür. Təsərrüfat sahibləri yaradılan şəraitdən istifadə edərək rayonda yeni üzüm bağları salmış, mövcud plantasiyaların sahəsini genişləndirmişlər. Qeyd edək ki, salınan yeni üzüm bağlarına lazım olan tinglər elə rayonun özündə yetişdirilir. Bununla 11 təsərrüfat məşğul olur.**

Hazırda rayonda 1150 hektardan çox üzüm bağı var və onun 19 hektarı yeni salınmışdır. 744 hektarı süfrə, 406 hektarı texniki sort olan bağlardan hər il nəzərdə tutulduğundan çox üzüm yığılır. Keçən il də plantasiyalardan bol məhsul əldə edildi. 10 min tondan çox məhsul toplayan bağbanlar hər hektarın məhsuldarlığını 285 sentnerə çatdırdılar ki, bu da əvvəlki ilin göstəricisindən xeyli çoxdur. Hətta elə təsərrüfatlar oldu ki, keçən ili daha yüksək göstəricilərlə yekunlaşdırdılar. Aşağı Quşçu, Düz Qırıxlı, Dondar Quşçu, Aşağı Mülkülü, Dönük Qırıxlı və digər kəndlərdə daha çox üzüm istehsalına nail olundu.

Onu da bildirək ki, istehsal olunan üzümün bir hissəsi şərab istehsalına sərf edilir. Məsələn, Aşağı Quşçu kəndi ərazisində 500 hektara yaxın bağdan toplanan üzüm şərab zavodlarına verilir. Qovlar şəhərində və İbrahimhacılı kəndində fəaliyyət göstərən fermerlər də yetişdirdikləri üzümdən hər il tonlarla şərab istehsal edərək çoxlu gəlir əldə edirlər.



Məlumdur ki, üzüm yığımı başa çatdıqdan sonra plantasiyalarda növbəti ilin məhsulu üçün hazırlıq işlərinə başlanılır. Bu zaman ən vacib olanı quru budamadır. Artıq rayon bağbanları xeyli vaxtdır budamaya başlamışlar. Onlar yaxşı bilirlər ki, üzümün həcminə və keyfiyyətinə təsir göstərən mühüm aqrotexniki tədbirlərdən biri budamadır. Təcrübəli üzümçü Çingiz Məhərrəmov deyir ki, budama işləri tənəyin yarpaqları töküldükdən 15-25 gün sonra-yəni noyabr ayının ikinci yarısından başlayaraq fevralın axırına kimi başa çatdırılmalıdır: "Payızda yarpaqlar tökülənə qədər və yazda tumurcuqlar böyüyənədək tənəyin birillik zoğlarında maksimum miqdarda qida maddələri olur. Yarpaqlar töküləndən sonra əsas qida maddələri zoğlardan tənəyin çoxillik hissələrinə və köklərinə axaraq ehtiyat qida maddələri şəklində toplanır. Bundan sonra budamaya başlamaq olar. Yazda tumurcuqların şişməsindən əvvəl qida maddələrinin zoğlara tərəf hərəkəti və təzə açılmış tumurcuqlar və cavan zoğların yarpaqları normal inkişafa çatana kimi həmin qida maddələrinin hesabına inkişaf edirlər. Məhz buna görə də tənək göstərilən müddətdən gec və ya tez budanarsa, bu, çoxlu miqdarda mənimsənilən maddənin itməsinə və tənəyin zəifləməsinə səbəb ola bilər. Odur ki, üzümçülükdə bütün aqrotexniki tədbirlər vaxtında həyata keçirilməlidir".

Tovuzun yeni bağlarında yerli sortlarla yanaşı, "Moldova" və "Mişel", eləcə də "Kişmiş" sortları əkilir. Aşağı Quşçu kəndinin sakini İsmayıl Hüseynov 5 hektar bu üzüm sortlarından yetişdirib. Qazancından şikayəti yoxdur. 20 nəfəri işlə təmin edən fermer yığılmış üzümün bir hissəsini 200 tonluq soyuducu anbarında saxlayır ki, satışa qışda çıxarsın.

Hazırda rayonun üzüm bağlarında son budama işləri görülür. Əsas diqqət budamada daha təcrübəli bağbanların iştirak etməsinə yönəldilir. Bundan əlavə, rayon icra hakimiyyətinin və Tovuz Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri tez-tez üzüm bağlarında olur, budamanın vəziyyəti ilə maraqlanırlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## ADAU ilə Kırşehir Ahi Evran Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

**Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının Kırşehir Ahi Evran Universitetinin rektoru Mustafa Kasım Karahocagilin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) maddi-texniki bazası ilə tanış olub.**



ADAU-nun rektoru Zəfər Qurbanov ali təhsil müəssisəsinin beynəlxalq əlaqələri, müasir laboratoriyaları, tədqiqat imkanları və qarşıya qoyduğu hədəflər barədə qonaqlara ətraflı məlumat verib. Rektor bildirib ki, ADAU ilə Türkiyənin Ege Universiteti arasında həyata keçirilən beynəlxalq ikili diplom proqramı ölkəmizdə həyata keçirilən ən uğurlu layihələrdən biridir.

Rektor Mustafa Kasım Karahocagil öz növbəsində rəhbərlik etdiyi ali təhsil müəssisəsinin maddi-texniki bazası və təcrübə imkanlarından danışıb.

Daha sonra birgə kadr hazırlığı, müəllim-tələbə mübadiləsi və elmi-tədqiqat istiqamətində əməkdaşlığın perspektivləri müzakirə olunub.

Görüşün sonunda ADAU ilə Kırşehir Ahi Evran Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. Əməkdaşlıq memorandumunda tədqiqat və innovasiya fəaliyyətinin inkişafı, birgə tədqiqat layihələrinin hazırlanması və həyata keçirilməsi, elmi məlumat mübadiləsi, birgə elmi konfrans və seminarların təşkili, elmi məqalələrin çap olunması, elmi və elmi-pedaqoji kadrların hazırlanması sahələrində əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

### 21 fevral Beynəlxalq Ana Dili Günüdür

# Dünyanın ən zəngin dillərindən biri

**Fevralın 21-i Beynəlxalq Ana Dili Günüdür. 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən təsis edilib. O vaxtdan bu günün Beynəlxalq Ana Dili Günü kimi qeyd olunması ənənəyə çevrilib.**



Hər il Beynəlxalq Ana Dili Günündə 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsi yenidən yada salınır.

## Milli kimliyimiz...

Doğma dilimizi anamız qədər müqəddəs bilirik. Buna görə ona "ana dili" deyirik. Şair Bəxtiyar Vahabzadə "Ana dili" adlı şeirində yazır:

*Dil açanda ilk dəfə ana söyləyirik biz,*
*Ana dili adlanır bizim ilk dərsliyimiz.*

Azərbaycan dili dünyanın ən zəngin dillərindən biridir. Bu dildə yaranmış əsərlər dünyanın ən qədim yazılı abidələri, şifahi xalq ədəbiyyatı nümunələri arasında əhəmiyyətli yer tutur. Xalqımızın tarixinin, mədəniyyətinin qədimliyini "Orxon-Yenisey", "Güntəkin", Mahmud Kaşğarinin "Divanül-lüğətül-türk" kitabı, "Kitabi-Dədə Qorqud" kimi söz sənəti abidələri də təsdiq edir. Zaman keçdikcə şairlərimizin, yazıçılarımızın yazdıqları bir-birindən maraqlı, möhtəşəm əsərlər yalnız Azərbaycan ədəbiyyatı deyil, eyni zamanda dünya ədəbiyyatı xəzinəsinin incilərinə çevrildi.

Tarixdən yaxşı məlumdur ki, bəşər sivilizasiyasının ilk beşiklərindən olan qədim məmləkətimizin səması hər zaman aydın, torpaqları təhlükəsiz, qansız-qadasız olmayıb. Təbii sərvətlərinin bolluğu, təbiətinin bərəkəti və əsrarəngizliyi Azərbaycana bəzən bəlalar gətirib. Ölkəmizin ərazilərinə hücum edən işğalçılar bu məmləkətin yalnız təbii sərvətlərini talamayıblar, həm də əzəli sakinlərinə milli kimliyini, mənəvi dəyərlərini, özünəməxsus adət-ənənələrini unutdurmağa çalışıblar. Azərbaycan xalqının belə çətin, ağır zamanlarında milli və mənəvi varlığımızın ən mühüm təzahürü olan ana dili də sınaqlarla üzləşib. Yadellilər ana dilimizi gözdən salmaq, öz dillərini başa keçirmək, rəsmi, ədəbi dil səviyyəsinə yüksəltmək üçün əllərindən gələni əsirgəməyiblər. Bu səbəbdən Azərbaycan ədəbiyyatının dünyaşöhrətli bir çox əsərləri əsrlər boyu doğma dilimizdə deyil, ərəb, fars dillərində qələmə alınıb. Bu da təkzibedilməz faktdr ki, həmin əsərləri müəllifləri yad dillərdə yazsalar da, öz milli kimliklərini ifadə etməyə müvəffəq olublar.

XIX əsrin əvvəllərində Azərbaycan tarixinin ən böyük faciəsini yaşadı. 1828-ci ildə Rusiya ilə İran arasında imzalanmış "Türkmənçay" müqaviləsinə əsasən məmləkətimiz ikiyə bölündü.

Doğrudur, çar Rusiyası ələ keçirdiyi Azərbaycanın şimal hissəsində ana dilində yazıb-oxumağı qadağan etmədi. Ancaq Azərbaycan xalqına milli kimiliyini unutdurmaq, milli özünüdərk prosesinin qarşısını almaq üçün sərt tədbirlər həyata keçirdi. Görkəmli publisist, şair Əli bəy Hüseynzadə "Hali-vətən" adlı şeirində o dövrü çox dəqiq təsvir edib:

*Ucundadır dilimin,*
*Həqiqətin böyüyü.*
*Nə qoydular deyəyim,*
*Nə kəsdilər dilimi.*

Ancaq bütün qadağalara, basqılara rəğmən Azərbaycan xalqı öz doğma dilinə sahib çıxıb, onu qoruyub, yaşatdı. Bu xalqın Azərbaycanın ictimai həyatında fəal iştirak edən, ziyalı, istedadlı, təəssübkeş, övladları ana dilimizi yad ünsürlərdən qorumağa səy göstərdilər. Odur ki, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Firudin bəy Köçərli, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Sultan Məcid Qənizadə, Nəriman Nərimanov və başqalarının çoxşaxəli yaradıcılıqlarında ana dili məsələsi mühüm yer tuturdu. Qələmə aldıqları publisistik əsərlərdə, müxtəlif janrlı ədəbi-bədii nümunələrdə ana dili ilə bağlı düşüncələrini, narahatlıqlarını əks etdirirdilər. Azərbaycanda ana dilində, o dövrün tələblərinə cavab verən, yeni üsullu məktəblərin azlığından şikayətlənən bu ziyalılar yalnız yeni tədris ocaqlarının yaradılmasına çalışmayıblar. Eyni zamanda tədrisin ana dilində aparılması, ana dilində yeni dərsliklərin yazılması uğrunda mübarizə aparıblar. Onlar ana dilinin saflığının qorunmasını və inkişafını özlərinin əsas qayəsinə çeviriblər. Bu böyük amal yolunda yorulmadan çalışıblar.

## Ana dilimizin cəfakeşləri

O dövrdə Azərbaycanın yeganə problemi oxumuş, dünyanın gedişindən xəbərdar olan, mütərəqqi fikirli insanlarının azlığı olmayıb. Təəssüf ki, ali təhsil almaq üçün uzaq ölkələrə üz tutanların, vətənə diplomla qayıdanların hamısı ana dilinə qarşı eyni dərəcədə həssas yanaşmayıb, məhəbbət bəsləməyib, təəssübkeşlik göstəməyiblər. Həmin dövrün mənzərəsini görkəmli yazıçı-dramaturq, publisist Cəlil Məmmədquluzadə "Anamın kitabı" adlı tragikomediyasında böyük ustalıqla təsvir edib. Əsərdə Zəhrabəyim ananın ayrı-ayrı məmləkətlərdə, yad dillərdə təhsil alaraq geri dönən üç oğlu nankorluq edərək doğma dilini bəyənmir, bu dildə danışmaq istəmir. Böyük dramaturqun "Anamın kitabı"nda məharətlə qələmə aldıqları yalnız bir ailənin, tək cəfakeş Zəhrabəyim ananın faciəsi deyildi. Zəhrabəyim ana, əslində vətənimizin ümumiləşdirilmiş obrazı idi.

Ana dilini bəyənməyib, ərəb, fars, rus dilində danışanlara 1906-cı ildə Üzeyir Hacıbəyli "Hansı vasitələr ilə dilimizi öyrənib kəsbi-maarif etməliyik" məqaləsində belə cavab verirdi: "Bizim türk lisanımız Avropa üləma və filosoflarının rəyinə nəzərən ən vəsi və kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir. Belə bir zəngin lisana sahib olub da ondan istifadə etməməyin özü böyük bədbəxtlikdir".

Nəriman Nərimanov isə həmin il qələmə aldığı "Bir gün" adlı məqaləsində Azərbaycan dilinin lətafətindən heyranlıqla bəhs edirdi: "Ana dili! Nə qədər rəfiq, nə qədər ali, qəlbi təlatümə gətirən bir kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud öz şəfqət və məhəbbətini sənə o dildə bəyan edibdir. Bir dil ki, sən hələ beşikdə ikən layla şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhunun ən dərin guşələrində nəqş bağlayıbdır. Bir dil ki, həyat və kainat haqqında ilk əvvəl bu dil sayəsində fikir hasil edibsən..."

Ana dilinə böyük həssaslıqla, təəssübkeşliklə və məsuliyyətlə yanaşma sonrakı illərdə də bir çox ziyalılarımızın fəaliyyətində, yaradıcılığında vacib yer tutub. Mirzə İbrahimov, Məmməd Araz, Bəxtiyar Vahabzadə, Tofiq Bayram və başqaları doğma dillərində danışmağı özlərinə ar bilənləri, eləcə də ana dilimizi yerli-yersiz əcnəbi sözlərlə yükləyənləri kəskin şəkildə tənqid ediblər. Şair Tofiq Bayram "Ana dilim" adlı şeirində doğma dilinə ögey münasibətin vətənə də yadlaşdığını bildirib:

*Döyüşdə bərkiyib el polad olur,*
*Zirvəyə uçmağa dil qanad olur.*
*Torpağın sevinci, dərdi yad olur -*
*Öz ana dilini bilməyənlərə!*

Bir mühüm məqamı da diqqətə çatdıraq ki, bütün dövrlərdə Azərbaycanın mütərəqqi fikirli, xalqının tərəqqisini düşünən ziyalıları çox dil bilməyi faydalı sayıblar, təqdir və təbliğ ediblər. Və onların böyük əksəriyyəti bir sıra xarici dilləri mükkəməl öyrəniblər.

Hələ XIX əsrdə görkəmli şair, maarifçi Seyid Əzim Şirvani oğlunun timsalında gəncliyə nəsihət edirdi:

*Kim ki, bəs bir dil eyləsə hasil,*
*Oldu bir nemətə o kəs vasil.*
*Cəhd qıl neməti-tamamə yetiş,*
*Elm təhsil qıl, məqamə yetiş.*

Bu günün Azərbaycanı bütün dövrlərdə onun vətənsevər, millətpərvər övladlarının arzuladıqları, görmək istədikləri bir məmləkətdir. Ölkəmiz müstəqildir. Xalqımız öz vətənində milli-mənəvi dəyərlərini qoruyur, yaşadır və inkişaf etdirir. Bu dəyərlər sırasında milli varlığımızın təcəssümü olan ana dilimiz mühüm yer tutur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# *MEDİA:* "Kütləvi kiberhücumu Azərbaycanın informasiya təhlükəsizliyinə təhdid kimi qiymətləndiririk"

Fevralın 20-də ölkəmizin bir sıra onlayn media resurslarına qarşı həyata keçirilən kütləvi kiberhücumu Azərbaycanın informasiya təhlükəsizliyinə təhdid kimi qiymətləndirir və bildiririk ki, veb-saytların fəaliyyətinin bərpası istiqamətində zəruri tədbirlər görülməkdədir.




AZƏRTAC xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyi açıqlama yayıb.

Açıqlamada həmçinin bildirilib: "Hazırda müvafiq dövlət qurumları tərəfindən kütləvi kiberhücumun nəticələrinin aradan qaldırılması və gələcəkdə belə halların təkrarlanmaması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Ölkəmizin informasiya təhlükəsizliyinə yönəlmiş bu hücum bir daha sübut edir ki, milli informasiya məkanımız daim ictimai fikri çaşdırmaq istəyən qüvvələr tərəfindən nəinki dezinformasiya və yanlış xəbərlərin yayılması, habelə media infrastrukturuna müdaxilə olunaraq məlumatın mənbədən silinməsi və dəyişdirilməsi cəhdləri ilə hədəfə alınır.

Bu kimi halların qarşısının alınması məqsədilə media qurumlarını öz resurslarının mühafizəsinə daha həssas yanaşmağa çağırırıq".


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Öz gücümüzə arxalanaraq Qarabağı və Şərqi Zəngəzuru dirçəldirik
Prezident İlham Əliyev Xankəndi və Xocalıya səfər edib
Prezidentin növbəti Qarabağ səfəri
Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası öz işinə başlayıb
Qan yaddaşı - ədalətin hökmü
Təxribatların himayədarı - USAID

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

**dənizdə və quruda yükqaldırıcı, xilasedici, qəza takelajlarının və yedəkləmə avadanlıqlarının yoxlanılması, təmiri, testi və sertifikatlaşması xidmətlərinin satın alınması məqsədilə**
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 27 fevral 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***


# Sensasion plan

## Ermənistanda müxalifət meydanı döyüşə hazır vəziyyətə gətirilib

Ötən müddət göstərdi ki, Ermənistanda müxalif qüvvələrin hazırkı iqtidara qarşı fəaliyyəti genişlənsə də, bu xüsusda keçmiş hərbi xunta önə çıxmağa cəhd etsə də, Xocalı soyqırımını törədənlərin və son savaşda məğlub olan müharibə canilərinin Paşinyanı hakimiyyətdən devirmək planları işə yaramadı.



Qeyd edək ki, onlar etirazlarına əsas kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. İqtidarın xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

"Hraparak" nəşri yazıb ki, Ermənistanda müxalifət meydanı döyüşə hazır vəziyyətə gətirilib, biri uzun sürən sükutu pozur, biri mitinq çağırır, üçüncüsü qurultay keçirir, digərləri isə başqa fəallıq formatlarını mənimsəyiblər. Amma bunlar nəinki dəyişikliklər edir, hətta Nikol Paşinyanın və partiyasının fəallaşmasına töhfə verir. Bununla belə bəzi şayiələrə görə, Rusiya dairələrindən mümkün dəyişikliklərlə bağlı Ermənistana müəyyən siqnallar ötürülür: "Xüsusilə Putin-Tramp görüşündən sonra Rusiya Cənubi Qafqazla məşğul ola bilər, ona görə də bəziləri hesab edirlər ki, müxtəlif təsadüfi cücərmiş qüvvələrin səhnəyə çıxmaması üçün siyasi meydan bu hadisələrə hazır olmalıdır. Müxalifət meydanında aktivlik olsa da və onların fikrincə, bu dəyişikliklər Paşinyanın xeyrinə olmasa da, onun partiyasının təmsilçilərindən birinin dilə gətirdiyi kimi, baş nazirin özünü təhlükədə hiss etməsi və dönüşü saniyələrin işidir. O, Qərbə xəyanət edə və Rusiyanın qucağına qayıda bilər. Beləliklə çevik siyasi təklif təqdim etməzdən əvvəl müxalifətin qarşısında uzun yol var. Məğlub olmuş, bir neçə ağa dəyişdirmiş idarəçi ilə işləmək Rusiyaya həmişə sərfəli olacaq".

Ümumiyyətlə, proseslər onu göstərir ki, Ermənistan gah Rusiya, gah Fransa, gah da ABŞ-yə arxalanaraq təhlükəsizliyini təmin edə bilməyəcək. Ermənilər üçün sülhün yeganə təminatı qonşularla, o cümlədən Azərbaycan və Türkiyə ilə normal münasibətlərin yaradılmasıdır. Bunun üçün isə birincisi, Paşinyan Ermənistan konstitusiyasında Azərbaycana və Türkiyəyə ərazi iddalarını ehtiva edən bəndləri çıxarmalı, ikincisi, Zəngəzur dəhlizinin reallaşmasına şərait yaratmalı, üçüncüsü sərhədin "monitorinqi" adı altında Ermənistanda yerləşdirdiyi Qərbin hərbi heyətinin fəaliyyətinə ehtiyac olmadığını bəyan etməlidir. Bunlar edilərsə, Paşinyan ümid etdiyi regional sülhü yaxınlaşdıra bilər.

Erməni xalqı əslində Nikol Paşinyanın hökumətindən narazı olsa da, keçmişə qayıtmaq istəmir. Çünki Ermənistanda xalq 20 ildən artıq müddətdə Dağlıq Qarabağ kartı ilə onu girov saxlayan, bütün regional və beynəlxalq layihələrdə iştirakdan məhrum edən, ölkəni işğalçı dövlət kimi dünyaya tanıtdıran Sarkisyan-Koçaryan koalisiyasından canını qurtarıb.

"4rd.am" nəşri yazıb ki, hökumətin son aylarda Rusiya əleyhinə atdığı addımlar Ermənistanda ciddi narahatlıq doğurub. Baş verənlər hətta hökumətə yaxınlığı ilə seçilən iş adamlarını da ciddi şəkildə düşündürməyə başlayıb. Belə ki Kremlə sadiq dairələr onlara tezliklə növbəti məhdudiyyətlərin elan olunacağını bildiriblər. Qeyd edilib ki, qadağalar xüsusilə də baş nazir Nikol Paşinyana yaxınlığı ilə seçilən nəhəng oliqarxlara ciddi təsir göstərəcək. Məhdudiyyətlərin siyahısı açıqlanmasa da, ehtimal edilir ki, Rusiyadan idxal ediləcək məhsullar əlavə vergiyə və digər inzibati tədbirlərə cəlb olunacaq.

Bütövlükdə bütün bunlar Ermənistanın böyük tənəzzül yaşadığını göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3498
Sifariş 369

Qiyməti 60 qəpik